İbad Məmizadə Ağdaşlı

# Şaman

(Roman)



# Şaman

İbad Məmizadə Ağdaşlı
[1]

2016

[1] Anamın əziz xatirəsinə ithaf edirəm!

Kitabın adı: şaman
Yazıçı: İbad Məmizadə Ağdaşlı
ISBN: 978-600-6930-84-8
Ərəb əlifbasından Latin əlifbasına köçürən: Əhməd Purbabayi, 25 mart 2019

# MÜNDƏRİCAT


**I Birinci cild** **5**

0.1 Birinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 7
0.2 İkinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 16
0.3 Üçüncü hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 21
0.4 Dördüncü hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33

**II İkinci cild** **41**

0.5 Birinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 43
0.6 İkinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65
0.7 Üçüncü hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 70
0.8 Dördüncü hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . 72
0.9 Beşinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 82
0.10 Altıncı hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 92
0.11 Yeddinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . 96
0.12 Səkkizinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . 101
0.13 Doqquzuncu hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . 105

MÜNDƏRİCAT

# Part I

# Birinci cild

## 0.1 Birinci hissə

Artıq dan yeri sökülmüş və torağaylar oxumağa başlamışdılar. Atın qıçları şehdən islanmışdı. Günəşli yaz şehi çəmənə sanki mirvari taxmışdı. Torağayların oxumasına baxmayaraq iki dağ arasındakı bu düzə ağır sükut çökmüşdü. Atın ayağı altından pırıltı ilə uçan bildirçinlər adamı diksindirirdi. Heyvanın burunlarından çıxan nəfəs səhərin şaxtasında duman yaradırdı. Şaman isə bunların heç birisinə fikir vermədən çapırdı.
Obaşdanadək yatıb, səhər ala tordan Yeycəyə getmək qərarına gəlmişdi. Amma ilk axşamdan yerinə girmişdisə də yata bilməmişdi. Sanki başının altına daş qoyulmuşdu. Gözlərinə yuxu gəlməyən Şaman iki-üç dəfə bayıra çıxıb atına baş çəkmişdi. Ayaz gecənin aydın səmasındakı saysız ulduzlar kimi çabalayırdı. Dəniz qədər hövsələ sahibi olmasına baxmayaraq bu gecə xoruzların ikinci banına tələsirdi. Bacısının xəstəliyinin qeyri adi olduğu ürəyinə dammışdı. Dalbadal ah çəkir, köksünü ötürürdü. Xəyalında min-bir fikir canlanır və ildırım sürəti ilə dəyişirdi. yoxu gözlərini çıxarsa da səhərə kimi bir anlıq da olsun çimir edə bilmədi.
İtlərin səsi, çobanların və naxırçıların hay-küyü Şamanı xəyal ordusunun əlindən xilas etdi. Atın cilovunu çəkib yavaşıtdı. Artıq çən götürülmüşdü. Günəş üfüqdən xeyli aralanıb öz işığı ilə yamaclardakı şehli çəmənlərə xüsusi parıltı verirdi. Digər quşlar da torağaylara qoşularaq öz sehrkar nəğmələri ilə bütün varlığı dinləməyə çağırırdılar. Günəşin çıxmasını Ərşənin əlvan çiçəkləri gülüşlə, qönçələri isə təbəssümlə qarşılayırdılar. Təbiət bütün varlığı ilə gecə qaranlığının yaratdığı mübhəm dünyaya qarşı mübarizədə qələbə çalmışdı.
Şaman bunların hamısına baxırdısa da heç nə görmürdü. İxtiyarsız olaraq yenə də atın cilovunu boşaltmışdı. Nə qədər çalışırdısa bacısının nə vəziyyətdə olduğunu təcəssüm edə bilmirdi. O, fikrini vahid bir istiqamətdə belə saxlaya bilmir, gah bacısı ilə keçirdiyi günləri yadına salır, gah yeznəsinin qara xəbəri gələn günləri xatırlayır, bəzən də bacısının və bacısı uşaqlarının gələcək həyatını düşünürdü. Bunların hamısı məhz bacı ölümündən sonra insanın fikrinə gələ bilərdi. Şamanın xəyal yelkəni isə öz əlində deyildi. O, ayrılığı yaxında görən adam kimi ömrünün ən incə çağlarını yadına salır, arzusunda olduqlarını xəyalında canlandırır və onlara çatmağın qeyri-mümkün olduğuna acıyırdı.
Keçmişdən ən çox bacısı ilə keçirdiyi günlər yadında qalmışdı.

Zərinin beş yaş böyük olduğuna baxmayaraq onunla bir yaşıd kimi oynayırdı. Ana məhəbbəti görməyən qardaş bir an belə bacısından ayrıla bilmir, tez-tez ona sığınırdı. Axı Zəri onun təkcə bacısı deyil, həm də anası idi. Ayaz gecələrdə sərçə kimi sayrışan saysız-hesabsız ulduzlar arasında sakitcə işıq saçan gümüşü aya necə də həsrətlə baxır və «mən sənin qədər dəcəllik edib, anamı üzümə silli vurmağa məcbur etməzdim»-deyə düşünürdü.
Anasızlığı yadına salmaq nə qədər acı və nə qədər ağır olsa da bacısızlığı təsəvvürünə də sığışdıra bilməzdi. Axı Zəri onun analıq qayğısını da çəkirdi. Köksündə dünya

boyda ana qəlbi döyünən O kiçik qız öz çörək payını dəfələrlə qardaşına vermişdi. Bir gün Vayış ilə savaşanda, Vayışın anası Rəqibə onun üstünə şığımışdı. Amma Zəri qardaşını bağrına basmış və Rəqibənin əli ona toxunmamışdı.
Şaman sonralar qüdrətli gənclik çağlarında belə bu hadisəni xatırladıqda bərk acıyır və adamsızlara nə qədər də yazığı gəlirdi. O, öz bacısının hamıdan güclü olduğuna inamını ömrünün son anlarına kimi itirməmişdi. Sonralar hətta bacısı ər evində olanda da həyatın ağır və dözülməz çağlarında bacısına sığınar və onunla dərdləşib danışardı. Daha doğrusu Zəri onun ömrünün mənəvi hissəsi idi. Onsuz yaşayacağını təsəvvürünə də sığışdıra bilməzdi...

Qarasuyun yarğanı atı dayandırdı. Şaman ata mahmız göstərmək istədikdə gözü çaya sataşdı və Cumayranı haçan keçib Axmaza çatdığını yadına sala bilmədi. Artıq günəş əyilmişdi. Xəzərdən əsən sərin külək meşə qoxusunu Axmaz çiçəklərinin ətri ilə qarışdırır və insan muşamında qəribə bir hiss oyadırdı.
Çayın şırıltısı, quşların cəh-cəh i, qan tər içində çalışan əkinçilərin əmək mənzərəsi adamı başqa bir əhval-ruhiyə, sərxoşluq aləminə aparırdı. Təbiətdəki bu gözəllik bir anlıq da olsa Şamanı öz düşüncəlindən ayırdı. Özündən asılı olmayaraq ətrafı süzdü. Ərşə dağlarının güneyindəki yaşıllıq sanki Savalan ətəyini inikas etdirirdi. Yoxuşa doğru gedən əyri-üyrü yollar uzaqlarda bir cığıra dönür və yerin göyə qovuşduğu nöqtədə, üfüq aşırımında gözdən itirdi...
Şaman dərindən ah çəkib atı Sünni suvatına(1) yönəltdi. Kəndə yaxınlaşdıqca iztirabı artır, ürəyi daha şiddətlə döyünürdü. Yenə dilinə gətirmədiyi, lakin xəyalının enişinə süzülən, yoxuşuna burulan qara meh kimi bir sorğu onu buraxmadı: «görəsən bacım necədir?»
Getdiyi çayarası yolu qəbiristanlıqdan sovuşurdu. Qəbiristanlığa çatanda adət üzrə dayandı. Fatihə verib getmək istədikdə ürəyi gələr-gəlməz ora döndü. Öz tayfası basdırılan bölgüyə gedib yeni qəbir görmədikdə arxayınlaşdı. Demək bacısı sağdır. O isə bundan başqa hər bir dərdə dözərdi. Atı çay qırağı ilə bir-başa bacısı evinə sürdü. Salman gilin qapısına çatanda qapını bağlayıb getmək istəyən Güllübəyim Şamanı gördükdə sərsəmə kimi xoşgəldin etməyə söz tapmayıb, «gəl evə, ay bala»- deyə atın cilovundan yapışdı.
- Allah abad eləsin bibi, bacıma baş çəkib gələrəm, deyib artırdı:
- Səlidayı evdə?
- Sən atı çək içəri, indi gələr.
Əslində Güllübəyim onu içəri aparıb bacı ölümünü qarşılamağa hazırlaşdırmaq fikrində idi. Onun özü böyük müsibətlərə dözmüşdü. üç gəlin qızının, bir cavan oğlunun vaxtsız ölümündən arvad tamam qocalmış və yumağa dönmüşdü. Güllübəyim kənd içində hörmət sahibi idi. Böyüklü-kiçikli, hamı ona bibi deyir və sözlərinə, öyüdlərinə cavahir kimi qiymət verərdilər. Kəndin bütün xeyrində, şərində bibinin qayğısı olurdu. Onun bir sözü iki olmazdı. Şaman da onun təklifindən boyun qaçıra bilməyib atını içəri çəkmədən evə girdi.
Bu ev hələ uşaqlıq cağlarından ona tanış idi. Ərdəbildə aclıq küləyi insan çiçək-

lərini soldurub-sovuranda bir dəri, bir sümüyə dönmüş ac adamlar həmişə bu qapıya gələrdi. Bu evin qapısı bibinin mehriban ürəyi kimi hamının üzünə açıq idi. «beş qranlıq» adamları xəzəl kimi qırıb, tökəndə varlılar bir qarın çörəyi bir mis qazana yaxud bir qızıl sırğaya satırdı. Bibi isə özü demişkən, «allahın öz bəndəsini imtahana çəkdiyi günlərdə» öz tikəsini hamı ilə bölüşmüşdü. Ata-anası acından ölüb aralıqda qalmış yetimlər onu ana sanır və şıltaq edirdilər. Şaman da bu evdə və həmin uşaqların içində böyümüşdü.
«Evə də xoş gəlibsən»-deyə Güllübəyim sözü haradan başlayacağını bilməyib susdu. Şaman bibinin bu cür yanaşmasından təəccübləndisə də bir söz demədi. Bibi çətinliklə özünü ələ alıb dilləndi: «dünya belə gəlib, belə də gedəcək, bu il də taxılı siçan apardı. Aparmasaydı da bizə fərq etməyəcək di. Ağa aparacaqdı, siçan ya ağa, ikisi də tarının çarasız dərdidir. Fələk bizlərə yazı yazanda dərdimizi dözümümüzdən çox yazıb, hamımız qarayazı olmuşuq. Nə üçün üç gəlin qızımı, bir igid oğlumu əlimdən alıb? vallah bu yaşa çatmışam, bircə gün də sevinməmişəm. Güləndə də özümü arsızlığa vururam. ey neyləmək, bir başı arsızlıq olmasa qəmdən bağrımız çatlayardı. Bu beş günlük dünyada it korluğu çəkirik. Meyi bacımın Savalan dağı boyda igid oğlu itkin düşdü. Yazığın indi də gözü yol döyür. Zəhrimara dönəydi bu bir tikə çörək. Aclıq-yalavaclıq, ölüm-itim, dözməkdən başqa çara yoxdur». Bibi sözünü davam etdirə bilmədi. Şaman, «doğrudan da dözməkdən başqa çara yoxdur?»-deyə öz-özünə düşündü. O, birdən Bibiyə dönüb soruşdu:
- Qapını qıfıllayıb hara getmək istəyirdin?
- Hamı ölmək üçün yaranıb bala,-deyə bibi gözünü yerə dikib, köhnə kilimdən çıxan boyluğu oyan-buyan eləməyə başladı. Gözlərindən leysan kimi yaş tökə-tökə «başın sağ olsun ay bala» dedi. Şaman yaş içində üzən gözlərini bibiyə zillədi. Onun gözlərindən acizanə bir yalvarış ifadəsi yağırdı. Dodaqları əsdi. Qəlbinə sarsıdıcı bir kədər çökdü: «axı...bəs ...mən» başqa söz deyə bilməyib dərhal ayağa qalxdı.
Bacısı gilin qapısına xeyli adam yığışmışdı. varlığını tamamilə yalqızlıq bürüdü. Köksündəki yanğını söndürmək üçün çəkdiyi nəfəslər çatışmırdı. Üzünü yana döndərdi. Hönkür-hönkür ağlamasının qarşısını ala bilmədi…
Bacısının üzünü son dəfə görmək üçün tabuta yaxınlaşdı. Gözlərini əbədi yumaraq necə də sakit, necə də vüqarla yatmışdı tabutda. İnsanın saçı otuz beş yaşında da bu qədər ağararmış. Otuz beş ilin ağrısını-acısını nümayiş etdirən qırışmış sifətini dodaqlarındakı sirli bir gülüş izi məsumluq abidəsinə çevirmişdi.
Üzünü onun soyuq üzünə qoydu. Gözlərinin yaşı bacısının üzündən axıb tabuta süzüldü. «qurbanın olum ay bacı» duyğusu ilə inildəyir və onun cansız əlilə üz-gözünü sığallayırdı. «bir kərə danışsaydı fəqət» -deyə ürəyindən qeyri-mümkün bir arzu keçdi. «fələk öz saydığını sayar, onun çarxı bir an belə geri dönməz» adlı həqiqəti danmaq, məhv etmək istəyirdi. Özünü ələ ala bilməyib başını qaldıraraq bağırdı və yıxıldı...
Tabutu qəbiristanlığa apardılar. Meyiti basdırandan sonra əlini qəbirin torpağına

qoyub fatihə oxudu... Günəş Zəri saçaqlarını ətraf dağların zirvələrindən yığışdırır və Savalana sığınmaq istəyirdi . Xəzərdən əsən külək artıq adamın üzünü oxşayan səhər əsintisinə çevrilmişdi. Bildirçinlər ara vermədən oxuşurdular. Şamanın varlığını isə sarsıdıcı bir duyğu bürümüşdü...
Ertəsi gün kişilər cüzv oxumaq üçün məscidə getdilər. Bunun özü də Şamana bir nisgil oldu. Axı onun da mümkünü olsaydı, evində cüzvü qoyub ehsan verəcəkdi. Atası Xalıq öləndə el adəti ilə qabağa çıxmış və eldən O rəhmətliyə halallıq istəmişdi. Qonaqların qarşısına ləyaqətlə çıxıb üç gün yas saxlamışdı. üstəlik yeddisini, qırxını və hətta ilini də qeyd etmişdi. Bacısı öz yanıqlı səsi ilə ata-anasını oxşamışdı. Deməк olar ki, ata ölümü Şamana O qədər də ağır gəlməmişdi. İndi isə tamam əksinə idi. Zərinin yaşadığı daxma bom boş idi. Özü də ki, didərginin biri idi. Belə yoxsullar öləndə kənd əhalisi məsciddə yas saxlayırdılar. Çay-qənd pulunu da əhali ödəyirdi. Qadınlara gəldikdə isə onlar yemək istəmir, özləri bir yerə yığışıb ağlaşırdılar.
Zərinin yasında da kəndin bütün arvadları Güllübəyim gilə yığışmışdı. O boyda ev qadınla dolmuşdu. Heç kim dinmirdi. Hamısı dərin hüznə dalmış və bir dinən güdürdülər. Nəhayət Xatayı dilləndi: «vallah Zəri xoşbəxtdir. Qara yazı mənəm ki, qardaş ölümü ürəyimi yandırır» dedi, sonra isə adi bir soyuq dəymənin güdazına gedən qardaşı Sadatxanı oxşadı:
Bu görükən savalandı
Sultandı, savalandı
Nə dərdin yaddan çıxar, ay Sadatxan,
Nə yaran sağalandı.
Gözlərdən leysan kimi yaş süzür, ürəklər od içində çabalayırdı. Səkinəxalanın vəziyyəti adi ağlamaqdan sovuşmuşdu. İçini çəkir və huşunu itirmək üzrə idi. Yaxasını açdılar. Xırdaxanım bir az su içirtdi. Boyun-boğazını ovdular. Məclisdə qəribə bir əhval-ruhiyə yaranmışdı. Güllübəyim «bəsdi qızım,»-deyə Xataya döndü: «dünyanın işi elə belədi. Bütün yarananlar öləcək. Bəyəm qurbanı olduğum peyğəmbər ölmədi? bəyəm qabırğaları sınan Fatimeyi Zəhra ölmədi? bəs müsibəti yerə-göyə sığmayan Zeynəbnən necəsən? sən özünü öldürməklə qardaşın dirilməyəcək ki. Balalarına yazığın gəlsin, onları yetim qoyarsan». Xatayı «ya İmam Hüseyn, müsibətüvə canım da balalarım da qurban» deyə bir az sakitləşdi. Məşhəd Sədiqə bir fatihə verdi. Sonra çay gətirdilər.
Yekəlidən gələn bir dəstə qadın yetişdi. Zərinin bibisi qızı Narıngül də onların içində idi. elə bu vaxt Zərinin yetimi içəri girdi. Narıngül uşağı bağrına basdı. Artıq ixtiyarı əlindən getmişdi:
Dəvələr otlar gallahı
Otlar, otlar gallahı
Əzrayil yanuva gələndə, ay dayı qızı
Çağıraydın allahı.
Məclisdə bir daha qiyamət qopdu. Qapıdan keçənlər ağıları eşidəndə özlərindən

asılı olmayaraq dayanır, bəzən belə oturub bir az ağlayırdılar. Ağı çəkənlərin səsi bir-birinə qoşulur və O qədər həzin, O qədər yanıqlı olurdu ki, adam hər şeyin artıq bitdiyini, dünyanın dəhşətli bir zəlzələ yaxud Sam yeli nəticəsində məhv olacağını təsəvvür edirdi. Narıngül ikinci oxşamanı dedi:
Gəlirdim qırağınan
Gül biçirdim orağınan
İtirmişəm dayım qızın
Axtarıram sorağınan.
Güllübəyim olmasaydı məclis sakitləşməyəcəkdi. O həmişə bir az güdür və hamı ürəyini boşaltdıqdan sonra oxşamanı başlayırdı. İndi də «bala day bəsdi»-deyə Narıngülün gözlərini sildi. Narıngül bir uşaq kimi ona sığındı: «ay bibi, ürəyim yanır axı,
Qara günlü allahdan özünə ölüm dilədi»...
Doğrudan da Zəri özünə ölüm diləmişdi. Həmişə orucluq gecələrində hamı məscidə yığışdıqdan sonra, molla minbərə çıxmazdan əvvəl yoxsullara və məscidin özü üçün pul yığılardı. O gecə də Səlidayı salavat çevirtdirib «kəndimizdə yoxsul var, hamı fitrəsini ona versin» demişdi. Səlidayı yoxsulun adını çəkməsə də onun kim olduğunu hamı bilirdi. şəbistandakı arvadlar bu işdən sevindilər: «yaxşı oldu, yeməyə bir tikə arpa çörəyi də yoxdur yazığın. Yemliklə də oruc tutmaq olar»? əslində onların çoxu yemliklə oruc tuturdular, amma fitrənin adi gələndə hamı danırdı. Bu iş Zəriyə çox ağır gəldi. Qaranlıq bir bucaqda oturmuşdu. Əllərini göyə qaldırıb, «ilahi, səni and verirəm bu ayda başı parçalanan ağanın hörmətinə, bu çörəyi mənə qismət eləmə« demişdi. elə də oldu. Lap sabahısı gündən yorğan-döşəyə düşmüş və bir aydan sonra ölmüşdü...
Güllübəyim yaslarda öz gəlin qızlarını və cavan oğlunu oxşamazdı. Bu işi nehrə çalxayanda ya da gecələr tikiş tikəndə xəlvəti görür və ürəyini boşaldana qədər oxşayıb ağlayardı. İndi də sanki bütün ayrılıq udunda yananları oxşadı:
Aman, aman ayrılıq
Olur yaman ayrılıq
Eşidəndə başımdan
Qopur duman ayrılıq.
eylədi qəhəri mənə
Gəlmədi rəhmi mənə
Doldurub qəm piyaləsin
İçdirdi zəhəri mənə.
Zərinin üçündə axşam məscid dağılışdıqdan sonra qonum-qonşu bibi gilə yığışdılar və necə deyərlər Şamanın yanına gəldilər və çox fikir çəkməsin deyə oyan bu yandan danışmağa başladılar. Gecə yarı olurdu. Salman kişi Şamanın tərəfindən oradakılara dua-sana elədi və onlardan istədi ki, öz evlərinə gedib dincəlsinlər. Axı özü demişkən iş-güc vaxtıdır və çöl-bayır əmək gözləyirdi adamlardan. Gələnlərin tərəfindən də Şamana dil-ağız elədi: «oğul, indi sən Xudanın həm anasısan, həm

də dayısı. Çək öz yanuva kor-köndəm öyrət. Allah kərimdir, dünya belə də qalmayacaq. şükür olsun onun məsləhətinə, özü bilən yaxşıdır» dedi və nəhayət bir fatihə ilə yasa yekun vurdu.
Qonum-qonşu dağılışdıqdan sonra arvad-uşaq tənəbiə gəldi. Bibi kuzədən adama bir istəkan çay süzdü. Belə gecələrdə həmişə şaqqıldayaraq ucadan gülən və dadlı-duzlu zarafatları ilə hamını güldürən Şamanın sanki bu gecə buzov qarnında ölmüşdü. Bir tərəfdən özünün ağır vəziyyəti, digər tərəfdən də Xudanın taleyi onu çıxılmaz şəraitdə qoymuşdu. Bibi dilləndi:

- bala, fikir çəkmə, qoy bütün fikirləri Allah çəksin. O rəhmətlik də dincəldi. Sən də özüvü üzmə. Muğanda qalma. Cər-cəməgüvi yığışdır, gəl bura. Qoyma yetimin torpağı itin-qurdun əlinə keçsin. Hamı çölündə-bayırında, arxında-suyunda, sən də O rəhmətliyin əkdirdiklərini becər, Muğanın hamarında, ilan-çəyənin içində nə işin var. Gəl qoyma atovun çırağı sönsün.
Şaman sanki bir az yüngülləşmişdi. Köksünü ötürüb, Səlidayıya baxdı. Onun sözünü güdürdü. Amma Səlidayının və eləcə də bibinin sözü yox idi. Onlar Şamanı danışdırmaq və daha doğrusu onu köçərilikdən, ora-bura qaçmaqdan qurtarmaq istəyidirlər. Şaman isə sanki ata-anası ilə danışır, qıçlarını dəyişdirib, bağdaşını qurdu və evin o tərəfində uşaqların içində yatmış xudana işarə ilə dedi:
- Mən bu yazığa ata ola billəm, dayı ola billəm, amma ana ola bilmərəm axı. Anasız uşağa yiyə duran olmaz, arada qalar... Səsi əsdi, sözünü davam etdirə bilmədi. Bibi dilləndi:
- bala, bəyəm Güllübəyim ölüb, Xudan aralıqda qala? nə qədər canımda can var qoymaram kimsənin əli ona toxunsun. üç qızımın uşağın saxlamışam, Xudan da dördüncü qızımın uşağıdır. Sən arxayın ol, mən onu gözümün bəbəyi kimi qoruyaram.
Əslində bibi demədən də Şaman bilirdi ki, nə qədər bibi var Xudan aralıqda qalmayacaq. Amma nədənsə bacısından sonra bu sözü onun ağzından eşitmək ürəyini sakitləşdirirdi. Sonra Səlidayıya döndü:
- Ağalar məni kənddən çıxardıb axı?
- Mən günü sabah səni özümlə ağanın yanına aparram. vəziyyət bir az dəyişib, Xudanın yerini də biri əkməlidir. kim səndən yaxşı? yalvarıb-yaxarram, ağa da inşallah bir söz deməz. Sən də ki, oğul bir az sakit dolan. Dövrədən bu yetimin torpağına göz tikən var. Dünən məsciddə xəlvəti bəzi-bəzi adamlara bildirdim ki, Xudanın yerin dayısı əkəcək. Hacı Taran çox ötgünlük edirdi. Tütəyin dilin çəkdi. Ağa da bir az yumşalıb, xəbərim var...
Bibi Səlidayının sözünü kəsdi:
- Xudanı da özüznən aparın, kişi. Ağaya deyərsən: bax yetimin qarğışın götürməsin, allaha xoş getməz. Deysüz lap özüm də gəlim?
- Bəsdi arvad, sən lazım döyüsən, özüm sözümü deyə bilərəm. Ağa fəqət bir mahna gətirəcək. Deyəcək; Şamanın öküz-arabası yoxdur. Bunu da mən öz boynuma götürərəm... Gecə yarıdan keçib, durun yatağın. Görək sabah özü ilə nə gətirəcək?

- xeyir gətirər inşallah.
Ertəsi gün günəş yenə həmişəki kimi dağların arxasından baş qaldırıb Zəri saçaqlarını ən əvvəl Savalanın zirvəsinə, sonra da tələsmədən qayalara, dağ ətəklərinə və yamaclara sərdi. Qaranlıq isə öz yerini uzun kölgələrə verdi və günəş qalxdıqca kolkos dibinə sığınmağa başladı. Yenə çobanlar və naxırçılar qoyun-quzunu, malqaranı səhər tezdən otarmağa apardılar. Yenə də torağaylar oxuşa -oxuşa gözdən itənə qədər yüksələrək mavi göyün dərinliyinə hopdular. Yenə gərmic buludları atili pambıq kimi havada üzdü. Axşam çağının yorğun günəşinin sığınacağı olan Savalan yenə vüqarla dayanmışdı.
Şaman səhərə kimi bir an da olsun gözünü yuma bilmədi. Bəzən atası ilə, bəzən də bacısı ilə keçirdiyi günlər yadına düşürdü. Xatirələrin bəzisini sonuna qədər izləyirdi. Çoxu isə yarımçıq qalır və yerini başqa bir xatirəyə verirdi. Şirin xatirələri bacısı ilə keçirdiyi günlər, ən şirini isə başını onun dizi üstə qoyub yuxulaması və uzun qış gecələrində Zərinin ona nağıl danışması idi. Necə də gözəl idi o nağıllar. Nağıllarda quşlar, heyvanlar, hər şey dil açıb danışırdı. Canavar keçinin Şəngül-Məngülünü yeyəndə, canavara necə də nifrət edir, xoruz isə, «mənim canım qurtuldu, şahın g…yırtıldı» deyəndə necə də sevinirdi O. Yaxud bacı-qardaşı divlər qovanda necə də iztirab keçirirdi ürəyi. bəyəm O vaxtlar nağıl-tapmacasız yaşamaq olardı? axı Zəri ona bayatı da oxuyur, tapmaca da deyərdi:
«Gəlirdim kətdən
Hay vurdu bərtdən
Əngi sümükdən
Saqqalı ətdən.
Əyəm bildin?»
Şaman bacısının bu sorğusuna «xoruzdu də» deyə sevinə-sevinə cavab verirdi.
O, bu şirin xatirələrə elə dalmışdı ki, dan yeri sökülləndə onu çulğayan yoxu da keçmişindən ayıra bilmədi. yuxuda bacısını gördü. Onun ölməsi heç yadına da düşmürdü. Həmişəki kimi üzü gülürdü. Əlli cur zarafat və atmaca ilə Şamandan evlənməsini istəyirdi: «ay qağa! axı niyə evlənmirsən? bax yubansan mən qocalaram oynayan olmaz a». Şaman da həmişəki cavabı verdi:
- İnşallah Xudan böyüyər, evləndirərsən. Onda mənli-oynarıq.
Zəri bir az ciddiləşdi:
- Atım ölmə yonca bitəcək. Axı bacın boyuna qurban, belə də iş olar? mənim başımı Xudanla azdırırsa n? gönlündəkin bilirəm. Neynim, fələyin çarxı çevrilsin. Ağaynan rəiyyətinki tutmur. Maxluq da əlli dənə söz danışır. Sənin kimi igidi başıma sərki eləyiblər. «görəsən nə illəti var, qızların heç biri ona yaramır», deyirlər. Allahın Mənzəri deyirdi ki; «aşağıda oturmur, yuxarıda da yeri yoxdur». Ay qağa. Başuva dönüm, gəl tök şeytanin daşın ətəyindən. Bir özünə baxanda onlarda da günah yoxdur. Tutaq xan lap öz qızın sənə vereydi, onunla bizimki rast gələrdi? O, varlı–dövlətli, sən yoxsul babanın biri. Heç o cur evdə böyüyən qız bu daxmada qala bilər? dilin güdə olar, heç nə deyə bilməzsən. rəhmətlik «Biri

nənəm» demişkən qısıla-qısıla xan qızının qoynuna girincək os...- os... Çoban qızının qoynuna gir. Allah o qızı, deyim nə eləsin, bizi evlikdən saldı...
Şaman Səlidayının səsi ilə yuxudan oyandı. elə bilirdi, bacısı gildədir. Həmişəki kimi bacısını çağırmaq istədi. Ancaq Səlidayının bir daha səsini eşitdi: «Şaman, ay Şaman. Tez ol bir tikə çörək yeyib gedək ağanın yanına...»
Mülkədarın oturduğu bina bir bağçanın içində idi. ev bir otaq, bir dəhliz, bir sandıqxana və bir tənəbidən ibarət idi. otaq Mülkədarın iş dəftəri sayılırdı. O, sandıqxanadan dustaqxana kimi də istifadə edirdi. Bundan əlavə bir anbar da var idi. Ağanın qulluğunda heç kimin oturmaq ixtiyarı yox idi, ayaq üstə durmalı, əmrlərinə qulaq asmalı, göstərişlərini öyrənməli və nəhayət izn alıb çıxmalı idi. Həyətin hasarı möhrə divar idi, binanın özü isə qırmızı kərpicdən tikilmiş və üstünə palıd nal atılmışdı. Divarları kirəmitlə ağardılmışdı. Ağa onu tikdirəndə başqa yerdən usta gətirmişdi. Fəhləliyi isə rəiyyətlərin boynuna düşmüşdü. Demək olar ki, rəiyyətlərin hamısı növbə ilə orada işləmişdi. Şamanın atası Xalıq kişi də həmin binada fəhləlik eləmişdi. Kəndlilər səhər tezdən gəlib axşamadək işləyir, günortaçağı bir saatlıq nahara çıxırdılar.

Daha doğrusu onlar özlərindən yeyir, ağaya işləyirdilər. Şamanın üç-dörd yaşı olardı. Atası bir gün axşam Zəriyə demişdi: «qızım, mən sabah begara gedəciyəm. Qardaşınla gedib xaşanın tikanın çəkərsən»...
Şaman ağanın qulluğuna ikinci dəfə olaraq gəlirdi. birinci dəfə on səkkiz yaşında ikən Mirzə Məcidin qızına vurulduğu zaman ağa onu çağırtdırıb bu işdən çəkindirmişdi. İndi isə öz istəyi ilə gəlib, kəndə qayıtmağına və bacısının yerini əkməyə izn istəyirdi. Əlbəttə bu dəfə tək yox, Səlidayı ilə birlikdə gəlirdi. Səlidayı gözəl xasiyyətli bir kişi idi. Hamının dərdinə dəyir və mümkün qədər ehtiyaclarını aradan qaldırırdı. Ağadan gizli bir buğda belə götürməzdi. Bu işi haram bilərdi. Ağanın yanında nəinki heç kimin pisliyindən danışmazdı, əksinə təqsirkarların bağışlanmasını istəyirdi. Buna görə də kənddə böyük hörmət sahibi idi. Başqa varlılar ağanın yanına gedəndə hamının «canı camtayıya düşür» və rəiyyətlərin əleyhinə danışacaqlarını, kiminsə torpağının alınmasını mülkədara təklif edəcəklərini yəqin edib nigaran olurdular. Səlidayı gedəndə isə «işlər düzələcək», deyə arxayınlaşırdılar.
Səlidayı ağanın hüzurunda ayaq üstə durmur, əyləşirdi. Bu dəfə də O, Şamanla birlikdə ağanın yanına gedəndə əhali sevinib, işin düzələcəyinə, Şamanın kəndə qayıdacağına ümidvar oldular. Hacı Taran isə yumurtası olan tuyuq kimi vurnuxur və binanın ətrafından əl çəkmirdi. Bir tərəfdən Səlidayının ağa yanına getməsi onun ümidini üzürdüsə, digər tərəfdən ağaya təklif etdiyi beş yüz tümənə arxayın idi.
Mülkədar, Səlidayının Şamanla birlikdə yanına gələcəyini bilirdi. Hətta Salmanın nə üçün gəlməsini də Hacı Taran ona yetirmişdi və əlavə etmişdi ki; «naba-naba. Şamanın ayağı kəndə açıla. Ağaların namusuna kəj baxır O. Hələ deyəsən rəiyyətləri də yoldan çıxardır. Avaranın biridir. O hara, yer əkmək hara, O hara duz dolan-

maq hara, elə atasının da qabında var idi. O öldü, canımız dincəldi. Bu da kənddən qovulanda dincəlmişdik, ancaq… axı ay dərdin alım, bizim kimi nökərlərə nə olub ki, sənin torpağuvi lat-lüt, qarı-qoca, nə bilim yetim-yesir əksin. Mirzə Məcidin rəiyyətlərinə bax. Bir dənə də çarıq-çurugu yoxdur. arvadımın tumanına kimi satıb beş yüz tümən düzəldərəm. Sən Allah kəs Şamanın ayağın bu kənddən».
Ağa Şamanın da Səlidayı ilə əyləşməsinə izn verdi. Onlara çay da gətirtdi. Bir stəkan çay içdikdən sonra Şamanın üzünə baxmadan:
- Allah bacuva da rəhmət eləsin, dedi.
Şamanın əvəzində Səlidayı dilləndi:
- Allah ölənlərüvə rəhmət eləsin.
Sonra danışmağa fürsət tapıbmış kimi sözünü davam etdirdi:
- Allah səni bizə çox görməsin Mərhəmətin artıq olsun. Sən, rəiyyətlərin qayğısına qalansan...
O, sözü haradan başlayacağını və Şamanın kəndə qayıtmaq istədiyini necə deyəcəyini bacarmayıb susdu. Əslində isə Şamanın tərəfindən tam xatircəm deyildi. Qorxurdu onun tərəfindən elə sözlər desin ki, Şamanın qəlbinə dəysin və ya ağanın yanında hazır cavablıq eləsin və iş daha da pırtlaşsın. O, Şamanın xasiyyətinə yaxşı bələd idi. Onun düzlüyündən və Nəcibliyindən xoşu gəlirdi. Lakin bəzən də Səlidayıya dediyi sözlər anlaşılmaz olurdu. Yazıq kişi elə bilirdi ki, dünya əvvəldən axıra kimi belə gəlib, belə də gedəcək və onların həyatı daş üzərində həkk olunmuş pozulmaz bir müqəddəratdır, ağa, ağa yaranıb, rəiyyət də rəiyyət. Şaman, «rəiyyətlər əl-bir olsa, ağalar heç iş görə bilməz və bir ucun boş tutar». Deyəndə, bu söz Səlidayının təsəvvürünə sığmırdı, ona çox qəribə gəlirdi. Bəzən «ağasız kənd olar?»-deyə düşünür, bəzən də xəlvəti Güllübəyimə; «ilahi! Xalıq oğlunun başına hava gəlib, rəiyyət balası da mülkədar qızına vurular?», deyirdi.
Nəhayət sözü mülkədar özü açdı:
- Özüz bilirsiz ki, mən o biri ağalar kimi döyüləm, rəiyyətin fikrindəyəm. Günü bu saat Zərinin torpağın istəyən çoxdur. Özü də nə qədər desən pul verirlər. Amma mən onlardan döyüləm. Bunun (Xudana işarə etdi) çörəyin kəsmərəm, ancaq bu işin bir amması var. torpaq öz-özünə bitirməz ki, onu əkib becərmək lazımdır. Öküz istəyir, kotan istəyir, araba istəyir... Ağa bir az dayandı. Səlidayının bu haqda bir az izahat verməsini güdürdü. Həm də qəsdən Şamanın adını çəkmir, onların yalvarmasını istəyirdi. Səlidayı qıçlarını dəyişdirdi:
- qurbanın olum, sən onun-bunun sözünə qulaq asma, bu yetimin yuxarıda Allah aşağıda səndən savayı sığınacağı yoxdur. Allaha xoş gəlməz. Öküz-araba məndə, əkməyinə də ki, (bir az udqundu) Şaman həm işləkdir, həm də düzgün adamdır… sözünü davam etdirmədi. Ağanın rəyini güdür, «kaş qız macərasından söz düşməyə»-deyə öz-özünə düşünürdü.
- axı Şaman da dinc oturmur, ayağın yorğanından artıq uzadır. rəiyyətlərin ağzına söz salır. Hələ üstəlik Mirzə Məcid kimi ağanın namusuna kəc baxır. rəiyyətsən, get rəiyyətliyini elə, yox, evlənmək istəyirsən, el qaydası-nan evlən. Adamın

dərisin boğazınnan çıxardarlar, Mirzə Məcidə üz tutmasaydım, bunu öldürtdürəcəkdi. Getsin qurban olsun sənlə Güllübəyimə, arvadın üzündən keçə bilmədim.
Əslində mülkədarı əsəbilşədirib, quduz itə döndərən qız macərası deyildi. Çünki Mirzə Məcid kimi rəqib nə qədər biabır olsaydı, onun xeyrinə idi. Onun əsil narahatlığı Şamanın rəiyyətləri ayıltmasından irəli gəlirdi. Lakin O, qəsdən qız məsələsini ortaya atır və bununla da Şamanın kənddən çıxarılmasının əsil səbəbini gizlətmək istəyirdi. Səlidayı olmasaydı, Şaman yəqin ki, bir söz deyəcəkdi. Amma ürəyində, «Allah şeytana lənət eləsin»-deyə acığını bir təhər uddu. Səlidayı bir az ürəkləndi:
- cavanlıqdır day, ağa, Şamanı da evləndirərəm inşallah. Başın aşağı salıb, öz işində-gücündə olar. Mən söz verirəm, sən də keç bunun taqsırından… qoy bu yetimi başuva dolandırım.
Salman ayağa durdu. Xudanı onun başına dolandırmaq istəyirdi. Ancaq mülkədar, «istəməz» dedikdə yerində oturdu. Sonra da ağadan izn istədi:
- ağa, buyursan biz gedərik.
- gedin-deyə artırdı: Məşhəd Salman, adam göndər, Fəttahla işim var. Özün də axşamçağı gələrsən.

## 0.2 İkinci hissə

günəş üfüqdən boylanıb Savalanın ağ zirvəsini Zəri saçaqları ilə bəzəmişdi. Qoyun-quzunun mələməsi, naxırçıların hay-küyü, itlərin haradasa və nəyin iyini duyub yorğun hürüşmələri kənddən kəsilmişdi. Qadınlar səhər tezdən evdən çıxmış ərlərinə çay-çörək aparırdılar. Qoca kişilər isə kövşənə və çöldə işləyən oğul-uşaqlarına baş çəkməyə gedirdilər. Axı belə günlərdə evdə qalmaq olmazdı.
Şamanın çay-çörək gətirəsi adamı yox idi. Belə adamlar isə öz yeməklərini özləri ilə aparırdılar. O da birinci gün neçə lavaş çörək, bir az da motal şoru dəsmalına bağlayıb aparmaq istəmişdi. Amma Salman kişi man olmuşdu və «gəlinlər uşaqlara çörək aparanda sənə də gətirər», demişdi. Şaman isə nə qədər sevinmişdisə də onlara zəhmət vermək istəməmiş və Səlidayıdan gizli özü ilə yemək götürmüşdü. Salman kişi iki-üç gündən sonra bunu duymuş və «bir adama çay-çörək aparmağın nə zəhməti var?» deyə Güllübəyimə acıqlanmışdı. Güllübəyim də ondan istəmişdi ki, bundan sonra özü ilə yemək aparmasın.
O gün Salman kişi öz yerlərindən bir-ikisinə baş çəkdikdən sonra Şamanın yanına getdi. Şaman cüt sürür və otarılmış vərətəni şumlayırdı. Salman kişi ona yaxınlaşıb yorulmayasan dedi.
- sağ olasan, Allah köməyin olsun, Səlidayı.
- oğul, bura Muğan döyül a, yeri dərindən sürüb, torpağı öldürməsən bitirməz. Yer deyir: öldür məni, dirildim səni.
- ay Səlidayı, neynim, bundan artıq batmır axı,

- ay bala, cütü saxla, kotan öz-özünə batmaz ki, hər şeyin fəndi var, kor-köndəm istəyir.
Beləliklə cütü saxlatdırıb, xışın əngəcüvəsini bir dəlik qabağa atdı.
- bax, belə, tutağı bərk tut, özü də narın sür. Qoy öküzlərə də zor gəlməsin.
Əslində Salman kişi Şamanın bütün işlərinə göz qoyur və bilmədiyini öyrədirdi. Daha doğrusu onu bir təcrübəli əkinçi kimi yetirmək istəyirdi.
Artıq şeh götürülmüşdü və biçinçi naharı idi. Öküzləri açıb çayda suvardı, sonra bir az yemək yeyib şumlamağa başladı. Günəş adamın duz kəlləsinə şaxıyırdı. Hava yaman qızmışdı. İsti, qarışqaların fəaliyyətini artırmışdı, torağaylar isə susub kölgələrə sığınmışdılar. Necə deyərlər çöp başı da tərpənmirdi. Kövşənə yayılmış qoyun-quzu orda-burda toplanır və başlarını bir-birinin qarnının altına soxaraq günəşdən gizlədirdilər. İtlər dillərini bir qarınc sallayır və ləhlədikcə ləhləyirdilər. Səs bir metrdən O yanda eşidilmirdi. Çöl-bayırda işləyənlər dəsmalın dörd ucunu düyünləyib başlarına keçirmişdilər. Kotanın yerdən qaldırdığı torpaq Şamanın boğazına dolurdu. Belə bir şəraitdə cüt sürmək təhlükəli idi. Çünki öküzlər mozalansa gavayına düşər və neçə ay heç işə yaramazdılar. Buna görə Şaman öküzləri açıb xaşaya buraxdı. Onlar isə bir iki ağız otlayıb yatdılar.
Günorta çağları şərqdən əsməyə başlayan külək meşənin qoxusunu gətirirdi. Artıq mozalan təhlükəsi yox idi. Şaman yerindən qalxıb şumlamağa başladı. Sərin əsinti onun boyun-boğazını oxşayırdı. Öküzlər də kotanı daha rəğbətlə dartırdılar.
Axşam üstü şumladığı yeri maraqla süzdü. İş çox yaxşı idi. Günortadan qabaq bir hövgəl də şumlaya bilməyən Şaman günortadan sonra iki hövgəl yer sürmüşdü. Əslində də günortadan qabaq işin artımı olmur, üstəlik həm adam inciyir, həm heyvan. Tez-tez şumladığı yerə baxır və işin azlığından narahat olur. Günortadan sonra isə yorulmaq bilmir. Bir də baxıb görürsən ki, xeyli iş görülüb. Hava sərinlədikcə quşlar da uçuşmağa başlayır, bu koldan O kola qonur, bəzən də gözdən itənə qədər yüksəlirlər.
Şaman öküzləri cütdən açıb xaşaya ötürmüşdü. Özü isə pencəyini əyninə alıb, dirsəyini yerə vermiş və Savalana baxırdı. Bu möhtəşəm dağ onun ürəyində bir növ sarsılmazlıq hissi oyadır, gələcəyə ümidini artırırdı. Günün bu vaxtı həmişə bir iki tala bulud O dağın bəyaz zirvəsi ilə birlikdə Ərdəbil düzünə xüsusi gözəllik verir, buludların arasından dağın yaşıl ətəklərinə saçan işıq zolaqları adamı heyran edir. «necə də sehrkardır bu dağ»-deyə Şaman öz- özünə düşündü. O, izah edilməz bir duyğuya qapılmışdı. Bu duyğunun şirin, yoxsa acı olduğunu müəyyənləşdirə bilmirdi. Amma nədənsə bu hissə qapılanda buluddan da yüngül olur və ucsuz-bucaqsız fəzada üzmək istəyirdi. varlığın füsunkar əli Şamanın zövq alması üçün necə də gözəl və necə də rəngarəng mənzərə yaratmışdı bu diyarda...

öküz Şamanın çarığını yaladı və onu süzdüyü dünyadan ayırdı. Günəş son şüalarını yamaclardan çəkir və Savalanın arxasında gizlədirdi. Artıq evə dönmək vaxtı idi. Əli ilə öküzlərin bel-buxununu sığalladı, qulaqlarının dibini qaşıdı və kəndə doğru sürdü.

Hacı Tapdıq ilə Dadaş çəliklərini bellərinə vurub gəlirdilər. Şaman, «axşamuz xeyir»-deyə onları salamladı. Onlar salamı alıb, «yorulmayasan» dedilər. Sonra Hacı Tapdıq artırdı:
- Heyvanları dildən salıbsan ki. Bunlara rəhmin gəlmirsə, barı Salmana yazığın gəlsin. Xama salsan kişinin evin yıxarsan. Acından heyvanların qarnı bir- birinə keçib. Heç olmasa bir az otarıb gətirəydin?
- Hacı əmi elə deyil,-deyə Şaman artırdı: mən onları yormamışam, ikindi çağı cütdən açıb, xaşaya ötürmüşdüm.
- Hə oğul mən də sənin pisliyini istəmirəm.
Əslində öküzlərin zahiri görsənişlərindən də ac və yorğun olmadıqlarını görürdü. Lakin bu sözü deməklə özünü Salman kişinin dostu kimi qələmə vermək istəyirdi. Şaman onları sovuşduqdan sonra isə Dadaşa döndü:
- Hə, sən nə deyirsən, bundan əkinçi çıxar?
- Vallah nə deyim? hələ ki, başın salıb aşağı işin görür.
- Bəli, necə deyirsən elədir, başın salıb aşağı işin görür. Ay gördü ha.
- Bir təhər danışırsan ey, nə olub?
Hacı Tapdıq tasakısını qaldırıb dazını qaşıdı və dedi:
- Nə olub? hələ buna bax, əkinçilik tək yeri şumlamaq döyül ki. Sabah bunun biçini var, xırmanı var. Salman buna biçin biçəcək, xırman döyəcək? ay döydü ha. yox , mən ovcumun içi kimi bilirəm, Şaman axırda yorulub yolda qalacaq, onda deyəcəyəm: toyundu, ordu qırxıq. Salman da yavaş-yavaş O torpaqların hamısına yiyə duracaq.
Dadaş sadəlövhcəsinə dilləndi:
- Axı ay Hacı, Salman elə adam döyül, istəsəydi neçə-neçə belə torpaqlara yiyələnə bilərdi. O kişi sağır Həbibənin yerin əkdi, becərdi, bir zərrə də o torpaqlarda gözü olmadı…
Sonra isə yarı zarafat yarı ciddi artırdı:
- Salman olmasaydı, bura öz aramızdır a, sənin kimilər indiyə kimi qoymamışdı yetim-yesir əlində bir hövgəl torpaq qalsın. Zarafat eləyirəm, özüvə alma Hacı Tapdıq. Sözüm budur ki, Salman elə adamlardan döyül.
Əslində Hacı Tapdıq Dadaşın dediklərinin hamısını bilirdi. O, yaxşı bilirdi ki, Salmanın gözü üstündə olan adamın torpağına xor baxmaq olmaz. Amma bu sözlərlə Dadaş kimiləri onun haqqında şübhəyə salmaq istəyirdi. Birdən dayanıb bir əlini Dadaşın çiyninə qoydu və o biri əlilə bir uşağı başa salırmış kimi dedi:
- Ay kalın biri kal, ay qoyma ağıl, dünya malın nə bilirsən? yüz Salman kimini yoldan çıxardar. Sən bu eytimi nə tanıyırsan, Şamanı deyirəm. ondan əkinçi çıxar? onun künəsi bir yerdə bənd olası döyül. Bu gün-sabah yenə bir pox çıxardacaq, ondan qaçaq düşəcək. İndi de görüm O qaçaq düşəndən sonra torpaqları kimə qalacaq? bacısının pısmadələsinə? bəli, ad onun olacaq, amma əslinə baxsan Salman onların hamısın qarmalayacaq, sənlə mən gendən baxanıq.
Dadaş sadəlövhlüyündən əl çəkmədi:

- Tutaq lap elə sən deyən oldu, Şamanın torpaqları qaldı Salmana, bunun nə eybi var? biz ki, O kişidən xeyirdən savayı bir şey görməmişik, hələ üstəlik ayərəsgiyimiz də olanda onun üstünə qaçırıq…
Hacı Tapdıq onun sözünü kəsdi:
- Ay yazıq, hələ duza gedirsən. Təkəm gedib mərndə, tamaşadı gələndə. Qoy Salmanın ağzı qana dəysin, onda bilərsən nə var nə yox, burnuvun üstünə elə odlu kösöv bassın ha... yox sən belə şeyləri bilməzsən. Mənə bax ey, gör kiminən danışıram.
Dadaş axmaqcasına başını tovlayıb,
- Nə bilim, bəlkə də sən doğru deyirsən, insan çiy süd əmib-dedi və susdu.
Kəndə çatana kimi heç biri danışmadı. Dadaşın fikirə getməsi isə Hacıtapdığı sevindirdi.
Hacı Tapdıq kəndin varlılarından biri idi. O bir sıra pis xislətləri ilə hamının nifrət etdiyi bir varlığa çevrilmişdi. Əlindən yaxşı iş, dilinə doğru söz gəlməyən bu adam eyni halda çox qısmır, daş ürəkli və paxıl bir adam idi. Məkkəyə gedəndə bir çox sadəlövhlər elə bilirdilər ki, artıq pis işlərindən tövbə edəcək və necə deyirlər Allah yoluna gələcəkdir. doğrudur, Məkkədən gələndən sonra beş vaxt namazın beşini də məsciddə qılmağa başladı, saqqalını bir az uzatdı, hələ desən hər sözünü «getdiyim beytə and olsun» ibarəsilə deməyə başladı. Amma onun bu cür davranışı çox çəkmədi. İmamın üçündə məsciddə verdiyi ehsan yeyilərkən riyakarlığı bəlləndi. O, aşpaza sərtlənərək, «pir olasan heç bu düyüyə yağ verməyibsən, bəyəm tapşırmamışdım xərcinə qızırqalanma» deməklə hamıya bildirdi ki, ehsan ona aiddir.
Sağır Həbibəyə bir tay borc buğdanı əsirgəyib, əli boş qaytarması onun əsil mahiyyətini hamıya bəlləndirmişdi. Dilinə qarğış gəlməyən Güllübəyim həmin macəranı eşidəndə «beytin sənə qənim olsun»-deyə onu qarğamışdı. Bütün bunlar bir tərəfə, onun ağalara çuğulluq etməsi də gizli qalmamışdı. Zərinin ölməsi isə onu bir tərəfdən sevindirmişdisə, digər tərəfdən də fikrini tamamilə qatmışdı. doğrudur, Zəri Mirzə Məcidin rəiyyəti olsaydı, fikrin qatışmasına yer qalmayacaqdı, üç-dörd yüz tümən pulla o torpaqların hamısına yiyəliklənəcəkdi. İndi isə qarşısında Hacı Taran kimi pullu rəqibi dayanmışdı. Özü də ki, Hacı Rəfətin rəiyyəti idi. Məsələni bir az səhl saysaydı, torpaq əlindən çıxacaqdı. Hacı Tapdıq bunu da yaxşı bilirdi ki, bu kimi məsələləri həmişə də pul həll etmir və bəzən zorakılıq da lazım gəlir. Buna görə də Hacı Tarana və Salmana qarşı ciddi əks təbliğat aparmaqla yanaşı kəndin quldurlarını da öz ətrafına yığmağı qərara almışdı....
Şaman öküzləri tövlədə bağladıqdan sonra həyətə qayıtdı. Səkinin üstündə əyləşib çarıqlarını çıxartdı və içinə dolmuş torpağı yerə töküb, bir-birinə çırpdı. Güllübəyim bir bəllə gətirdi. «ay bala işdən gəlibsən ac olarsan»-deyə Şamana verdi. Bu vaxt məsciddən qayıdan Səlidayı həyətə girdi. Şaman onun ayağına durub »axşamuz xeyir»-deyə salamladı. Səlidayı, «əyləş oğul, yorulmayasan»-deyə artırdı:
- üç gün keçər, dördüncü gün su növbəndir. Məndən olsa əvvəl xaşanı suvar,

sonrakı növbə zəmini suvararsan. Sabahda-zadda get, vəryan vur, yerin arxına-mərzinə baş çək. Yaxşı oldu, sənin növbən ay işığına düşür. Uşaqlardan birin də sənə kömək qoşaram. Amma maşallah yaxşı da xaşan var. Hələ ki, bu il məhsul yaxşıdır. payızda inşallah iki-üç heyvan da əlüvə salarsan...
Güllübəyim Salman kişinin sözünü kəsdi:
- Allah qoysa, bala... Özüm halal süd əmmişin birin taparam... evlənməyən ev olmaz.
Şaman başını aşağı saldı. Axı Səlidayının yanında belə sözlərə əksəməl göstərə bilməzdi. Heç Güllübəyimə də deyə bilməzdi. Ata-ananın və ümumiyyətlə böyüklərin yanında evlənməkdən danışmaq bir növ hörmətsizlik sayılırdı. evlənmək istəyən cavanlar isə hansı qızı sevdiklərini bacılarına yaxud gəlinlərinə deyərdilər. evləndikdən sonra da belə ata-analarının yanında arvadlarının adını tutmaz və uşaqlarını qucaqlarına almazdılar. Daha doğrusu ər-arvadlar bir-birinin adını deməzdilər. Şamana gəldikdə isə belə bir fikrə düşsəydi, kimə müraciət edəcəyini bilmirdi. Çünki artıq heç bir kimsəsi qalmamışdı...
Mirzə Məcidin qızına vurulanda ürək sözünü çox asanlıqla bacısına açmışdı. «bacı, Kifayət necə qızdır?»-deyə soruşmuşdu. O isə özünü bilməməzliyə vurmuşdu:
- necə bəyəm? xalqın qızıynan nə işin var?
- heç, elə belə deyirəm.
- elə belə deməzsən, görəsən nə var, düzün de, olma gözün var?
- sən əvvəl de görüm necə qızdır? sonra.
Əslində isə bacısını son dərəcə sevdiyinə və onu hamıdan ağıllı bildiyinə görə öz sevdiyi qızdan onun da xoşu gəlməsini istəyirdi. Onun fikrincə Zərinin bəyənmədiyi qız yəqin ki, yaxşı da ola bilməzdi. Zəriyə gəldikdə isə qardaşını öz canından və hətta balalarından da artıq sevirdi. Kifayəti də tanıyırdı. Ağıllı və göyçək bir qız idi. Mümkünü olsaydı, lap elə O saat qızı götürüb gətirərdi. Amma bunların arasında keçilməz bir dərə və aşılmaz bir dağ var idi. Kifayət Mirzə Məcidin qızı idi. Onu Şaman kimi yoxsul bir rəiyyətə verməzdilər. Bu fikir onun ürəyindəki sevinc izini sildi. Bəlkə qızı pisləsəydi, Şamanın fikri ondan yayınacaq və bir daha Kifayəti düşünməyəcəkdi? amma nədənsə ürəyinin sözünü gizlədə bilmədi:
- vallah su sonası kimi bir qızdır. kənddə tayı yoxdur. Günü bu saat canımı ona verrəm, amma...
Şaman sevindiyindən onun boynunu qucaqlayıb üz-gözünü öpdü və sözünü davam etdirməyə qoymadı: «al bu dəsmalı , ver ona» dedi. Zəri bu işin qeyri-mümkün olduğunu demək istədisə də ürəyi göynədi. Dəsmalı Şamandan alıb taxçaya qoydu…
Güllübəyim Şamanın ürəyindən keçənləri onun simasından oxudu. «fikir eləmə bala», dedi, «sözün olanda gəlinlərə de, onlar da sənin bacındır…»
Salman kişi bibinin sözünü kəsdi:
- arvad, hələ belə işlərin vaxtı döyül, qoyun əkininə yetişsin, bəlkə Hacı Tapdıq kimilərin ağzı yumuldu. eşitdiyimə görə bu gün çox yaxşı işləyib. Ötgünlük eləyənlər tütəyin dilin çəkiblər. Mən də bir az arxayınlaşmışam. Onlar hər dəfə

Hacı Rəfətin yanına gedəndə canım camtayıya düşür. İş belə getsə onların dili güdələr... Dur oğul, sən də get dincəl, vaxtı boş keçirtmək olmaz.

## 0.3 Üçüncü hissə

günorta çağı şərqdən əsməyə başlayan meh çox şiddətlənmişdi. Heran gədiyində qalaqlanmış qara buludları tikələyib sürətlə aparır və adamın başının üstündən keçirərək Savalanın ətəyinə telləyirdi. Bəzən də bulud sanki havaya sığmır, yer üzünü bürüyürdü. Hava O qədər soyumuşdu ki, adam yazın axır ayı olduğuna inanmırdı. Külək payızın xəzəri kimi kəsirdi.
Günəş batanda Şaman suyu Mand arxına götürdü. Kəndin lap yaxınındakı xaşanı suvaracaqdı. Səlim onaköməkçi gəlmişdi. Su çox olduğundan xaşanın üç-dörd arxına açıb suvarırdılar. Qızğın iş gedirdi və havanın soyuqluğunu əsla duymurdular. Birdən su azalmağa başladı. Şaman xaşanın o başından uca səslə,
- Ədə Səlim, elə bil su azalır - dedi.
- Mən istəyirdim deyəm, boğunuğu bərk bağlayıbsan? su yıxmaya?
- Boğunuqdan xatircəm ol, yıxa bilməz, möhkəm bağlamışam.
- Oğru arxı necə? bilmərik su ora gedər a.
- Yox, onların hamısına baxmışam.
- Onda lap məəttəl qalmalıdır.
- Sən yavaş-yavaş suvar, mən arx üstü bir gedim görüm.
- Yaxşı get, kömək zad istəsən məni çağır.
Şaman arx üstü getməyə başladı. El arxına yetişdi. Boğunuq yıxmamışdı. Amma su çox azalmışdı və arxın dibində axırdı. Arx üstü üzü yuxarı getməyə başladı. oğru arxına yetişdi, O da yıxmamışdı. Artıq bir yerə gümanı getmirdi. Lap mat qalmışdı. Yavaş-yavaş təri soyuyur və havanın nə qədər soyuq olduğunu indi duyurdu. Yolunu davam etdirib «sədd» arxına yetişdi. Suyu, Yekəlilər götürmüşdü. Hirs boğazını kəsirdi. Taxtanı acıqlı-acıqlı boğunuqdan çəkdi. Sədd arxına yığılıb «mand» eləmiş su şəlalə kimi el arxına töküldü. Şaman suyu kim bağladığını bilmək üçün orada dayanmışdı. Qaranlıqdan üç nəfər peyda oldu. birincisi yetişmək həmən əlindəki beli Şamana çaldı. Şaman isə öz belini onun qarşısına verdi. Onun beli əlindən çıxıb iki-üç metrliyə tullandı. vaxtı itirmədən kürəyi uzunu bir bel çəkdi və arxa yıxdı. Digər iki nəfər isə bellərini cidil atdılar. Şaman yanlandı. Belin biri boşa keçdi. Amma O birisinin tini Şamanın sol cınağını yaraladı. Artıq onlar belsiz qalmışdılar. Qaçmaqdan başqa yol yox idi. Çətinliklə arxdan çıxan yoldaşlarını da götürüb aradan çıxdılar.
Şaman qayıdıb macəranı Səlimə danışdı. Səlim son dərəcə təəccübləndi. Axı Yekəli növbəsinə hələ iki gün qalırdı. Onların kim olduqlarını soruşdu. Şaman isə qaranlıqda bir kəlmə belə danışmadan yürüş etdikləri üçün heç birini tanımamışdı. Səlim nə qədər fikirləşdisə məsələni həll edə bilmədi. Sabah hər şey aydınlaşacaq

deyə sözünü davam etdirməyib suvarmağa başladı.
Gecə yarını keçirdi. Şamanın sol qolu işdən düşmüşdü. Qazdığı çimi yerdən qaldıra bilmir, beli dizinə verib aşırırdı. Səlim xaşanın o tərəfini suvarıb Şamanın yanına gəldi və:
- Ədə, sənə nə olub, tək əlli işləyirsən? dedi.
- Cınağım bərk ağrıyır, tərpənəcəyim yoxdur. Qolumu qalxıza bilmirəm.
- Qoluvu tərpətmə, sınığı-çıxığı olar, özüvə iş açarsan. Sən daldalan mən bu bir-iki tirəni də suvarım gedək.
Beləliklə Səlim xaşanın qalanını da suvarıb Şamanın yanına qayıtdı. Əynindəki paltonu çıxarıb onun çiyninə atdı. Belləri götürüb evə yollandılar.
Güllübəyim qapını açdı. Uşaqlar suya yaxud bir yerə gedəndə arvadın gözünə yuxu girmirdi. Hər bir hənirtini diqqətlə süzür və çox vaxt qapı çalınmamış açırdı. Bu dəfə nədənsə arvadı huş aparmışdı. Qapı çalındıqda isə yerindən dik atılıb, «vay canım ölsün uşaqlar qapıda qalıb»-deyə açdı və:
- Gəlin içəri bala,-deyə artırdı: belləri qoyun qapıda, mən götürrəm.
Onlar içəri keçdilər. Şaman güclə özünü səkinin üstünə saldı. Güllübəyim əl çırağının solğun işığında onun sifətinin avazıdığını görüb təəccübləndi:
- Viy, canım ölsün, sənə nə olub?- deyə soruşdu.
Şamanın əvəzinə Səlim dilləndi:
- Yekəlilərlə savaşıb.
- Bə sən hardaydın?
- Mən su suvarırdım, o sədd arxında savaşıb, bir şey döyül, azacıq cınağı siyirilib.
Bibi tez əsgi yandırıb yağlıqara düzəltdi və onun cınağına qoydu. Təndirdə həmişə qaynarda olan bizəkçədən dağsu alıb çay dəmlədi və Şamana içirtdi. Şamanın halı özünə gəldi. Onu yaradan çox soyuq dildən salmışdı. Sonra isə hər üçü yatdılar.
Yuxu onu keçmiş günlərə apardı. O, acılı və şirinli günlər keçirmişdi. Amma nədənsə yuxusuna acı günləri girdi, ölüm qorxusundan gizləndiyi və kənddən çıxmasını düşündüyü günlər.
...O gün Şaman Çayarasına getmişdi. O, həm zəmilərinə baş çəkəcək, həm də Ermənikəndinə gedib, Abasqulunun vədəsini alacaqdı. Axı atası Xalıq öləndən sonra evləri bərbad vəziyyətə düşmüşdü. Bu ilin yağışından salamat qurtardısa, gələn ilinkindən qurtaracağına əsla ümid yox idi. Əvvəl fikirləşdi ki, evin oyan-buyanına əl gəzdirsin və necə deyərlər dəlik-deşiyini tutmaqla kifayətlənsin. Sonra gördü yox, deyəsən bu ev əl gəzdirməklə ev olası deyil. odur ki, tamamilə söküb yenidən tikmək qərarına gəldi. Fikrini Səlidayıa gəyişib ondan məsləhət istədi. O, «lap yaxşı iş görürsən oğul»-deyə artırdı: «məndən olsa Abasqulunu gətir, möhrə duvar qoydur, canuvi bir dəfəlik palçıq işindən qurtar». Səlidayı sözünü davam etdirib, «oğul, ev olmaq istəsən, atovun çırağının sönməyinə irazi olmasan, tökərsən bu Kifayətin daşın ətəyindən. Ağaynan rəiyyətinki tutmaz, ağaynan ağalıq eləmək olmaz» demək istəyirdi. Amma nədənsə bunu deməkdən vaz keçib, yalnız «qorxma, əyər-əskiyin olsa mən düzəldərəm»-deyə ona ürək verdi.

Siçan zəmini götürmüşdü. Əlbəttə bu da gözlənilməz deyildi. Çünki payız quraq olanda siçanların ili olur, əkinə dədə yandırırlar. Şaman fikirləşdi ki, iki-üç günə qar gəlməsə zəmiləri suvarmalı olacaq.
O, zəmidən çıxıb Ermənikəndinə getdi və «bax, heç kimə söz verməyəsən, məni Səlidayı göndərib, yazda bizə işliyəcəksən»- deyə Abasqulunun vədəsini aldı. Qayıdanda Polad kişi ilə rastlaşdı.
- Salaməleyküm Polat əmi, xeyir ola bu arada?
- Əleykəssalam, oğul quraxlıq adamı kənddə oturmağa qoymur, kövşəni gəzməyə çıxdım. yolum bu aradan düşdü. Hə səninkində də siçan çoxdur?
- Adam əkinə baxanda ağlamağı gəlir. Siçan, siçan döyül ki, bəladır. Çarasız dərddir. Zəmini ədəti sürüb, gözün baxa-baxa əməyin zay olur. Meh-şeh yoxa çıxıb. Buludların hamısı qısırlayıb. Savalanın başı qara buluda həsrətdir. İldə bu vaxt qoyun-quzularımızı zəminin xəsilində otarırdıq. İndi at yıxılsa dişi çıxar.
- Tutaq ki, biz suvardıq, yazıq Ərşəlilər nə eliyəcək? demlərin hamısı kül olub sovrulacaq. Qalan-qulanını da siçan aparacaq.
Hər ikisi susdu. Polad kişi bir azdan sonra əsl mətləbə keçmək üçün öz-özünə danışırmış kimi dedi:
-Deyəsən Hacı Taran toyu başlayır.
- Axır ki, Hacı Tapdıqla yola gəlməlidi. Az qalırdılar başlıq üstündə dava salıb iki cavanın baxtın korlasınlar.
- Onların ayrı ixtilafları var idi. Bir-birini burda sınadılar.
- Ayrı yerdə sınaya bilməzdilər?
- Hər yerdə sınadılar, bu da axırmincisi idi. oğul, sən bu cur işləri bilməzsən, rəhmətlik Xalıq bunları yaxşı tanıyırdı. Bunların araları torpaq üstündə dəydi. Bilirsən ki, Balıxlının işi-peşəsi bir tərəfi ovub aparmaq, bir tərəfə artırmaqdır. Qara yollu kimi şam yerlərə iki hövgəl kimi artırmışdı, Taranla Hacı Tapdıq oranı böləndə yola getmədilər. birinin qoyduğu sədd o birinin ürəyindən olmadı. Axır ixtilafları üzə çıxdı. Məcbur oldular ağ saqqalları aparalar. Səlidayı yerin eninə, uzununa baxıb həddi-səddin nişanın qoydu. Hamı da bəyəndi. Bir gün Taran Mirzə Məcidin nökərinə pul basıb, səddi bir addım o yanlıq atdı. Hacı Tapdıq da Mirzə Məcidin özün görüb, səddi iki addım bu yanlıq elədi. Bu iş beş-altı il çəkdi. Mirzə Məcid də elə bunu istəyirdi. Həm onları doyuncaq sağırdı, həm də rəiyyətlərin fikrin öyrənirdi. Dişüvi qurdalasaydın ağanın xəbəri olurdu. Taranın adamları Hacıtapdığın yerin otarırdı, onun adamları da bununkun. Sən uşağıdın, yaduva gəlməz, kənddə tayfa davası da düşdü. Başı yarılan kim, gözü çıxan kim, qolu sınan kim. Mirzə Məcid də hər iki tərəfi qoduxluğa saldırdı. Taranla Hacı Tapdıqdan doyuncaq siyirməyincək dustaqları boşlamadı. Həddi-sədd də davalı qaldı. O çaqdan iki tayfanın suyu bir arxa getmədi. Ancaq bu ədavət qala-qala köhnəlirdi. Cavanlar ona baxmırdılar. Hələ Taranın oğlu Hacıtapdığın qızına vuruldu da. Əvvəllər hər iki tərəf bunu gizlədirdilər. Amma bacara bilmədilər. İş üzə çıxdı. Onların özləri də düşmənçilikdən yorulmuşdular. Taran Tapdığa barışıq

sifarişi göndərdi. Hacı Tapdıq da elə bil bunu gözləyirmiş, barışdı. Taran el qaydasıyla elçilik elədi. şirni içib qızı adaxladılar.
Taran istəyirdi başlıq tapşırıb toy tədarükü görsün. Hacı Tapdıq iki addım torpağın əvəzin başlıqla çıxmaq fikrinə düşdü. İşlər pırtlaşdı, yenə toy düşdü düyünə. Ədavət yarası qovur eləməyə başladı...
Polad sözünə bir az ara verdi. verəcəyi xəbər Şamanı sarsıtmasın deyə vəziyyəti ona başa salmağa çalışırdı. Nəhayət dilləndi:
- Bəli, axır Kifayətlə Şamanın macərası onları barışdırdı. Yəqin deyəcəksən ki, bunun ona nə daxlı var. Daxlı odur ki, Mirzə Məcidlə Hacı Rəfət rəiyyət üstündə bir-birilə didişirdilər. Taranla Hacıtapdığın davasında guya Hacı Rəfətin də əli var imiş. Hacı Rəfət Mirzə Məcidin rəiyyətlərinin arasında düşmançılıq salırdı, onları özünə çəkməyə mahna gəzirdi. Kifayətə aşıq olduğuvu eşidəndə pişiyi oğlan doğdu. O, zahirdə özün o yana qoymadı. Amma əl altı öz rəiyyətlərinin ağzına söz atırdı. üstəlik o biri ağalara rast gələndə deyirdi ki, belə getsə Mirzə, ağaların abırın tökəcək. Mirzə Məcid də onun ağzın bir yerə yığmaq üçün Oruncun iki dəngin Hacı Rəfətə verdi. Bilirsən ki, ağa, ağanın yamın rəiyyətə verməz. o da Səlidayını çağırtdırıb, Şamanı Mirzə Məcidə verəcəyini ona dedi. Səlidayı bir söz demədi. evdə bibiyə gəyişdi. Bibi ağanın yanına gedib ağız açdı ki, bu işdən vaz keçsin. Ağa, bibinin ağız açmasından fikirə getdi. Axı bu işi görsəydi, rəiyyətlər deyəcəkdilər Mirzə Məciddən qorxur. Görməsəydi də ağalar deyəcəkdilər ki, bacarığı yoxdur. Bir də ki, bilmək olmaz, bir gün də Mirzə Məcidin əlinə dov keçər, O da əlindən gələni elər. odur ki, Səlidayını bir də çağırtdırıb dedi: «sənin mənim yanımda hörmətin var, bibinin üzündən keçmədim. Şamanı sizə bağışladım, ancaq bu şərtinən ki, qışı başın girələsin, yazda ağalar kəndə gələndə çıxıb getsin...»
Polad kişi susdu. Şamanın əks-əməlini gözləyirdi. Şaman, «deməli hər şey qurtardı, arzularım kül olub göyə sovruldu»-deyə öz-özünə düşündü. Sonra isə dərindən bir ah çəkərək inildədi:
- Ilahi haçanacaq dözəcəyik, bu amansız fələyin əlindən kimə şikayət eləyək?
Onun siması ürəyindəki ümidsizlik, yalvarış və nifrət duyğularının çarpışmasını əks etdirirdi. Məntiqlə məhəbbət bir-birinə meydan oxuyur və hərəsi onun qəlbini bir tərəfə dartırdı. Məntiq, «əl çək Kifayətdən, bununku ilə səninki tutmaz» deyirdi. Məhəbbət isə onun varlığını qırılmaz bir kəndirlə Kifayətə bağlayır və onsuz yaşamağın mənasız və eybəcər olduğunu aşılayırdı. Bu çarpışmalar Şamanı tamamilə sarsıtdı. Axı real həyatda indiyə kimi bir dəfə də olsun belə məhəbbət qalib gəlməmiş və həmişə məntiqin qurbanı olmuşdu.
Onun daxilində gedən bu çəkişmələr Polad kişinin gözündən yayınmadı. O, bir tərəfdən acı bir həqiqəti Şamana deməli, digər tərəfdən isə onun ürəyində ümid doğurmalı idi. Birdən dayanıb əlini Şamanın çiyninə qoydu və şırhaşırla axan Balıxlıya işarə edərək dedi:
- Oğul, səhv eləmə, heç nəyin axırı döyül, hər şey öz qaydasındadır. Bax, Balıxlı

yenə də axır, yenə də qabaqkı kimi fırıldaqlıq eləyir, yarğanları ovub uçurdur. Özü ilə gün batan tərəfdən quraxlıq, fəlakət gətirən gərmic buludları Bağrovun ətəyində gün batana tərəf şütüyən mehə buludlarıyla çarpışır. Söz yoxdur ki, meh gərmici basacaq. Lap elə günü sabah qar yağacaq. Əkini isti yorğana bükəcək. Qışın boranından saxlayacaq. Çətinliklərə dözə bilməyən adama igid deməzlər. Duzdur, Mirzə Məcid kimi qəddar, Taran və Hacı Tapdıq kimi tülkülər var. Sərvət də onların əlindədir, qüdrət də. Bizlər yoxsul adamlarıq. Ancaq yadında saxla ki, mıxı mismar eləyən kişi də var...».

Polad kişi sözünə ara verib Şamanı süzdü. Gözlərində ümid qığılcımı sezilirdi… Şaman cınağının ağrısından yuxudan oyandı və səhər açılana kimi yata bilmədi. Güllübəyim sabah namazından sonra macəranı Səlidayıya danışdı. Səlidayı dərhal Şamanın yanına gəldi. O, yerindən durmaq istədi. Gözlərindən nigaranlıq yağan Səlidayı «durma» deyə artırdı:

- Qoluvi tərpət görüm sınığı-çıxığı yoxdu ki?

Şaman qolunu qaldıra bilmədi. Səlidayı onun qolunu tutub «igidə bax ey» deyə-deyə qaldırdı. Şaman səsini çıxartmırdısa da ağrıdan tər basmışdı. Səlidayı bir az fikrə getdikdən sonra Güllübəyimə dedi:

- Məndən olsa aparım Yekəliyə, Mirzə baxsın. Qorxuram iş açа. Həm də görüm su götürənlər kim imiş.

Bibi çay-çörək gətirdi, özü isə gəlinləri ilə birlikdə tövləyə getdi. Şamanın qolunu yaylıqla boynundan asdılar və Yekəliyə yola düşdülər. Yekəli kəndi Yeycənin yarım ağaclığında yerləşirdi. İki kəndi bir-birinə qovuşduran yola onlar «Yeycə yolu», Yeycəlilər isə «Yekəli yolu» deyirdilər. O gün hava çox duru idi. Günəş Zəri saçaqlarını daha səxavətlə Ərdəbil düzünə yaymışdı. Dünənki külək-qırğın yox olmuşdu. Gədikdə tellənmiş mehin qalıqları çürüyüb yox olurdu. Şaman havanın dəyişmiş olduğunu hələ indi başa düşürdü. Gülümsədi:

- Keçməyim buranın havasından, O dünənki, bu da bugünkü. Adam az qalır gördüyünə inanmasın.

- Oğul bura Azərbaycandı, havasının ipinin üstünə odun yığmaq olmaz. Allah qədimkilərə irəhmət eləsin, beçizə deməyiblər ha, sübhün qonağından axşam çağının mehindən qorxma…

Səlidayı Şamanı Mirzə gildə qoyub özü kəndin çayxanasına getdi. Çayxana deyəndə burada hər şey satılırdı. Necə deyərlər can dərmanı belə istəsəydin var idi. Belə yerlərə dükan deyirlər. Burada həm çay verilir həm də yemək. Bir də ki, parça, ayaq qabı, çarıq, bel, yaba, dərgəz, doğanaq, mərci, düyü, ləpə, və s. Nə desəydin satılırdı. Hər kənddə ən azı iki-üç dükan olurdu. payızda iş-güc çöl-bayırdan yığışanda kəndin kişiləri dükana toplaşır və vaxtı sovuşdururdular. Dükanlar həm də məlumat mərkəzi rolunu oynayırdı. Bütün xəbərlər ora gəlirdi. Ağ saqqallar həmin dükanlarda kəndin mühüm məsələlərini həll edir və müəyyən qərara gəlirdilər...

Hava xoş olduğundan dükan sakitlik idi. Qoca-mocadan başqa bir kəs yox idi.

dükandakılar adət üzrə Səlidayıya xoş gəldin edib çay dedilər. Qəhvəçi armudu stəkanda pürrəng bir çay gətirib Səlidayının kefini soruşdu. Salman kişi narahatlığını gizlədə bilmədi:
- Nə kefim olacaq, bəyəm adamda kef qoyurlar?
- Əşi nə olub ey?- deyə «Məşədəhəz» dilləndi.
- Nə olacaq, başın aşağı salıb işləyəni də işləməyə qoymursuz... Balam kəndin ağ saqqalı olmaz? bu qorma-qoduğa deməz ki, axı sən xalqın suyun niyə götürürsən? belə də iş olar?
Əslində Məşədəhəz gilin macəradan xəbəri yox idi. O, keçən gecənin əhvalatını Səlidayıdan eşidəndə daha təəccüblə dedi:
- Vallah ay məşədi, nə qədər götür-qoy edirəm bu iş ağlıma sığımır.
- Niyə sığımır? bəs mən boyda kişi yalan danışıram?
- Yox, heylə demədim a, Allah eləməsin, sən yalan danışmırsan, amma…
- Amma nə? bəs harası ağluva sığışmır? inanmasan uşağı gətirmişəm, oda Mirzə gildədir. Baxtı gətirib cınağının sümüyünə bir şey olmayıb... yoxsa bu iş-güc vaxtı... Hələ irhəmətliyin oğlu deyir, ağlıma sığmır...
- Yox mən elə demədim ki…
- Bə nə cür dedin?
- Axı sən işin o tərəfin bilirsən, bu tərəfin bilmirsən. Adamı danışmağa da qoymursan. Qədimkilər demişkən aduvi qoydun irəşid, birin de, birin eşit.
- Aha, bax, mən dinmədim, hələ de görək işin o tərəfi nədir?
- O tərəfi budur ki, söz vaxtına çəkər, srağagün bu vaxt Hacı Tapdıq kişi bu dükandaydı. Özü də lap sən əyləşən yerdə əyləşmişdi. Havada az-acıq yağış olduğuna görə çölə gedən yox idi. Bəlkə də Yeycə suyundan suvaranların hamısı burdaydı. Söz Yekəli növbəsindən düşdü. Dedilər, üzümüzə gələn cuma günü Yekəli növbəsidir. Sora da püşk atdılar. Suda haqqı olanlar bəlləndi. Bunların biri də sizin Mirzədir. Kəndliz Hacı Tapdıq da Allah şahidi... yenə də qoy ağ saqqallar dükana yığışsınlar, mən onlara deyərəm. Belə işi görənə üzüzdən iraq pox yedirdərik. Amma... Qəlbüvə dəyməsin, sən də bir oyan-buyanı ara. Gör bu işin sirri nədi. Axı belə də olmaz...
Səlidayı yumşaldı:
- Mənim də dediyim odur ki, iki kəndin arasında belə şeylər olmasın. Adam birbirinən üz-üzə gəlir. Ancaq mən bu işi belə buraxmiyaciyam. Suyu götürənləri tapmaq çox asandır. Mən səhər çağı bura gələndə gördüm ki, suyun ağzı Qulaş uşağının yerinə imiş, deməli...
Məşədəhəz onun sözünü kəsdi:
- Bu ola bilməz, çünki, keçən gecə Qulaş uşağının kənd növbəsidi. Onlar «quru göldə» suvarırdılar.
Səlidayı fikrə getdi. Öz-özünə danışırmış kimi:
- Deyəsən iş çətinləşir, aranı qatan var… - deyə pıçıldandı, sonra isə dükandan çıxıb Mirzə gilə getdi. Mirzə Şamanın cınağına məlhəm qoyub indicə sarımışdı.

Səlidayını görmək həmən dedi:
- Qorxma, heç nəyi yoxdur, iki-üç günə sağalar. Amma, a məşədi, bura öz aramızdır, mən nə qədər fikirləşirəm bu iş Yekəlinin işi döyül. Düzdür, bunların adi bir az pis çıxıb. Amma mən yəqin edirəm, onların bu işdə əli yoxdur… hələ yazdır, su qıtlığı döyül, əkin yanmır...
- Ay mirzə, görəsən kimin işidi?
Mirzə tam qətiyyətlə dedi:
- Ara qarışdıranın işidi. Özü də lap Yeycənin özündədir. Mənim adım olmasın, Hacı Tapdıq kimilərdən nə desən çıxar. Onu Pirətməlikdə[1] görən də olub…
Mirzənin bu sözü Səlidayıdan çox Şamanı düşündürdü. Dörd gün bundan əvvəl yer şumlamaqdan qayıdarkən Hacı Tapdıqla Dadaşa rastlaşdığını və Hacıtapdığın mənalı-mənalı danışdığını xatırladı, lakin Səlidayıa heç nə demədi.

Mirzə Məcidin evi Pirəbdülməlik(Pirətməlik) məhəlləsində yerləşirdi. Zənciri keçdikdən sonra daş döşənmiş Nəmin yolu ilə gedirdin, küçənin sonunda sol ələ dönürdün. Beş yüz metr getdikdən sonra Pirəbdülməlik məhəlləsi başlanırdı. Məhəllənin darısqal təngələrinin birində başqa evlərdən seçilən bir bina var idi. Qırmızı kərpiclə tikilmiş uca hasar və palıddan düzəlmiş iki tağlı qapı binanın adlı-bəlli adama aid olduğunu göstərirdi. Həyət təngədən iki-üç pillə aşağı idi və dövrəsi bir metrə qədər kərpic döşənmişdi. Döşəmənin eni binanın girəcəyində metr yarıma çatır və su ilə dolu yekə bir hovuza qovuşurdu. Budaqları ilə sahəni bürümüş əlli illik armud ağacları həyətə xüsusi bir görkəm verirdi. binanın özü həyətdən iki-üç pillə dikdə və iki mərtəbədən ibarət idi. birinci mərtəbədə bir iri otaq, bir sandıqxana və bir tənəbi var idi. Müxtəlif qab-qacaqlar və paltarlar həmin sandıqxanada saxlanılırdı. Tənəbidən bəzi-bəzi şeyləri saxlamaq üçün bir anbar kimi istifadə olunur, həm də aşura gününün ehsanı ora salınırdı. İkinci mərtəbənin bir aynabəndi də var idi. Kristalları, çini və gümüş qabları onun sandıqxanasına qoyurdular. Bu mərtəbədəki otaq əslində ağanın iş kabineti idi. Kəndlərdən gələn darğa və rəiyyətləri burada qəbul edirdi. Əlbəttə ağanın bazarda da hücrəsi var idi və bir çox qəbullar orada keçirilirdi. Lakin gizli iş üçün ağanın qəbulunda olmaq istəyən adam heç vaxt hücrəyə getməzdi. Çünki hücrə bazarda və necə deyərlər göz qabağında idi və ora kimin gedib gəldiyini hamı dərhal bilirdi. Rəiyyətlərdən hər biri hücrəyə getsəydi yəqin ki, şəxsi işi, misal üçün bəhrə haqqında xahişi, istəyi olurdu və ən çox payızda taxıl almağa ya da hesabat verməyə gedirdilər. Ağanın evinə gedən isə ya çuğulluq edir, ya da əlsiz-ayaqsızların torpağından qoparmaq istəyirdi. Belə torpaqları da həmişə bir qayda olaraq ən çox pul verən adam əlinə keçirirdi. Daha doğrusu bu iş alıcıların bir-birini görmədikləri bir hərrac xarakteri daşıyırdı.

Hacı Tapdıq həmin təngəni iki-üç dəfə bubaş-obaş elədikdən və heç kimin onu görmədiyindən arxayın olduqdan sonra qapını çaldı. Qapı azca açıldı. Ağa nökəri

[1]Pirətməlik, Pirəbdolməlek sözünün camaat arasındakı deyilişidir.

başını eşiyə çıxarıb tapdığı gördükdə onu tamamilə açdı. Bu da o demək idi ki, Hacı Tapdıq içəri girə bilər. Hacı Tapdıq isə oğurluğa gedən pişik kimi bir daha ətrafı süzüb həyətə girdi. Cibindən bir sikkə çıxarıb nökərin ovcuna basdı və,
- Al bu çay pulunu, dedi.
Nökərin gözləri işıldadı və,
- Xeyr ola bu tezdənlikdə? deyə soruşdu.
Hacı Tapdıq,
- Pir olasan, Hacı Tapdıq şərə qapı açar? suala sualla cavab verib artırdı:
- Ağanın təşrifi var?
- Hə, indicə çay-çörəyini yeyib qəlyan çəkir. Sən də ki,- bir az mazamata qoydu- çox tez gəlibsən ey.
- Əşi sənin kimi adamı olan lap gecə yarısı da ağanın qapısın döyə bilər. Bir də ki, özün bilirsən bir azdan bura «həsən sox dəyirmanına» dönəcək. Pir olasan zamana dönüb ey, diş qurtdalamaq olmur. Lap vaxtında gəlmişəm.
- Onda qoy ağadan icazə alım.
- Bə niyə durubsan pir olasan? denən vacib işi var. Özün bilirsən ki, bir para işləri sonraya qoymaq olmaz.
Nökərin içəri girib çıxması çox çəkmədi. Hacı Tapdıq tasakı börkünü alnının üstündən geriləyib, sinəsini arıtlaya-arıtlaya içəri girdi. Salam verib ayaq üstündə dayandı. Mirzə Məcid döşəkcənin üstündə bir qıçını qatlayıb, O biri qıçını dik qoyaraq püştüyə söykənmişdi. Dizinin üstündəki qəlyanı sol əli ilə elə möhkəm tütmüşdü, sanki indicə əlindən çıxıb qaçacaqdı. O, hücrədə olanda ya kəndə gedəndə yeni üsulda tikilmiş pencək-şalvar geyir və başına şapo qoyurdu. Bir çox hallarda çiyninə bir əba da atırdı. Ağa bu geyimdə çox zəhmli görünürdü. İndi isə əyninə bir tuman-köynək və bir cılıqqa geymiş , başına da bir araqçın qoymuş ağa nədənsə Hacıtapdığın gözünə bir az gülməli görünürdü. kənddə ya hücrədə ağanın sir-sifətinə əməlli-başlı baxa bilməyən Hacı Tapdıq burada onu başdan ayağa süzə bildi. Hətta pırpızlı qaşlarının altında bir baxışla canlara üşütmə salan gözlərini ötəri nəzərdən keçirdi. Sonra otağı seyr etməyə başladı. Rəflərə və taxçalara düzülmüş parıltısı göz qamaşdıran qədim kristal və çini əşyalar, mismarla divara vurulmuş bədənnuma ayna, taxçaların birindəki bir cüt Niqalay samovar, samovarın arasındakı aftafa-ləyən və atasının gümüş ramkaya salınmış portreti onun ağlını başından çıxarmış, valeh etmişdisə də tavana atılmış palıd nallara baxmaqdan doymur və ətə baxan it kimi ağzının suyu axırdı. Nalları saymağa başladı: bir, iki, üç, dörd, be... Lakin ağanın səsi sayı davam etdirməyə qoymadı.
- Hə Hacı Tapdıq, yenə nə var bu tezdənliyə?-deyə başını qaldırmadan soruşdu və işarə ilə oturmaq izni verdi.
Hacı Tapdıq başqa bir səs güdürmüş kimi diksindi. Bu səs tuman-köynəyə və araqçına əsla uymurdu. Bu səsdə kənddəki və hücrədəki zəhm var idi. Sadəcə bir əmrlə adamı falaqqaya qoydura, tövləyə saldıra bilərdi. Hacıtapdığa elə gəldi ki, ağa bir an içində əynindəki paltarı soyunub hücrə paltarı geyinmişdi. Nə qədər

çalışırdısa onu araqçınla görə bilmirdi. Onun qulağı gözünə qalib gəlmişdi. Sinəsini arıtladı və sudan çıxmış siçan görkəmi alaraq dedi:
- Allah sənin sayəvi bizim başımızdan əskik eləməsin. bizim də ümidimiz yuxarıda allah, aşağıda sənsən, (az qalırdı desin ki, yuxarıda da, aşağıda da sənsən). biz bu qapıdan savayı hara sığına bilərik ki? biz rəiyyətlər də sizin mərhəmətüzün sayəsində dolanırıx…- son cümləni deyəndə səsini bir az əsdirdi, ağlamsındı.
- Nə olub? öküzün yoxdur, toxumun çatmır?
Əslində Mirzə Məcid bilirdi ki, rəiyyətlər belə şeylərdən ötrü ağanın evinə gəlməz, ya mirzəsinə deyər, ya da hücrədə qulluğuna yetişərlər. Lakin özünü O yana qoymayıb Hacıtapdığın cavabını güddü. Hacı Tapdıq yerində qurcalanıb sinəsini arıtladı və dedi:
- Toxum nədir, öküz nədir. Ağanın sağlığı bizə kifayətdi (az qalmışdı desin ki, həm toxumdur, həm öküz)... Hacı Tapdıq özünə bir az da ürək verərək sözünü ərkyana davam etdirdi: «başuva dönüm ağa, kəndin bir qeydinə qal axı... Beədəbçilik olmasın, qorma-qoduq istədiyin eləyir… hər yetən əkinçi çıxıb mənə… dünən ağaya kəj baxanlar bu gün papağın yanqılıcı qoyub kənddə dolanır. Hələ dili uzunluq da eləyir… ». Hacı Tapdıq bir az da cəsarətləndi: «O irəhmətliyin zamanında (məqsədi Mirzə Məcidin atası idi) bəyəm biri bu qələtlərdən eləyə bilərdi?… dərisin boğazından çıxardardı O kişi… Salman kimilərin ağzı nə idi, qorma-qoduğun əlinə öküz versin, xışalat versin, Şaman kimilərə həmi dursun?... Ağızlara da söz atsın ki, guya Hacı Rəfət yaxşı ağadır, çoluq-çocuqun çörəyin kəsən döyül». Hacı Tapdıq son cümləni özündən uydurur və Mirzə Məcidi təhrik etmək istəyirdi. Mirzə Məcid isə əslində Şamanın qayıtmasına özü pişik yolu vermişdi. Hacı Rəfət ilə birlikdə belə bir nəticəyə gəlmişdilər ki, bu ayaqda Zərinin yetimlərinin aralıqda qalması onların xeyrinə olmazdı. Hətta belə bir ehtimalı da gözdən yayındırmamışdılar ki, zamanın keçməsi, didərginlik və bacı ölümü Şamanı sarsıda da bilər və artıq necə deyərlər başını aşağı salıb işini görər. Lakin Şamanın onun qızına vurulması və bu macəranın bir az da şax-şəvəllənərk ağızlara düşməsi və onun bir rəiyyət tərəfindən təhqir olunması ürəyindən çıxmır və bir an belə onu intiqam fikrindən yayınmağa qoymurdu. Öz rəiyyəti olmayan Şamana isə Hacı Rəfətin razılığı olmadan toxunmamalı olduğunu da yaxşı bilirdi. Digər tərəfdən də kəndin iki-üç nəfər varlılarını və yaltaqlarını çıxsaq, qalan adamların hamısı Şamanı yaxşı və xeyirxah adam tanıyır və onu sevirdilər. İndi isə Hacıtapdığın bura gəlməsi və dediyi sözlər Mirzə Məcidin gözlərində bir ümid qığılcımı kimi parladı. Beynində bir anlığa təhlükəli bir fikir dolaşdı: «bəlkə Tapdığa bir şey boyun alıb Şamanı öldürtdürüm? bu sarsaq oğluna iki hövgəl torpaq versəm, nə desəm elər». Lakin yəqin bilirdi ki, bu təqdirdə həm Hacı Rəfət ilə qarşı durmalı olacaq, həm də rəiyyət arasında daha da pisi çıxacaq. Yaxşısı bu olardı ki, Şamanın vasitəsilə kənddə tayfa davası salsın. Xalqı ondan uzaqlaşdırsın və onun məhv edilməsinə zəmin yaratsın. O, ağzını açıq qoyaraq bütün varlığı ilə ağanın əmrini güdən Hacıtapdığa həm bir dost məsləhəti, həm də bir ağa amiranəliyi ilə

dedi:
- Özüz öz əl-ayağuzu bağlayıbsız. Şamanı yuxarı başa keçirdibsiz. Bir-birizin arxın, mərzin belləməkdən macalız yoxdur. İşiz, peşəz yer otarmaq, taya yandırmaq olub… (səsini dəyişdi) mənə Mirzə Məcid deyərlər, rəiyyət, rəiyyət olsa quş quşluğuynan bu həndəvərə qanat çala bilməz… Hacı Taranla bir addım torpaq üstündə didişdiz, amma Şamanın torpağından cin dəmirdən qorxan kimi qorxursuz...
Əslində Hacı Tapdıq gil Şamandan yox, ağalardan qorxurdular. Mirzə Məcid isə son cümləsində Hacıtapdığa pişik yolu verir, necə deyərlər yaşıl işıq göstərirdi. O, artıq ağanın sözlərinin qalanını eşitmirdi. Buna görə də ağanın sözü qurtarmaq həmən icazə alıb dalı-dalı qapıdan çıxdı.
Əslinə baxsan Hacı Tapdıq kənddə tayfa davası salmaqdan və araya qanlılıq düşməyi ehtimalından qorxurdu. Yaxşı bilirdi ki, belə davalarda qalib gələn olmur, hər iki tərəf ziyan çəkir. Bundan əlavə belə hallarda ağaların qılıncının dalı da kəsir, qabağı da. Hacıtapdığın və Hacı Tapdıq kimilərin əsas məqsədi isə əlsiz-ayaqsızların torpağına yiyələnmək idi. Tayfa davası düşüb Şamanın başına bir iş gəlsə, onun torpağına yalnız Salman yiyəliklənə bilərdi. Çünki Hacı Rəfət öz rəiyyətini qoyub başqa mülkədarın rəiyyətinə torpaq verməzdi. Hacı Tapdıq gilə yalnız bir çıxış yolu qalırdı. O da bu idi ki, Salmanı Hacı Rəfətin gözündən salsın və özü pul verib Şamanın torpağına yiyə dursun. O çox fikirləşdi və nəhayət belə bir nəticəyə çatdı ki, Salmanla Yekəlilərin arasında pozğunluq salıb, dava-dalaş törətsin...
Hacı Tapdıq Lütfəli çayxanasına nə vaxt gəlib çatdığını bilmədi. Keçib əyləşdi və nahar dedi. Birdən gözü qarşı sırada oturmuş Ücü ilə Nəciyə düşdü. şagirdi çağırıb, Ücü gili göstərərək «onlara da mənim şotumda nahar ver» dedi. Hacı Tapdıqdan görünməyən bu səxavət nəinki Ücü gili, şagirdi də belə təəccübləndirdi. Hacı Tapdıq isə heyrət dolu baxışları görsə də özünü o yana qoymadı.
**
Kəndə səs yayıldı ki, dam basdıranda haçanın ucu qaçıb, tir düşüb və Ücünün kürəyini batırıb, İshaq dayını gətiriblər, amma başı çıxmayıb, kürəyinin göyərmiş yerinə ət döşəyib tapşırıb ki, beş-on gün evdə qalıb dincəlsin.
Ücünün anası macəradan baş çıxarmasa da haçanın qaçıb tirin düşməsinə inanmırdı. «bəlaya gəlmiş görəsən yenə nə iş görüb»-deyə öz-özünə düşünsə də heç kimə açıb-ağarda bilmirdi. Amma iş-güc vaxtı onun evdə qalması arvadın qanını qaraltmışdı. evi başına götürmüşdü, yeri, göyü qarğayırdı...
Düz on il bundan əvvəl əri Oruşan Astaradan gələrkən borana düşüb ölmüşdü. Yazıq səhər tezdən astaradan çıxanda hava dum-duru idi, ayrı bir şey sezilmirdi. Hələ desən bir az da gərmic var idi. Herani qalxanda hava birdən dəyişdi. Bütün gədiyi duman bürüdü. Çoxları getmək fikrindən daşınıb Heran düşərgəsində gecələməli oldular. Oruşan isə «hələ vaxt çoxdur»-deyə iki stəkan çay içib qızışdıqdan sonra yoluna davam etdi. Yaxşı ki, külək arxadan əsir və onun gədiyə qalxmasına kömək edirdi. yolun ən çətin hissəsi «Külfəlik» idi. Oranı salamat keçsə və sürüşüb

dərəyə uçmasa sanki Yeycəyə yetişmiş olurdu. elə də oldu. Gədiyi aşıb «Arpatəpəsi»nə çatanda hava çox da pis deyildi. Bəzən hətta sürətlə buzlayan meh talaları arasından günəş bir anlıq görsənirdi də. Oruşana elə gəlirdi ki, Heranda qalanlar uduzub. Getdikcə hava pisləşir və yavaş-yavaş qara döndərirdi «Kanaza»ya çatanda isə elə bir fırtına qopdu və elə bir tozatoz düşdü ki, göz, gözü görmürdü. Bir tərəfdən havanın qaralması, digər tərəfdən də qarın sovrulub yolun izini itirməsi Oruşanın ağlını başından çıxarmışdı, zehnini çaşdırmışdı. Lakin buna baxmayaraq «Kanaza»da və «Nüvədi»də nə qədər dedilərsə kişinin boynuna düşdü. Bir az çörək alıb yollandı. Ətrafı görmək olmasa da qədimkilərə məxsus bir duyğu onu yolu itirib azmaqdan saxlayırdı. Amma qar-külək və soyuq onun necə deyərlər iliyinə keçmişdi. Əvvəlcə əlləri və qulaqları göynəyirdi. Bütün canı əsir, ağrıyırdı. Getdikcə bir tərəfdən özü soyuğa alışır, digər tərəfdən də canı keyiyir və ona elə gəlirdi ki, heç üşümür. Lakin bu dəfə də sarsıdıcı bir yorğunluq hiss edir və yuxu amanını qırırdı. O, dəfələrlə eşitmişdi ki, belə hallarda yatan mütləq ölür.
Nəhayət «Gilan yolu»na yetişdi və məşhur «Məmi xəndəyi»ni görüb sevindi. Kəndə cəmi beş-altı yüz metr qalırdı. O qədər sevinirdi ki, yolu azmasın deyə astaradan gətirdiyi əl ağaclarını hər on-on beş addımda qara sancmağa başladı. Xəndəyin arxa tərəfinə keçəndə yorğunluq son həddinə çatdı. Hər şeyi unudub bir az dincəlməyi düşündü. Böyrü üstdə xəndəyin daldasına qısılıb ayılmayacağı bir yuxuya getdi. Qara sancdığı ağaclar isə yalnız meyitinin tapılmasına kömək edə bildi...
Bunların hamısı Xanımgülün zehnində bir daha canlandı. Bu düşüncə arvadı elə sarsıtdı ki, oğlunun can verdiyini təsəvvür edib özünü Ücünün üstünə atdı.
Ücü kürəyinin ağrısından inildədi və «başuva hava gəlib, nədi arvad»-deyə sərtliklə artırdı:
- Nə eləyirsən, olan-qalan sümüklərimi də sən sındıracaqsan? qoymazsan ölək yerimizdə?
- Yox bala, axı sən olmasan başıma haranın daşın salaram? mənə də bir yazığın gəlsin axı? dədövün dübərdini elə dağıldı, deməli sən də əllərdə öləcəksən?
- Nə danışırsan arvad? başuva soyuq dəyib? necə əllərdə öləcəksən? sənə dedim ki, Hacıtapdığın damını basdıranda kürəyimə tir düşdü, işdi də, olar də...
- Saqqalıma soğan doğrama oğul, allahın gündüzün əlüzdən almışdılar bəyəm, gecə dam basdırırdız? dam basdırmağa bel aparallar? ona-buna tikan çəkib, alağ eləməknən yer saxlamışam, Hacı Tapdıq kimi canavarlara bac verməmişəm, sən böyüyüb atovun yerin tutasan. Sən də ki,... Axı nə deyim? Nəci kimi dalaqqaylara qoşulub sümsük it kimi aralığı sülənirsən. Nə özüvə yazığın gəlir, nə anovun təəssübün çəkirsən...
Xanımgülü yenə də fikir götürdü. Ötən illər gözünün qarşısında canlandı.
Ərinin qırxı çıxar-çıxmaz xalqın arasına pıçapıç düşmüşdü:
- Xışı, öküzü, əkib-biçəni olmayan adam yer saxlaya bilər bəyəm?
- Yazıq oldu, qoşuldu qəribələrin cərgəsinə.
- Axır ki, bir kişinin əli onun üstündə olmalıdır.

- Kimisə gözünün altında yatırtmamış olmaz.
- Hacı Tapdıqdan savayı kim olar?
- Ürəyinin sözün «küsü»yə də andırıb.

Xanımgül dözə bilməyib Salmanın yanına getdi. «yuxarıda allah, aşağıda sənsən ümidimiz»- deyə artırdı: «Balalarımı dolandır balalaruvun başına, bizə həmi dur, Salman qağa… yeri əkə bilməsək əlimizdən çıxar…», sözünü davam etdirə bilməyib hönkür-hönkür ağladı. Arvadın gözlərindən leysan kimi yaş süzülürdü. Güllübəyim ürək verərək dilləndi:

- Şükür allaha nə olub, bu gün-sabah Ücü böyüyər. Özüvü üzmə, Allah qadirdir. Bir tərəfdən bağlayanda bir tərəfdən açar. Yer də əkiləcək, işlər də görüləcək. Atanı öldürən kişi yetimlərin fikrin çəkər… get çolpalaruvi yığ başuva, buğdadan, arpadan nə əyər-əskiyin var, gəl bizdən apar, umuduvu üzmə...

Beləliklə Salman kişi düz üç il Xanımgülə həmi durmuşdu. Yerini sürüb əkmişdi, biçinini biçdirmişdi, Üstəlik ağadan ona yanı balalı bir inək, beş baş qoyun şərikinə götürmüşdü.

Xanımgül Hacı Tapdıq və taran kimilərin əlindən asanlıqla yaxa qurtara bilməmişdi. İt günü keçirmişdi. İndi isə sanki başına başqa bir oyun açılırdı. Özü demişkən «acmasın deyə, sıçmayan Hacı Tapdıq» indi Lütfəli çayxanasında Ücü ilə Nəciyə nahar alır. onda gərək yerdən göyə yağa. Hələ Ücü evdə Səlidayıa bir iki dəfə yaramaz sözlər də demişdi, Şamana söyüş vermişdi. Xanımgül isə «kəs səsüvi, it qarnından çıxan»- deyə ona bərk sərtlənmişdi. Amma bilirdi ki, Ücünün danışdıqları öz ağzının sözü deyildir.

Ücünü nə anasının danışdığı qara günlər, nə də ki, Səlidayının qayğıkeşliyi nəticəsində indi yaşadıqları nisbətən ağ günlər düşündüyü eybəcər və yaramaz fikirlərdən yayındırmadı. Hacıtapdığın adamları bir an belə onu öz başına buraxmırdılar. Ücünün gecə-gündüzü onlarda keçirdi. ürək sözünü anasına demişdi: «mən özüm bir kişiyəm, Salman çəkilsin kənara, Hacı Tapdıq əmi deyir; öz qohumuz ola-ola niyə özgəsinə ağız açırsız? mən ölməmişəm ki».

Xanımgül isə Hacıtapdığın qohumluq himayəsini vaxtı ilə təcrübə eləmişdi. Ərinin qırxı çıxmamış Hacıtapdığın elçisi onun qapısını kəsdirmişdi: «gəlin xaylağı nə eliyə bilər? kəbinin mənə kəsdirsin, özüm həmi duraram». Bu söz Xanımgülə Savalan dağından da ağır gəlmişdi. «başıma dönsün, bunu kor gözü görər, sarsağın biri sarsaq»- deyə elçini qapıdan qaytarmışdı.

İndi isə Güldəstə xala demişkən «Hacıtapdığın südlü plov Ücünün saqqızın oğurlamışdı». Hamı işində, gücündə olan bir vaxtda Ücü yorğan-döşəyə düşmüşdü. Artıq hamıya bəlli idi ki, dam basdırma filan boş sözdür, Ücünün başına nəsə ayrı bir bəla gəlib.

## 0.4 Dördüncü hissə

İl çox mübah idi. Zəmilər adama boy vermirdi. Sünbüllər elə dolmuşdu ki, az qala partlayacaqdı. Əkinə baxanda adamın ruhu dirilirdi. Arpası olanlar biçib qurtarmışdı və buğdanın yetişməsini güdərək beş-on gün dincəlməli olurdu.
Zəri arpa əkdirməmişdi. İki dənə otuz iki batmanlıq xaşa yerinin ikisinə də Səlidayının məsləhəti ilə buğda səpdirmişdi. Bəxtindən elə də tütmüşdü, kənddə heç tayı yox idi. Səlidayı dəfələrlə Şamanın xaşa-zəmisinin kənddə taysız olduğu barədə Hacı Rəfətə danışıb, ona bildirmək istəmişdi ki, Şaman haqqında güzəştə getməkdə səhv etməyib.
Səlidayının arpasını biçib qurtardıqdan on gün keçməmiş hava birdən dəyişdi. Meh-şeh yoxa çıxdı. Qara yel hər şeyi qurudurdu. Günortadan qabaq göm-göy görünən qılçıqlar günortadan sonra bərəlir və rəngini tamamilə dəyişirdi. Belə hallarda necə deyərlər əl-ayaq eləmək, tələsmək lazım gəlirdi. yoxsa zəmilər vağama gedəcək və biçin işi son dərəcə çətinləşəcəkdi.
Axşam yeməyindən sonra Səlidayı Səlimə dönərək, «oğul, sabahdan inşallah Şamanın yuxarı zəmisin biçin» dedi. Səlim ağrındı:
- Əmi, Şamanın peşədürəsin suvaranda sünbülü oxalayıb baxdıq, elə bil hələ yetişməyib axı?
Səlidayı həm bir ata amiranəliyi, həm də bir təcrübəli əkinçi məsləhəti ifadəsi ilə dedi:
- Bir başın tez başlamasan, O başda işin əl-ayağın bir yerə yığmaq olmaz. Sünbülün gövlüyündən də qorxma, rəhmətliklər beçizə deməyiblər ki, arpanı ötür biç, buğdanı sütül biç.
Əlbəttə Səlidayının bir sözü iki olmazdı. Amma buna baxmayaraq O, uşaqlara həmişə dəlil-sübutla danışar və əkinçiliyin ən incə cəhətlərini belə öyrədərdi. doğrudan da arpanı vaxtsız və sütül biçəndə cır olurdu, buğda isə dərzdə də yetişirdi. Ancaq istər Səlim və istərsə də Şaman hələ arpanın bel ağrısından dincəlməmiş buğdanın yetişməsindən çox narazı idilər. Ona görə də bir az ağrınırdılar. Amma bunu da bilirdilər ki, iş ağrınmağa gəlməz, qara yelin xəbrdarlığını səhl saymaq olmazdı. Bir-iki gündən sonra peşədürələr də yetişəcək və iş işə dəyəcəkdi.
Adət üzrə biçinin birinci günü günəş qalxandan sonra, düz biçinçi naharında evdən çıxardılar. Buna görə də ertəsi gün evdə qaylan altı eləyib çıxdılar. Səlidayının öz oğlanlarından əlavə biçinçiləri də Şamana kömək edəcəkdilər. odur ki, həmişəki kimi Sərdar qabağa düşərək yuxarı yerə doğru hərəkət etdilər. Sərdarın işarəsi ilə bir ağızdan ya Əli deyərək biçməyə başladılar. Oraq barmaqçılıqlara toxunduqca ahəngdar bir şaqqıltı yayılır və biçinçiləri ruhlandırırdı. «Nəmin»də çəkilmiş oraqlar hava qızdıqca daha itiləşir və Ağa Məmməd demişkən ilana dönürdü. Sərdarın hərdəm bir gur səslə «Əli de, qoluva qurban» sədası Batalyon komanderinin «irəliyə doğru» əmrini xatırladırdı. Günorta çağı hərə öz biçdiyi dərzləri toplayıb xalvar vuranda Səlim arx üstündəki saytal sünbüllərdən daraq toxuyub ilk

biçin gününün yadigarı olaraq evə aparardı. Güllübəyim də onu böyük dirəkdən asıb gələn il biçininin birinci gününün darağı gələnə qədər saxlayardı. Əlbəttə darağın altından əlvan parça çiçəklərlə bəzənmiş üzərlik düzmələrini asar və hamısından yuxarı və onlara qanad gərən yekə bir göztikanı budağı bağlayardı. O, bonunla həm evə gözəllik verir həm də evi və ev adamlarını bəd nəzərdən qoruyardı.
Günorta yaxınlaşdıqca istinin şiddəti artırdı. Quşlar kol-kos dibinə sığınaraq sərin torpağı eşir və qanadlarının altından keçirərək lələklərinin arasına doldururdular. Daha doğrusu torpaq gölündə çimişirdilər. Bir tərəfdən yorğunluq bir tərəfdən də günortanın istisi biçinçilərin amanını qırmışdı. özləri də bilmədən gah su içir, gah da əllərinə tikan batbmış kimi barmaqçılıqları ilə qurdalanırdılar. Ağaməmməd belini düzəltdi və bir əlini gözünün üstünə qoyub, Ərşəyə tərəf baxa-baxa « uşaqlar», dedi: «Yacılı»da burulğana baxın ey, tozanağın bir ucu odey lap göyə söykənib».
Mirzaman gülə-gülə,
- Hələ gör Mollaqasım gil nahara nə yeyirlər?- dedi.
Hamısı gülüşdü və artıq biçmək olmaz deyə düşündülər. Dərzləri dikinə vurub kölgəsində əyləşdilər. Mirzaman kəndə tərəf baxıb Şamana döndü:
- Ədə Şaman, bibi gəlir, peşkaş çək.
Birinci gün biçinçilərin naharını həmişə Güllübəyim özü aparar və peşkaş çəkiləcəyini bildiyinə görə corabdan, dəsmaldan zaddan gətirərdi, özü demişkən «hadırrı» gələrdi.
Bibi zəminin başına çatanda Şaman dik atılıb , dənli və məxsusi bağlanmış bir dərzi qaldırıb uca səslə dedi:
- Peşkaşdır sənə bu zəminin hamısı, ay bibi.
- Allah bərəkət versin oğul, sənin sağlığın mənə bəsdir.
Sonra cibindən dörd saplı[2] bir corab çıxarıb Şamana verdi və o birilərə xətaba
- Bala yorulmayasız, sizinki də gözüm üstə. Deyib bağlamanı yerə qoydu. Səlim, anasına bir atmaca atdı:
- Elə yerində deyiblər, «nəzər, hamını bəzər, özü lüt gəzər», budey baş barmağım az qalır çarıqdan da çıxsın. Hamıya corab boyun aldın, mən qaldım.
- Gedə nə danışırsan? görən də deyər ki, o yazığa corab toxuyan yoxdur. Sənin ayağuva corab dözür nə? Xalqın bir cütünün üstündə sən iki cüt yırtırsan.
- Mən neynim günah baş barmağımdadı də, deyəsən kəsim atım o yana.
- Baş barmağuva nənön qurban.
Səlim anasının köyrəldiyini görüb dedi:
- Zarafat eləyirəm ey bibi, niyə özünə alırsan? şükür allaha corabıma nə gəlib.
Bibi dəstərxanı açdı. motal şoru ilə yağ, bir az da süzmə qatıq gətirmişdi.
- Yeyin bala, dedi, özü isə süzmədən ovduq tutmağa başladı. Biçinçilər hələ-hələ yağ yeyə bilməzdilər, yoxsulluq idi. Daha çox ayran doğraması tutur, olanda xi-

[2] Dörd saplı corab hərəsi bir rəngdə olan dörd iplə toxunurdu.

yar da doğrayır və günlərini belə keçirirdilər. Şaman xəcalət çəkirdi, özünə işləyib Səlidayı gildən yeməyi ona ağır gəlirdi. Bibi bunu sezdi və Şamanın könlünü almaq və həm də uşaqları güldürmək üçün dedi:
- Hə, dedim ki, uşaqlar ayran doğraması yesələr üzdən biçərlər, odur ki, yağ gətirdim.
Ağaməmməd əlindəki yumruq boyda tikəni ağzına dürtüb, ordunun bir tərəfini zurna çalanların ordu kimi şişirdərək sinəsini qabağa verib, adəti üzrə əllərini dizlərinin üstünə bərk-bərk basıb dedi:
- Bibiyə bax ey, vallahi mən ac da qalsam, yenə üzdən biçmərəm.
- Səni demədim ki, Səlimi dedim.
Səlim bibinin nə demək istədiyini bilirdi. Buna görə də «deməli mən Qədir olmuşam da» deyə bibiyə sual verdi.
- Xeyir, mən «Zübeydə» olsam sən də «Qədir» olarsan.
Şaman sözə qarışdı:
- Bibi, «Zübeydə»inən «Qədirin» nə sözü var ki?
- Nə olacaq, bir gün Qədir dayı biçin biçirmiş, arvadı Zübeydə ona yemək aparıb, quru çörək bir az da ayran. Qədir dayı arpa çörəyin ayrana doğrayıb yeyəndə Zübeydə xala ona deyir ki; kişi bir az dibdən biç. Axı sabah mal-heyvanın qışına saman lazım olacaq. Qədir dayı onun cavabında şıqqa çala-çala deyir:
Ayran içərəm üzdən biçərəm zübeydə.
Yağ yeyərəm dibdən yalaram zübeydə.
Zübeydə Qədirin ürəyindəkin başa düşür, sabahdan şornan yağ aparır.
Hamı gülüşdü və Güllübəyimın onların şirin-şirin yeməyinə nə qədər həvəslə baxdığını görüb, hamısı bir ağızdan, «zatına nəhlət yalan deyənin, bibinin ayranı da yağdı», dedilər.
Günortadan sonra şərqdən aramla əsən sərin külək biçinçilərin iş həvəsini birə min artırmışdı. İş elə qızğın gedirdi ki, heç kimin heç kimdən xəbəri yox idi. Şamanın xəyalı ötən günləri seyr etməyə başladı.
...Atası Xalıq öləndən üç ay sonra yeznəsinin qara xəbəri gəlmişdi. Bacısı və bacısının yetimləri isə yeniyetmə Şamanın üstünə düşmüşdü. Onlar boranlı-şaxtalı qışı it günündə keçirtdilər. Yazın gəlib çıxması onların gözündə bəlkə də on il çəkdi. İndi isə özlərinə «dirrik» yığmalı, bir ilin zumarını toplamalı idilər. Əkdikləri zəmi siçanın əlindən salamat qurtarsaydı da ağanın əlindən qurtarmayacaqdı. Bəzən heç toxumları da çıxmırdı. İl yaxşı olanda Muğan onların dadına çatırdı. Yaxşı olmayanda isə aclıqla çarpışmalı olurdular. Bəzi hallarda da aclıq qalib gəlir və ölüm onların amanını qırırdı.
Bu il çox bolluq idi. Deyilənlərə görə Muğanın zəmiləri adama boy vermirdi. Sarı buğda tarlalarda Oman kimi dalğalanır və Muğan torpağının qüdrətini nümayiş etdirirdi. Bu il günəş öz hərarətini və bulud öz yağışını bu zəngin torpağa əsirgəməmişdi. Muğanın bolluq xəbəri kənd əhalisinə bayram sevincinə oxşar bir fərəh gətirmişdi. Uşaqlar belə Muğandan ağız dolusu danışırdılar. Axı Muğanın taxılı onların canını satın alacaqdı.

Muğana getmək istəyən biçinçilər ötən il əsgi ilə sarıyıb saxladıqları oraqların sarığını diqqətlə açır, ovulmuş qoyun dərisindən hazrlanmış döşlüklərinin və qolçaqlarının yırtıq-söküyünü yamayır və dolaqlarının əlverişli olub olmamasını nəzərdən keçirir, keçi buynuzundan düzəlmiş barmaqçılıqlarını prob etməklə biçin səfərinə hazrlaşırdılar.
Şaman bütün bu hazırlıq xəbərini şam eləyəndə bacısına verdi. Zəri dərindən bir ah çəkib köksünü ötürdü. Atasının səliqə ilə sarınıb, başqa biçin «karəsəkiləri» ilə birlikdə divardan asılmış orağına baxıb köyrəldi. Bir bəhanə ilə dəhlizə çıxıb ürəyinin alovunu göz yaşı ilə söndürdü. Kimsəsizlik hissi onu yaman sarsıtdı. Atası bir soyuq dəymənin güdazına getmişdi. Ərinin heç meyitini də görməmişdi. Bircə Şaman qalmışdı ona.

Şamana gəldikdə isə hələ buğ yeri yenicə tərlyirdi. Yekə gövdəli olmasına baxmayaraq Zərinin gözündə hələ də bir uşaq kimi görünürdü. doğrudur, başqa yoxsul uşaqlar kimi nə Şaman nə də Zərinin özü ərköyün böyüməmişdilər. Amma onbeş yaşında yeni yetmənin ev quxasına düşməli vaxtı da deyildi.
Dəhlizdə səssiz ağladıqdan sonra üz-gözünü yusa da evə qayıdanda əhvalı Şamanın gözündən yayınmadı. Lakin Şaman özünü o yola qoymadı. Bu günə kimi hər bir çətinlikdə Zəriə sığınan Şaman indi özünü kişi kimi aparmaq, bacısına ürəkdirək olmaq istəyirdi. Buna görə də gözlənilməz bir ifadəni dilinə gətirdi:
- Bacı, mən də Muğana gedəcəyəm.
Zəri Şamanın bu sözünü bir uşaq kişilənməsi yaxud da yersiz bir zarafat kimi qimətləndirdi. Şaman bacısının dinməməsini icazə vermək hesab edib daha ciddi və daha təkidlə,
- Doğru sözümdü, mən də Muğana gedəcəyəm, dedi və sözünü əsaslandırmaq üçün artırdı:
- İki ildir biçin biçirəm. Keçən il Polat əmi «dikdəstə» vurmağımı gördü. Çox da bəyəndi. «oğul,» dedi; «day sənin işləmək vaxtındı. Yavaş-yavaş işi öz əlüvə al, qoy Xalıq kişi dincəlsin».
Zəri içini çəkdi:
- Onsuz da Xalıq kişi dincəldi…
Sözünü davam etdirə bilmədi. Şamanı atasızlıqdan çox ana qədər sevdiyi bacısının pərişanlığı üzdü və ərkyana bir iltimas ifadəsi ilə dedi:
- Bacı, səni mənim canım ağlama.
Onun səsində duyulan kövrəklik, yalvarış və təmənna Zərini təslim olmaq məcburiyyətində qöydü. «yaxşı, onda sənə bir oraqça, bir döşlükçə, bir cüt də qolçaqça lazımdır. Özün də Muğana yox ey, tiflisə getməlisən» demək və bu sözlə «hələ sənin künövün sarısı çəkilməyib, hələ uşaqsan» ifadəsini çatdırmaq istəyirdi. Lakin kimsəsiz olduğundanmı və bütün əzab-əziyyətə qatlaşmaq və yaşamaq üçün can atmaq zərurətini artıq duyduğundanmı Şaman onun gözündə bir an içində böyüyüb kişi oldu.
- Sənə canım qurban dədəm balası. Lap əcəb eləyirsən. kimdən asgiksən, qoşaram

Polat əmiyə gedərsən, dedi.
**
Zəri atasının biçin «karəsəkisi»ni yoxlayıb hazırladı. Dörd- beş lavaşın arasına bir az motal şoru bir az da yağ qoyub bağladı. Şamana lazimi tapşırıqları verdi. Sonra onu yanına salıb Polad gilə apardı. Polad kişi sübh namazını indicə qılıb qurtarmışdı. Zəri yaylığının bir ücünü açıb yenidən bağlamaqla yaşmağını bərkitdi və,
- Sabahın xeyər Polat əmi, dedi.
Polad kişi petavasının dolağını dolaya-dolaya «ağbatın xeyir qızım»- deyə cavab verdi və Zərinin arxasında dayanmış və bacısından uca olan Şamanı biçinçi gözü ilə süzdü. Bu oğlanın bircə saqqalı olsaydı, rəhmətlik Xalıqla dəyişik salacaqdı. Şamanın baxışlarında maraqla yanaşı bir növ iztirab, nəsə bir nigarançılıq ifadəsi duyulurdu. Bu baxışlar sanki «görəsən bu işi bacaraciyam, yoxsa Muğan kimi xəzanadan əli boş, üzü qara qayıdaciyam?»- deyə Polad əmiyə müraciət edirdi. Bütün bunlar və Zərinin durunuşundakı və baxışındakı yalvarış ifadəsi Polad kişiyə tamamilə aydın idi. O, bütün bu ifadələrə və nigarançılıqlara son qoymaq və onları arxayınlaşdırmaq üçün ürəyindən keçənləri dilinə gətirdi:
- Mən Muğanda həmişə xalıqnan biçmişəm, bundan belə də onnan biçəcəyəm. Şamanı özümnən aparıb, özümnən gətirəcəyəm. Nə qədər Polat sağdı, ona «gözün üstündə qaşun var» deyən olməyacaq.
Polad kişi sonra başını qaldırıb gülümsədi. Alt dodağındakı bükümlər çənəsinə doğru uzanmışdı. Çallaşmış saqqalı üzünün qırışlarını gizlətsə də boynunun iki tərəfində qulaqlarının arxasından qırtlağına qədər əyri çatlaq kimi uzanmış dərin qırışlar kişinin artıq qocaldığını acı tərzdə nümayiş etdirirdi...
Biçinçilər ikibir, üçbir çay qırağına yığışır və yoldaşlarını gözləyirdilər. Polad kişi də Şamanı yanına salıb ora gəldi. Hamı Polad əmini «sabahın xeyir»- deyə salamladı və Şamanı özü ilə gətirməsinə sevindilər. Lakin onların arasında ağa nökərinə yaltaqlanan mərdimazar və paxıl adamlar da az deyildi. Belələri əvvəlcə aralığa söz atdilar.
- Gedə elə bilir Muğana getmək asandır ey?
- Hər künəsinin sarısı çəkilməyən adam Muğana getsə, onda gör işin harasıdır?
- İşuvi boşla, otur, uşağı ilan-çəyəndən qoru, ay biçdik a.
- Azıdı arıq-uruq, biri də gəldi dabanı yırıq.
- Kişi lap kələfinin başın itirib.
Fəzayıl Poladın dinmədiyini görüb bir az da cəsarətləndi və Şamanın düz gözünün içinə baxaraq bir növ amiranəliklə;
- Ədə, orağı ver mənə, qaç get mal otarmağuvın dalıcaq, dedi.
İltifat daha da ötgünləşdi:
- Yanını yuva bilmir, mənə biçinçilik eləyir.
- . . .
- . . .
Polad bu sözləri əvvəl bir növ zarafat hesab edib arada söz olmasın deyə din-

mirdi. Amma İltifatla Fəzayılın baş apardıqlarını və eləcə də «uşağın» qəhərdən qaraldığını görüb sərtləndi:
- Əyə, sizə nə var biri biçə bilir, biçə bilmir, uşaqdı, böyükdü, cavandı, qocadı... Bundan belə bir dəyyusun qeyrətinə baxıram Şamanın adın çəksin... oğrəşlərə dinmədikcə azırlar...
Rəhmət Poladın sözünü təsdiq elədi:
- Vallah Şaman səndən-məndən yaxşı biçir.
Sonra üzünü İltifatla Fəzayıla tutub artırdı:
- Niyyətüz başuza gəlsin. Nə qədər paxılsuz, sizdən olsa hamı acından ölər. Tüpürüm o qeyrətüzə. Utanıb qızarmırlar da, boyuzu yerə soxum belə kəndli.
Şaman artıq kimsəsiz olmadığını başa düşdü və sevindiyindən ağlamaq tutdu. Lakin Poladın səsi onu özünə dalmağa qoymadı. Polad əmi bir ata amiranəliyi ilə:
- Gedək oğul, dedi.
Qızqalasında biçinçi üstündə dava idi. Hamı yaxşısını seçib götürmək istəyirdi. «Rəhmət»lə «azı» Poladdan ayrılmayıb bir yerdə oturmuşdular. biçinçi axtaranlar onların qoca olduqlarını həm də özləri ilə bir uşaq gətirdiklərini görüb, «acların-dan qarınların götürüb gəliblər»- deyə geriləyirdilər. Belə hallarda həmişə səbri tükənən azı indi də, «köpək uşağı elə bil mal almağa gəlir»- deyə mızıldandı. Rəhmət isə, «vi, kül başuza, elə bil xoralıdan zaddanıq, bizdən hürkürlər»- deyə adəti üzrə zənən qarğışına başladı.
Şamanın ürəyi iztirabla döyünürdü. Qorxurdu ki, onlara biçin biçdirən olmasın. «bəlkə Polat əmiyə deyim məni öz başıma buraxsınlar, başşaq eləyim..»- deyə öz-özünə düşündü. Polad kişiyə gəldikdə isə O, əsla dinmir, orağın burnu ilə yeri döycələyirdi və keçən il Xalıq kişi ilə həmin yerdə oturduğunu xatırlayır və dünyanın bu qədər amansız olduğuna acıyırdı.
Muğanın isti günəşi üfüqdən xeyli aralanmışdı. Təngənin gəl-gedi seyrəlirdi. Artıq əlindən iş gəlməyən qoca-qarılardan və qarnı açıq tumançaq uşaqlardan başqa adam qalmamışdı. Azı axırkı, dözə bilmədi:
- Dəlicə tutmuş toyuq kimi orağın burnun yerə döyəcləmə. Hərə öz axtardığın tapıb, günortanın istisi düşsə, yerimizdən tərpənə bilmərik. Durun «Qaraqasımlı»ya, ya da «Babaşkəndi»nə baş vurağın.
Polad kəskin bir ifadə ilə cavab verdi:
- Mən Qaraqasımlya getsəm, başıma dolanarlar. Bildir irəhmətlik Xalıqnan gəlmişdik. Bax lap «Avat» bəyin özü gəlib bizi qızqalasından apardı. Ancaq, indi...
Azı onun sözünü kəsdi:
- İndi nə? ancaq-mancağı yoxdu. Məndən olsa durun düz gedəyin Qaraqasımlıya, Avat bəyin qapısına.
- Mən düşman qabağından qaçan döyüləm. Bu il gərək qızqalasında biçəm, vəssalam.
- Biçdirən olmasa?
- Onda heç biçmiyəcəyəm.

- Ay Polat, tök şeytanin daşın ətəyündən, acığın dövlətə zərəri var.
- Qabağuzı kəsən yoxdu, siz iki qardaş hara getsöz gedin, mənlə işüz olmasın. Şamanı da mən gətirmişəm özüm billəm.
Azı dinmədi.
Gün əyilirdi. Qonur at üstündə onyeddi-onsəkkiz yaşlı bir gənc gəlib düz Poladın qabağında dayandı və;
- Sizdən savayı biçinçi yoxdu?-deyə soruşdu.
Polad aramla cavab verdi:
- Oğul, görürsən ki, bizdən başqası qalmayıb.
- Axı bizə fəqət iki nəfər lazimdi.
Polad kişi Rəhmətlə Azıya göz elədi. Yəni ki, siz gedin, bizə də Allah kərimdir.
Azı isə Polada tərs baxdı, yəni ki, nə danışırsan, biz səndən ayrılası deyilik.
Polad arxayın və bir az da məğrur bir ifadə ilə gənc oğlana döndü:
- Oğul, biz bir yerdə biçəcəyik. İstəsən dördümüz də gələrik, istəməsən özüvə ayrı biçinçi tap.
- Anam ikisin tafşırıf.
- Get anuva gəyiş.
Cavan, atın başını döndərib evlərinə doğru çapdı. Onun getməyi ilə qızışmaqda olan bazara yenə sakitlik çökdü. Azı dözə bilmədi. Cavan atlını yamsılaya-yamsılaya acığını tökdü:
- Həə, anam mənə ikisin tafşırıf. üç olsa anovun imanı əlindən gedər. Ölüm olsun anovua da özüvə də.
Polad kişi böyük bir şey kəşf edibmiş kimi gözlənilməz bir sevinclə dilləndi:
- Məni qınamasoz bu cavan, «Qızlarxanı»nın oğlu olacaq. Əgər o olsa, qayıdıb bizim dördümüzü də aparacaq. İnişil ona biçmişəm, qoçaq arvaddı. On ildir əri atdan yıxılıb ölüb, arvad heç kimə bac verməyib. kişi kimi əkinə-biçinə özü yetişib. Özü də çox mərd adamdı, çörəklidi. İndiyəcək ondan razı qalmayan olmayıb. biçinçinin xörəyinən özünün xörəyi birdi. Kaş o olaydı.
Polad kişi səhv etməmişdi. Gənc atlı geri qayıdıb onların dördünü də apardı.

# Part II

# İkinci cild

İkinci cild

## 0.5 Birinci hissə

Artıq zəmilərin biçin işi sona çatmışdı. Səlidayı öz öküz-arabası ilə Şamanın da dərzlərini daşıyıb xırman yerinin bir tərəfində tayalamışdı. İndi isə ağadan döyün icazəsi almalı idi. Buna görə də axşamçağı Hacı Rəfətin qulluğuna getdi. Hacı Rəfət əkinin yaxşı olduğunu, vaxtında biçilib daşındığını bilsə də Salmandan bu haqda izahat istədi. Salman isə döyüşdə zəfər qazanan məğrur bir komander kimi ağız dolusu danışmağa başladı və hər bir zəminin neçə xalvar dərz verdiyini söyləyib, Şamanın əkininin nə qədər yaxşı olduğunu xüsusi vurğuladı. Sonra isə ədəbli və öz vəzifəsini tamamilə bacaran bir rəiyyət kimi Hacı Rəfətə müraciətlə dedi:
- Ağa icazə versə biz dərzləri döyməyə başlarıq.
Hacı Rəfət isə ildəki kimi nəm-nüm eləməyə başladı:
- Məşhəd Salman, boyaqçı köpü döyül ki, mən hələ hesab-kitaba yetişməmişəm. Mirzəm də «Dovşanbulağı»ndadı.
- Başuva dönüm ağa, bu günlər ələ düşməz, hava xoşdu, döyün vaxtıdı, canımız qızışıb. İcazə ver əlimiz işdən soyumamış döyək qurtaraq. Allah sənə ömür versin. Qədiməkilər deyib, küləş düşdü qış düşdü. Mehdən-şehdən gəlsə döyüb qurtara bilmərik.
Hacı Rəfət yumşaldı:
- Sənə də yox desəm, Güllübəyimə yox deyə bilməyəcəyəm.
- Ağa həmişə bizə mərhəmətli olub. İcazə versöz əvvəl Şamanınkın döyərik, sonra…
Hacı Rəfət top kimi açıldı:
- Nə Şaman-Şaman deyirsən, özününkünə icazə almışdın qalmışdı Şamanınkı. yox, özü gələr fikirləşərəm, görüm nə eliyəciyəm.
Salman Şamanın Hacı Rəfətlə üz-üzə durub danışmasını heç istəmirdi. Qorxurdu ki, özü demişkən ağaya biədəbçilik eləsin. Buna görə də çox mülayim və yalvarış ifadəsilə dedi:
- Uşaq-muşağın ağaynan danışması yaxşı döyül. Xüdanəkərdə ağızlarından nalayiq söz çıxar, biz ağanın yanında üzü qara olarıq.
Hacı Rəfət ürəyində Salmanın sözünü bəyəndi. Əslində də ağa ilə rübərü danışmayan adam onu zəhmli bilirdi. Buna görə də Şaman bir iki dəfə Hacı Rəfətlə çəkim-bəkim eləsə yəqin ki, üzü açılacaqdı. Demək ağa bir az güzəştə getməli oldu:
- Yaxşı, get özüvünkün döy, sonra Şamanınkın başla,
Salman yalvar-yaxarla əvvəl Şamanın dərzlərini döymək izni almaq istəyirdisə də Hacı Rəfətin tərs baxışı onu bu istəyini irəli sürməkdən çəkindirdi və dua-səna ilə

oradan çıxdı.
Ertəsi gün səhər çay-çörəyindən sonra Salman qabaqda olmaqla bütün ailə üzvləri, o cümlədən Şaman xırman yerini hazırlamağa çıxdılar. kişilər bel ilə yerin kalan-kötürünü hamarlayır, qadınlar isə yaxınlıqdakı arxdan su daşıyıb yerə səpirdilər. Su yerə hopduqdan və bir az təpidikdən sonra süpürməyə başlayırdılar. İkindi çağı xırman yeri Salman demişkən bülövə dönmüşdü.
Hazırlıq işi qurtardıqdan sonra hamı evə döndü. Salman isə yeri uşaq-muşaqdan və itdən qorumaq üçün tayanın üstündə uzanıb keşik çəkdi.
Döyünün başlanmasına uşaqlar hamıdan çox sevinirdilər. Çünki dərzlər döyülüb qurtarana kimi həm mal otarmaqdan canları qurtaracaq, həm də vələ minəcəkdilər. İşlək adamlar kimi yuxu canına sinməyən və gündüz boyu işıq saçmaqdan yorulmayan günəş Güllübəyimi oyatdıqdan xeyli sonra üfüqdən boylandı. O öz qızğın hərarətilə küləşi qurudacaq və əkinçilərə dərz döyməkdə yardım edəcəkdi. Sübh çay-çörəyindən sonra hamı xırmana töküldü. Qadınlar və uşaqlar Salman kişinin tayadan sayıb ayırdığı dərzləri daşıyır və kişilərə verirdilər. Kişilərdən bir nəfər sürətlə dərzlərin bağını açır, qalanı isə yaba ilə silkərək bir qaydada yayırdılar. Mal-qarası az olanlar gündə cəmi iki xalvar, çox olanlar isə dörd-beş xalvar döyə bilirdilər.
Salman beş xalvardan ibarət bir xırman saldı və dörd öküzlə iki vəl qoşdu. Öküzlərin güclülərini bir qayda olaraq həmişə ələ, zəiflərini isə dibə qoşurdular. İnəklərdən, kələduran və qısırəmən danalardan da bir cərə(cərgə) düzəltdi. Xırmanın qıraq hissəsində vəl, orta hissəsində cərə sürülürdü. Vəl-cərəni bir az gəzdirdikdən sonra dayandırır və xırmanı çevirirdilər. Bu fasilədə heyvanlar da bir az tövşünü dərirdi. Günorta çağı bir tərəfdən isti bir tərəfdən də öküzlərin yorulması kişiləri hövsələdən çıxarırdı. Buna görə də qadınlar vəl sürməyə başlayırdılar. Onlar isə elə gözəl, elə kövrək səslə ceyranım, maralım, canım, ciyərim deyə heyvanların boyunu oxşayırdılar ki, həm xırmanda işləyənlərin, həm də sanki öküzlərin yorğunluğu canlarından çıxırdı.
Günortadan sonra bir qayda olaraq şərqdən «qarayel» əsməyə başlayırdı. Bu külək toz-torpağı aparır, küləşi qurudur və işləyənlərin tərini soyudaraq dincəldirdi. İkindi çağı küləş tamamilə əzilərək samana dönür və necə deyərlər xırman olurdu.
Onlar mal-heyvanı çayda suvardıqdan sonra otlağa ötürürdülər. Heyvanlar isə bir iki ağız otladıqdan sonra yatıb gövşək çalmağa başlayırdılar. Beləliklə döyün işi qurtarana kimi həm heyvanlar, həm də adamlar yarıcan olurdular. Buna görə də sud verən inəyi cərəyə qoşmazdılar. Yoxsa heyvan südünü qurudacaq və iş-güc vaxtı ağartısız qalacaqdılar.
Döyün vaxtı qadınların işi iki qat artırdı. Onlar bir tərəfdən xırmanda işləməli, mal-qaranı sağıb sahmanlamalı, bir tərəfdən də xörək bişirməli olurdular.
Güllübəyim gəlinlərin üzünə söz gəlməsin deyə işin çoxunu özü görürdü. arvad dişdən-dırnaqdan çıxırdı. Bir dəri, bir sümük olan bu qadında təsəvvürə sığmayan qeyrət var idi. İş üstündə heç vaxt gəlinlərinə söz deməmişdi. Amma yeməmə-

zlik eləyəndə onları möhkəm danlayırdı. Ərinin ağırlığını elə saxlayırdı ki, onun sözünün üstünə söz olmazdı. Salman kişinin gəlinlərə yaxud uşaqlara acığı tutanda xəlvəti onu yumşaldardı. «kişi, işlər görülür, bir çıx dükana, qalın dağılsın», ya da «kişi belə işlərə qarışmaz» deyirdi.
Xörək yeyiləndə onun payını hamıdan artıq eləyirdi. Bəzən Səlim «hə, ərin oğlundan çox istəyir» deyə zarafata salanda, «bəs nə, hərözün[3] yaxası bir özgə qızının əlinə keçib, kişidən savay mənə qalan kim olacaq?»- deyə cavab verirdi. Gəlinlərlə birlikdə kişi haqqında söz düşəndə, «kişinin tikəsi ağır olmalıdır» deyir və onları da ərpərəst yetişdirmək istəyirdi.

Məşhəd Salmanın dərzlərinin döyülüb qurtarması düz on beş gün çəkdi. O, vaxtı itirmədən ağadan sovuruq icazəsi alıb, ertəsi gündən sovurmağa başladılar. üç günün ərzində savalan dağı kimi görünən kur[4] tamam sovurulub qurtardı. Nar dənəsi kimi göz oxşayan buğda təpə kimi görsənirdi. Salman adam göndərdi ki, ağa gəlib bəhrəsini çıxsın. Ot bəhrəsini çıxmağa darğasını göndərən ağa Salman kimi böyük əkinçilərin buğdasını ölçməyə özü nəzarət edirdi. Səlim atasına dönərək, «kişi bu qədər buğdanın bəhrəsini necə verəcəksən?» dedi. Səlimin bu sözünə hamı gülüşdü. Ağzında bircə dişi qalmayan Salmanın qəribə gülüşü var idi. O həmişə sevindiyindən güləndə kövrəlib ağlamsınardı. İndi də bir tərəfdən məhsulun bolluğundan sevinən, bir tərəfdən də işin tez qurtarmasından qürurlanan Salman kişi ürəkdən güldü və gözləri yaşardı. Səlimin dediyi söz isə onun gənclik dövründəki bir xatirəni yadına saldı. Bu xatirəni Güllübəyim danışmış və hər söz düşəndə uşaqlarına deyirdi:
- Allah ona qana-qana rəhmət eləsin. Mən qaynanamdan pislik görməmişəm. Arvad çox sadə idi. Mən təzəgəlin olanda, bir il lap indiki kimi yaman əkinimiz oldu. Xaşanı yığıb tayalayanda arvad da gəlmişdi. Göyə ucalan tayaya baxıb, oğluna «nənön ölsün bala, bebeylə otun bəhrəsini necə verəcəksən?» dedi.
Salman o kövrək xatirəni yadına salıb qəhərləndi və sovuruqçulara dönərək,
- Allahköməyüz olsun. Allah heç kimi köməksiz eləməsin, dedi.
Buğdanı iki batman yarımlıq çəlləklə və adət üzrə Səlim ölçdü:
Bir Allah
İki döyül
Üç
Dörd
Beş, pənc tən ali əba
Altı…
On iki İmam
On üç döyül
On dörd məsum

[3]Hərənizin deməkdir.
[4]Hələ sovurulmamış və buğda ilə qarışıq olan samana kur deyilir.

On beş
…
**
Günortadan sonra Nəcigilin su növbəsi idi. Ücünü iməci çağırmışdılar. Çay arasında toxum yeri suvarırdılar. Hacı Tapdıq adət üzrə çəliyini belinə vurub çayarası yerlərinə baş çəkməyə getmişdi. Hava axşamlayır və hamı çöl-bayırdan çəkilirdi. O özünü onlara tərəf verdi və lap yaxınlaşdıqdan sonra uca səslə və ərkyana bir ifadə ilə - yorulmiyasuz oğulbalaları, dedi:
Nəci əvvəl dilləndi:
- Sağ ol Hacımı.
Ücü isə adəti üzrə Nəcidən başqa bir ifadə ilə dedi:
- Yaşasın mənim Hacımı.
Hacı Tapdıq taxtını itirmiş şahların görkəmini alaraq iki başlı bir söz dedi:
- Ay yaşadı haaa.
Ücü ilə Nəci bir-birinə baxdılar. Onlar Hacıtapdığın məqsədini hələ başa düşməmişdilər, amma eyni halda onun məqsədsiz və boş yerə danışmadığını da bilirdilər. Buna görə də işin nə yerdə olduğunu öyrənmək istədilər. Onların sual dolu baxışlarını maraqla süzən Hacı Tapdıq isə özünü o yana qoymayıb cibindən iki xiyar çıxarıb soymağa başladı. O yaxşı bilirdi ki, belə adamları düşündürub maraqlandıra bilməsə heç bir göstəriş verə bilməyəcək. Nəci öz-özünə düşündü ki; «deyəsən inşallah mühüm birşey yoxdur». Buna görə də Ücüyə qaşla işarə edərək bildirdi ki, öz işində olsun. Hacı Tapdıq birdən əvvəlkindən fərqli bir ifadə ilə onları çağırdı:
- Ədə, suyu böyük tirələrin birinə ötürün, gəlin bir dişizi dəyişin.
Onlar bunu güdürmüşlər kimi belləri yerə sancıb Hacıtapdığın yanına getdilər. Onun soyduğu xiyarları ləzzətlə yeməyə başladılar. Axmaqlıqda tayı olmayan Ücü Hacıtapdığın neçə dəqiqə bundan əvvəl danışdığı ikibaşlı sözü tamamilə unutmuşdu və beynində ağzının marçıltısından başqa heç bir şey yox idi. Nəci isə məsələnin nə yerdə olduğunu başa düşmək istəyirdi. Buna görə də Hacıtapdığın susmasına dözə bilmədi:
- Hacı əmi kefin necədi?
- Nə kefim olacaq, bəyəm zamana adamda kef qoyur?
- Şükür allaha zamaniya nə olub?
Dirsəyini arxın yamacına verib böyrü üstə uzanan Hacı Tapdıq bunu güdürmuş kimi yerindən dik atılıb oturdu və öz yaşıdıla dərdləşirmiş kimi dedi:
- Əşi zəmanə dəyişilib, böyük-kiçik dəyib qarışıb bir- birinə, ehtiram-hörmət aradan götürülüb, nə Hacıda Hacılıq qalıb, nə kasıbda kasıblıq. Qapımın iti kimi sırfamın qırım-qırıntısına göz dikənlər indi mənə boynu yoğunluq edirlər. Hələ bir soruşursan da zəmaniyə nə olub?
Nəci nə qədər fikirləşdisə onun sözlərinin başını bir yerə çıxara bilmədi. ürəyində allaha təvəkkül edib dedi:
- Hacı sən Allah bir açıq danışsana.

Hacı Tapdıq az qala başını onların ağzına söykəyərək sağ əlini qulağının dibinə aparıb dedi:
- Ədə, dünnə kimi Muğanın hamarlığında sümsünən adam bu gün kəndin hampalarına meydan oxuyur.
Ücü axmaqcasına onun sözünü kəsdi:
- Kiiim?
Nəci özünü ortaya atdı:
- Kim? Şaman.
- Ağzı nədi? vallahı hac əmi icazə versə dilin boğazından çıxardaram.
Hacı Tapdıq bir tərəfdən ürəyinin acısını tökmək bir tərəfdən də ovcunu özü demişkən «şirnikləndirmək» üçün dedi:
- Kəs, kəs, sənin də igidliyini «səd arxında» gördük. Üçüz bir nəfərə cavab eliyə bilmədiz. Zahı arvadlar kimi bir həftə xəşil-quymaq yedin. İndi də ki, dabaq tutmuş mal kimi qalçanı çəkirsən…
Tapdığın sözündən incidiyinə baxmayaraq Ücü özünü sındırmadı:
- Bəxti gətirdi ayağım sürüşdü, yoxsa onu bir belə qurban eliyəcəkdim. Qisas qiyamətə qalmaz könd gəzirəm.
Hacı Tapdıq lap elə bunu güdürdü. Odur ki, Ücünün könlünü aldı:
- Oruşanın oğlusan ki, Oruşanın, deməyimə baxma, mən səni yaxşı tanıyıram. Amma bir söz var ki; başı pambıqnan da kəsmək olar. Bax, mənim bu çəliyim boyda bir ağac qırığı, tüfəngi deyirəm ey, koroğlu kimi adamı məəttəl qöydü…
Ücü yenə dözə bilməyib onun sözünü kəsdi:
- Tüfəng olsa lap yaxşı, heç bilməz mərmi hardan dəyib.
Hirs Nəcinin boğazını kəsirdi:
- Adam öləcək, yaman da atıb vuransan. İrezindaşı atmağı bacarmiyan mənə tüfəngçi olub, düz yolda yeriyə bilməyən şoxumda şıllaq atır.
Hacı Tapdıq sözünün dalbadal kəsilməsindən nəinki narahat olmurdu, əksinə Ücünün axmaqlığını gördükcə az qala qanad çalıb üçürdü. Odur ki, Nəciyə bir az acıqlandı:
- Sən niyə qoymursan uşaq sözün danışsın?
Sonra Ücüyə döndü:
- Oğul mənə bax, dörd dənə padşah yola salmışam, saç-saqqal ağartmışam, mən biləni sən bilməzsən, düz deyirsən ağac davasından bir şey çıxmaz, Şamanın qabağına tüfəngnən çıxmaq gərək, amma bu tüfəng o tüfəngdən döyül haaa,
Ücü ilə Nəci son dərəcə maraqla Hacıtapdığın ağzına baxdılar. O, sözünü davam etdirərək dedi:
- Kirpit, pir olasan bir kəndi bir kirpitə qurban eləmək olar.
Düz üç ay intiqam odunda yanan, qorxusundan isə çıxış yolu tapa bilməyən Ücünün qaş-qabağı açıldı:
- Məni nə bilirsən, lap elə bu gecə onun anasını ağlar qoyaram.
- Yox, Salman dərzlərin döyüb götürməyincə xırmana əl vurmaq olmaz,
- Dərznən nə işim var, odey çöldə ot tayası.

- Ot tayası ona heç zad eləməz. Onun çörəyin kəsməlisən, çörəyin…
**
Güllübəyim döyünün qurtardığına görə şama xəşil bişirmişdi. Qalaylanmış mis nimçələrə qalaqlanan xəşilin ortasına doşabla kərə yağı tökülmüşdü. üç barmaqla xəşildən qoparıb doşablı yağa batırdıqdan sonra ağıza qoyur və Səlim demişkən şıppıltınan udurdular.
Şamı yeyib adama iki stəkan çay içdikdən sonra Səlidayı dedi:
- Allah hamızın quvatın versin, əliz-qoluz ağrımasın. Canuz istikən inşallah Şamanın da dərzlərini döyün qurtarsın. Hava da yaxşıdır. Sabah sübdən durun xırman salağın.
Səlidayı gilin öz işi olsaydı Şaman hamıdan qabaq onun sözünü təsdiq edəcək və çox sevinclə hazır olduğunu bildirəcəkdi, amma sabahkı işin ona ayid olduğuna görə heç nə demədi. Bu dəfə Səlim dilləndi:
- Bə nəəə, işi qurtarmamış dincələn kimdi. vallah bu il mən heç yorulmamışam.
Səlimin zarafatlarından həmişə zövq alan, onları hələ də uşaq boyda görən Güllübəyim oğluna söz atdı:
- Qadasın aldığım fəqət kərdivar çəkəndə yorulur.
Söz Səlimi götürdü:
- Elə bilirsən ərin mənim başımı aldadanda mən onunkun aldada bilmərəm? yadındadır? düz üç gün özümü naxoşluğa vurub heç iş görmədim.
Hamı gülüşdü.
Səlim hələ on dörd yaşlı yeniyetmə olanda atası Salman adam tapabilməmişdi və onu kərdivara aparmışdı. Dalbadal «kərdivardan qaçan ayı olar» demiş və onu düz axşama qədər işlətmişdi[5].
Nəhayət Salman; «durun yatağın»- deyə danışıqlara son qöydü.
**
Şaman o gecə bacısı öldükdən sonra birinci dəfə olaraq şirin yuxuya getdi və birinci dəfə olaraq şirin bir yuxu gördü, Səlimin toyunu. Əlbəttə yuxuda toy görməyin nə qədər dəhşətli nəticə verməsi heç yadına düşmədi…
...Səlidayı gilin qaradamı ağzına kimi dolmuşdu. Toya gələnlərin harada oturmasına dayir bir qanun-qayda olmasa da necə deyərlər hərə öz yerini tanıyırdı. evin üçdə iki hissəsini qadınlar, üçdə birini isə kişilər doldurmuşdu. kişilər deyəndə yeniyetmələr, gənclər, otuz yaşından yuxarı olmayanlar idi. Qadınlara gəldikdə isə yeniyetmə və gənc qızlardan əlavə gəlinlər, qaynanalar və hətta yaşı ötmüş, saçı ağarmış arvadlar da toya gəlirdilər.
Qadınların hissəsində yuxarı başda nağaraçı, onun yanında ağbirçəklər, onların arxasında gəlinlər və nəhayət gəlinlərinə və yaxud analarına sığınmış ərlik qızlar otururdu. Qızlar zahirən utancaq görkəm alsalar da oynamağa gələndə inanılmaz

[5] Ərdəbilin o dövr kəndlərində olan inama görə ayı ilk əvvəl adamımış. kərdivar çəkəndə yorulub işdən qaçdığına görə ayı olur.

bir cəsarət göstərir və tamaşaçıları heyran edirdilər. Onların oynaması və oxuması üçün heç bir mane yox idi. Bəzən yalnız öz gənc qardaşlarından çəkinirdilər. Qardaşlar da çox nadir hallarda bacıların oynamasına mane olurdular. Nağaraçı belə qızları oynamağa çağıranda qardaşların etirazını kəsmək üçün «görüm qardaşının toyunda oynayasan» deyirdi.
Gəlinlərə gəldikdə isə onlar əksər hallarda öz qaynanaları ilə gəlir və sərbəstcəsinə davranırdılar. Nağaraçı onları oynamağa çağıranda qaynanalardan icazə almağı unutmurdu. Qaynanalar isə bəzən özlərini mazamata qoyurdular:
- Yaxşı, yaxşı, saqqalıma soğan doğramayın.
- Mağul ey, heç zada icazə almır, oynamağa gələndə xanım icazəsiz oynamır.
Qadınlar çalıb oynadıqdan sonra növbə kişilərə yetişirdi. Aranı qızışdırmaq üçün yeniyetmələrdən başlayırdılar. Onların bəzisi doğrudan da yaxşı oxuyurdu. Belələrini nağaraçı təşviq edərək «gözüvü yeyim» deyirdi. Ağbirçəklərin təşviqi isə bir qayda olaraq «görüm sinəndə ağ tük bitsin bala» ibarəsi idi. Səkinəxalanın isə özünə məxsus təşviqi var idi:
- Vi səni belə dul qalasan.
Və ondan üç-dörd yaş böyük olan qızına işarə edərək artırırdı:
- Saçın ağ hörər.
O tərəfdən Xırdaxanım dillənirdi:
- Özümə yeznə olacaq, odey gül kimi nəvəm var.
Əlbəttə bu kimi söz atmalar zahirdə zarafatyana deyilirdisə də əslində evlənməli gənclərin diqqətini cəlb eləmək idi. Çünki gənclər belə toy-düyünlərdə istədikləri qızı seçirdilər və qızlar oynayanda necə deyərlər onlara müştəri gözü ilə baxırdılar. Onların oxuduğu mahnılar da əsil niyətlərini göstərirdi. Daha doğrusu nağaraçıdan başqa hamının oxuduğu mahnı ürərk sözü idi. Sözlə deməyə utanan gənclər öz fikirlərini mahnı ilə çox rahat deyə bilirdilər.
Yeniyetəmələrdən bir-ikisi oxuduqdan sonra nağaranı Mirzaman aldı:
Bir nağara gətirin
Qoyun bir də çalam mən
Qonşuda bir qız sevmişəm
Pulum yoxdu alam mən.
Mirzamanın bəxtini də elə bu mahnı açdı. Nağaraçı, üzünü onun istədiyi qızın anasına tutaraq dedi:
- Cavandı, yazığın gəlsin. Nə olar ki, yoxsul olanda.
Səkinəxala onun sözünün dalını tütdü:
- Məsəl var deyirlər, igid fər oldu neynir dədə malın, befər oldu neynir dədə malın.
Arxadan başqa bir səs eşidildi:
- Maxluq allahı qoyub gözün bəndəyə dikib.
Nağaraçı məclisi ələ almaq üçün uca səslə «nağaranı verin Şamana» dedi. Şaman oxumaq istəmirdi. Səkinəxala dilləndi:
- Ey, demə oxuya bilmirəm a, oxumağını görmüşəm, dana bilməzsən.

Səlim Şamanı dümsükləyərək «kim deyir Şaman oxumur» deyib nağaranı aldı və bir başı zorla Şamana verdi. Şaman nağaranı alıb bir az oyan-buyan elədikdən sonra bir«arazbarı» gəldi:

Dedim ey gül həmdəmim kimdir
Dedi: belə bala həmdəmin mən ollam, ay zalım
………………………………
Məcnun ollam dağı dəlləm

Zəri həsrət dolu yanıqlı bir səslə və inilti ifadəsi ilə dilləndi:
- Bacun səsüvə qurban.

Artıq onun aşiq olduğunu hamı bildi. Nağaraçı ilə bərab'r alqışlar eşidildi:
- Dağuvi görməyim, igid.
- Ölməyəsən.
- Qızlar sənə qurban.

Hacıtapdığın qızı bir başı qibtə bir başı lovğalıqla Zəri eşitsin deyə dilləndi:
- Hə, başıma dönsün, gör qurban olmamışam.

Qalan qızlar isə onun kimə vurulduğunu hələ bilmirdilər. Özlərini o yana qoymasalar da onun sevdiyi qız olmaq arzusunda idilər.

Səlim araya düşmüş pıçıltıya son qöydü:
- Bax bu olmadı, açıq danışsana. Dillən görək nə deyirsən.

Başqaları da israr etdikdən sonra Şaman bir təsnif oxudu:

Uca dağlar, Uca dağlar başında
Bir qız sevdim tirmə şal var başında

Səkinəxala Şamanın sevdiyi qızı hamıdan tez tanıdı və narahatlığını gizlədə bilmədi:
- Hə, başıma xeyir, rəiyyət qızı buna yaramır.

Nağaraçı hamıdan çox narahat olsa da məclisə pıçapıç düşüb çal-çağır bazarının kasad olmasını istəməzdi. İstehza qarışıq bir ifadə ilə dedi:
- Deyirəm axı, əli qoynunda boynu çiyinində, ağanın mətləbi varımış. İstəməyənin gözü kor olsun.

Paxıllığından yanan Hacıtapdığın qızı özünü saxlaya bilmədi:
- Bəxtəvər başımıza tirmə şallı bir qız sevib, nə də qızdı, bir gözü alça dərir bir gözü heyva.

Dilavər qızlardan biri onu cavabsız qoymadı:
- Hamı Hacıtapdığın qızı olar nə? neynək Şaman səni alar.
- Başıma dönsün ona gedən kimdi?

Şaman üçüncü mahnını oxuyaraq bütün bu dedi-qoduya son qoydu:

Abbas deyir ağlayanlar güləndə.
Nazlı yar sorağım, halım biləndə,
Mərhəmət eyləyib bizə gələndə,
Elə gəl, get ginən yol inciməsin
Balam inciməsin.
Sonam inciməsin.

Gülüm inciməsin.
Ay yar inciməsin.
Bütün danışıqları, atmacaları eşitməyən, məhz Kifayəti düşünən Şaman havanı dəyişdirərək davam etdirdi:
Şeyda deyir bir dərdimi bilmədin,
Dost oluban bir üzümə gülmədin.
Vədə verib, vədəmizə gəlmədin.
Nə danışdın gəzə-gəzə gələndə?
Kərəm kimi eşq oduna yananam,
Dostuna dost, düşməninə yamanam.
Mən arifəm işarədən qananam.
Kəlməni başlayıb sözə gələndə…
Salmanın bağırtısı yuxunun davam etməsinə mane oldu. Şaman yerindən dik atıldı. Bütün ailə xırmana tərəf qaçdı. Salman ailəyə, «hamınız arxdan su gətirin»-deyə əmr verdi.
Hay-küyə gəlmiş qonum-qonşunun hərəsinin ağzından bir söz çıxırdı:
- Yazığın əməyı korlandı.
- Kül oldu ölüsünün gözünə.
- Yıxıldı dədəsinin evi.
- Gəl ver ağanın cavabın, görüm necə verəcəksən.
Bu zaman Salmanın bağırtısı eşidildi:
- Kömək eləyin axı, Müsəlmanlar.
Kimi su daşıyır, kimi alovun üstünə su və torpaq atırdı. Lakin burula-burula göyə dirənən alovun istisi heç kimə aman vermirdi. Bütün bu çalışmaların nəticəsiz olduğunu duyan Səlim birdən uca səslə bağıraraq dedi:
- Ədə, otu söndürmək olmaz, yanmamış dərzləri xırmanın o tərəfinə daşıyın.
Hamı əlindəki beli və vedrələri atıb dərz daşımağa başladı. Artıq iş işdən keçmişdi və dərzlərin cəməi üçdə birini alovun əlindən qurtara bildilər. Hələ də camaat xırmana axırdı. Əhalinin hamısı gəlmişdi və evlərdə corma-cocuqdan başqa heç kim qalmamışdı. Yenə də söz-söhbət başlandı:
- Samanı ki, kara gəlməz.
- Malı şüvənə çıxsın bir zərrə his isi gəldi, öldürəsən yemir.
- Şamanın baxtı gətirib malı yoxdu.
İltifatın ağzından mənalı bir söz çıxdı:
- Ağaynan ağalıq eləmək olmaz.
Fəzayıl daha açıq danışdı:
- Taya da özü-özünə yanar?
Bir başqası dilləndi:
- Şaman öz düşmənin tapmalıdır.
Bir pıçıltı eşidildi:
- Düşməni Hacı Tapdıqdan, Hacı Tarandan savayı kim olacaq?

Rəhmət böyük bir kəşf edirmiş kimi dedi:
- Balam Ücüynən Nəci yoxdur?
Şamanın beynində qığılcım kimi bir fikir yarandı. Sürətli addımlarla Ücü gilə tərəf yollandı. Qapılarını çaldı, amma açan olmadı. Deməli Ücü evdə deyildi. Anası Xanımgül də ki, camaatla birlikdə xırman yerində idi. vaxtı itirmədən Nəci gilə döndü. Nəci də evdə deyildi. Şamanın beynində yaranan fikir daha da güclənmişdi. Özündən asılı olmayaraq balıqlının qırağı ilə «Əmən» bağına tərəf yollandı. «çayarası» yolu ilə bir qaraltının da o tərəfə getdiyini duydu. Özünü o tərəfə verdi. Bir az yaxınlaşdıqdan sonra tanıdı. o, Fəttah idi. Çiyinində tüfəng saymazyana gedirdi. Şaman Fəttahı xırmanda qoyub gəlmişdi. İndi isə burada gördüyündən çox təəcübləndi. Bir az izlədikdən sonra onun da Əmən bağına getdiyini yəqin etdi. Xaşanın içindən çıxıb Fəttahın dik qarşısında dayandı. Fəttah isə özündən asılı olmayaraq bir sual verdi:
- Ədə Şaman xırmanı qoyub burda nə gəzirsən?
Şaman onun sualına sualla cavab verdi:
- Bəs sən burda nə gəzirsən?
Heç bir sual-cavaba hazrlığı olmayan və yalnız ürəyindəki planı həyata keçirməyi düşünən Fəttah məqsədini gizlədə bilmədi:
- Haçana kimi bunların çaldığına oynayacağıq? ölmək ölməkdi, xırıldamaq nədi? bu köpək uşaqlarının qarnını «seçmə» ilə dolduracağam.
Şaman onu öz fikrindən daşındırmağa çalışaraq dedi:
- Demək sən də özünü Ücü kimilərə qoşursan?
- Deməli olar quldurluq eləsinlər biz də güldən ağır bir söz deməyək? sən bunu istəyirsən? yox Şaman, mənimki ilə səninki tutmaz. Mən buna dözə bilmərəm. Neynək sən get bir dəsmal tap, yanmış tayanın külünün başında ağla, mən də özüm billəm.
- Yox bala, elə deyil ki, hər işin özünün yolu var. əvvələn Ücü ilə Nəcinin bu işi gördükləri bizə yəqin olmayıb, ikincisi Səlidayının da abırın nəzərdə tutmalıyıq. Bir də ki, axı Ücü kimilərin dalında duran olmasa, olar bu cür işləri bacarmazlar. Daldada Hacı Tapdıq kimilərin əli var, sən nə danışırsan? Hacı Rəfətin, Mirzə Məcidin pişik yolusu olmasa Səlidayı kimi adamın himayəsində olanın tayasına od vura bilməzlər.
Fəttah yumşalmışdı. Şaman sözünü davam etdirərək dedi:
- Sən elə bilirsən ki, mən səndən az narahatam, ya qorxuram? yox vallah, lap o vaxt, kənddən çıxanda öz canımdan doymuşdum. Sözün düzü Kifayət olmayandan sonra dünya nəyimə gərəkdir? Amma neynim, bacım boğazımda qalmışdı. O da ki, day dünyanın həm-qəmindən dincəldi. Bax o vaxt bacım olmasaydı, sənin indi gördüyün işi görəcəkdim...
Fəttah Şamanın sözünü kəsdi:
- Yaxşı, yenə gəldin mən deyənə.
- Yox, sən deyən işin vaxtı çatmayıb, hələ qoy görək bu işin arğacı kimnən keçib?

Mən yüz dəfə ölçməyincə bir dəfə biçən döyüləm. De yubanma, gəl gedək, olar Əmən bağında olmalıdılar.
Beləliklə onlar Əmən bağına getdilər. Bağa yaxınlaşanda Ücü ilə Nəcinin pıçıltısını eşitdilər. Onlar qızılgül kolunun dibinə sığınıb danışırdılar. Nəci Ücüyə deyirdi:
- Səni görən olmadı ki?
- Yoox, yox, heç kim görmədi.
Ücünün şübhəli cavabı Nəcinin gözündən yayınmadı:
- Dilüvi oynatma, kim gördü?
- Mənim sözümə inanmırsan? deyirəm görən olmadı dəəə.
- Yalan deyirsən, özü də lap it kimi.
- Bax o sən öləsən yalan demirəm. Bircə İltifatnan Fəzayıl Yekəli yoluynan tukana tərəf gedirdilər. Olar da məni tanımazdılar, tanısalar da özümüzdəndilər dəəə.
Onlar bir xeyli susdular. Nəci birdən dilləndi:
- Həhəhə, özümüzdəndilər, düz deyirsən, maymağın biri maymaq.
Şaman artıq dayanmağı məsləhət bilməyib onların qabağına atıldı və «aşna, oğurluğun ay işığına düşüb, Əlimdən salamat qurtarmayacaqsan» dedi və Ücünün qulağının dibinə möhkəm bir sıllı vurdu. Nəci qaçmaq istəyəndə yaxası Fəttahın əlində qaldı. Varlığını qəzəb və nifərt bürüyən Şaman və Fəttah oO ki, var tapdadılar. Sürətlə enən yumruq və təpik qarşısında qıvrılıb yumağa dönən Ücü ilə Nəci özlərini belə müdafiə edə bilmədilər. Şaman Ücünün yaxasından yapışıb dik qaldırdı və söyüd ağacına söykəyib dedi:
- De görüm səni bu işə vadar edən kimdir?
Ücü müqavimət göstərmək istədi, lakin Şamanın qəzəbli baxışı onu tamamilə təslim etdi:
- Məni Hacı Tapdıqla Nəci yoldan çıxartdı.
Nəci dilləndi:
- Kəs səsüvi, sarsağın biri sarsaq. Tayanı sən odlayıbsan yoxsa mən?
O, sonra Şamana döndü:
- Bu köpək oğlu it kimi yalan danışır. İnanmasoz İltifatnan Fəzayıldan soruşun. Səd arxında yediyi belin acığını çıxmaq istəyirdi…
Fəttah Nəcinin sözünü kəsdi:
- Yum ağzuvı murdar oğlu murdar, sən ondan qalan döyülsən. Taya yandırırsız? evüzi yandırmasam hətəm oğlu döyülm.
Şaman Fəttaha dönərək amiranə bir ifadə ilə dedi:
- Ədə yapış qulağından sürüyüb aparaq bu əclafları.
Onlar Ücü ilə Nəcini Fəttah gilə gətirdilər. Şaman onları Fəttaha tapşırıb Səlidayı gilə getdi.
**
...Artıq xırman yerində Səlidayıdan, səlimədən və bir iki nəfər qonum-qonşudan başqa heç kim qalmamışdı. Ölüm-dirim müharibəsində bütün adamları qırılan bir komanderə dönmüş Səlidayı «bala, gedəyin» deyərək evə döndü. Səlim isə on-

lardan ayrılaraq hələ iki bir, üç bir danışa-danışa evlərinə gedən camaata qoşuldu. Özünü hamıdan fərqli olaraq yanqın haqqında ətrafı süzə-süzə danışan İltifatla Fəzayıla tərəf verdi. İltifat:
- Ədə Fəzayıl, tanıdın?
- Kimi?
- Kimi?
- Taya yandıranı?
- Bəs məni? taya yandıranı deyirəm dəəə.
- Niyə tanımadım, oğru pişik döyüldü?
- . . .
Səlim artıq hər şeyi bilmişdi. Buna görə də camaatdan ayrılıb evə döndü.
Evə çox ağır bir sükut çökmüşdü. Bu faciə onları o qədər gicəltmişdi ki, heç fikirləşə də bilmirdilər. Nəhayət Səlim dilləndi:
- Tayanı yandıranı tapmışam.
Sonra Səlidayının sual dolu baxışlarını görüb sözünü davam etdirdi:
- Ücüdür. Onun boğazını cüllüt boğazı kimi üzməsəm Səlim döyülm. Qoy səhər açılsın…
Buzovu qarnında ölmüşə oxşayan Şaman onun sözünü kəsdi:
- Səlim düz deyir, tayanı yandıran Ücüdür, İltifatnan Fəzayıl da görüb. Amma iş tək Ücüyynən bitmir. Onu bu işə vadar edən Hacı Tapdıqdır.
Səlimin dediklərinə çox da əhəmiyyət verməyən Səlidayı ciddi və sadəlövh bir ifadə ilə soruşdu:
- Onun qarnına nə sancısı dolub? belə iş olmaz.
Şaman; «dediklərimi bu saat sübut elərəm» deyib evdən çıxdı.
Az sonra Fəttahla birlikdə Ücü ilə Nəcini gətirib evin ortasında oturtdular. Onlar sudan çıxmış siçana dönmüşdülər. Salman kişi ücünün düz gözünə tüpürüb dedi:
- Bə niyə suluq utubsan, ədə vələdüzna.
Ücünün ağzı güclə söz tutdu:
- Pox yemişəm, qələt eləmişəm ay Səlidayı.
Güllübəyim dözə bilmədi:
- Yediyin çörək gözündən gəlsin, heç utanmırsan?
Ücü yükünü yüngüllətmək istədi:
- Başuva dönüm bibi, məni Hacı Tapdıqnan Nəci yoldan çıxartdı.
Salman bir daha sadəlövhcəsinə təkrar etdi:
- Bilmirəm axı onun qarnına nə sancısı dolub?
Atasının bu qədər sadə olduğuna inanmayan Səlim Şamanın əvəzinə cavab verdi:
- Nə sancısı dolacaq, Zəri bacının torpaqlarının sancısı.
Ömründə heç kimin «bir çöpündə» gözü olmayan və hamını özü kimi bilən Salman qəzəb dolu bir ifadə ilə; «onu ölü gözü görər» dedi və Hacı Rəfətin ədalətinə güvənərək artırdı:
- Ağanın yanına gedib hər şeyi açacağam. Bu işi yerdə qoymayacağam. bəyəm

Salman ölüb? bəyəm Zəri bevarisdi?
Bir tərəfdən Səlidayının insanlığına vurulan, bir tərəfdən də onun sadəlövhlüyünə acıyan Şaman düşündürücü bir sual verdi:
- Bu işdə Hacı Rəfətin öz əli olsa necə?
Şəraiti tamamilə uyğun görən Fəttah Səlidayıya macal vermədi:
- O vaxt qoysaydız, mən bu əclafı öldürəcəkdim. İndi də Hacıtapdığı bizim üstümüzə kişkirən olmayacaqdı. onda həmin Səlimnən Şaman tüfəngi zornan əlimdən aldılar. Özümüz öz əlimizi bağlamışıq, qalmışıq avara . . .
Fəttahın fikri neçə il bundan qabaq baş verən bir hadisəyə qayıtdı. arvadı «ipək»ə nişanlı olarkən əcərli pencək-şalvar geymiş, «kepi» papağını yanqılıcı qoymuş, əlləri şalvar cibində ipək gilin təngəsindən gedirdi. Mirzə Məcidin oğlu Əhmədağaya rastlaşdı. Adaxlısını düşündüyünə görə ağa oğlunu görməyən Fəttah nəinki əlini sinəsinə basıb salam vermədi, üstəlik heç əlini cibindən də çıxarmadı. Bu da təkcə ağalara yox, hətta rəiyyətlərə belə dözülməz bir ədəbsizlik idi. Əhmədağa geri dönüb Fəttahı çağırdı:
- Qoduğun biri qoduq, hələ mənim qabağımda qoçuluq edirsən? çıxart əlini şalvar cibindən.
Fəttah özünə gəlməmiş qulağının dibinə elə bir sillə dəydi ki, gözündən od parladı. Dar gündə həmişə tüfənginə sığınan Fəttah heç bir söz deməyib evlərinə getdi. Həmişə qış qurtarandan sonra səliqə ilə silib, yağlayıb, əsgiyə büküb divardan asdığı tüfəngini götürdü. Sarığını açıb təmizlədi və doldurmağa başladı. Anası tüfəngin vaxtsız təmizləndiyini görüb təəcübləndi O bir başı zarafatla dedi:
- Deyəsən ipəkin eşqi balamın başın xarab eləyib. ov vaxtına hələ iki ay qalır, indidən tüfəngi doldurur.
Fəttah doldurma işini davam etdirə-etdirə dedi:
- Balavun başın ipəkin eşqi yox ey, sillə xarab eləyib.
Oğlunun kiminləsə savaşdığını təsəvvür edən və döyüldüyünü özünə sığışdıra bilməyən Səriəxala Azərbaycan qadınlarına məxsus bir ifadə ilə dedi:
- Bəyəm o şillə vuranda sənin əlin plov yeməyə getmişdi?
Hirsindən danışmağa hövsələsi olmayan Fəttah cavab verdi:
- Yox mənim əlim cibimdə idi.
- Əli cibindən çıxmayanın canı da çıxar, lap şillə də yeyər. arvadsan döyüləsən? mənə tüfəngi paxmanın biri paxma.
Sonra tüfəngi Fəttahdan alıb divardan asdı. Fəttah isə öz fikrindən daşınmadı. Axşam üstü anası bulağa gedəndə tüfəngi götürüb kənddən çıxdı. Gilan yolu ilə gedib Məmixəndəyinin dalında gizləndi. «qarasu»yun qırağındakı yaşıllıqlara seyrə çıxan Əhmədağa hava qaranlıqladıqdan sonra həmin yolla evə dönəcəkdi. Fəttah isə Məmixəndəyinin yanında gözləyir və onunla hesabını çürütmək istəyirdi. Səriəxala bulaqdan gəldi. Sənəki çiynindən yerə qoya-qoya Fəttahı səslədi. Fəttahdan səs çıxmayanda həmişəki kimi deyinmək istədi, lakin bir iki saat bundan qabaqkı əhvalat yadına düşdü. Tez gedib evin divarına baxdı. Tüfəng yerində yox

idi. vaxtı itirmədən Səlidayı gilə yollandı. yolda Səlim ilə Şamana rast gəldi. Onlar bir səslə; «axşamuz xeyir»-deyə salamladılar. Səlim artırdı:
- Bu vaxt hara belə Sərixala?
- Ay səlim, amanın günüdü, gedə tüfəngi götürüb gedib, kəndə qan düşər.
Şaman dilləndi:
- Bir açıq danış görək nə olub axı?
- Fəttahı döyüblər, tüfəngi götürüb onu axtarır.
Səlimlə Şaman bir-birinə baxıb; «yaxşı sən qayıt evə, biz gedək görək nə olub»-deyə ondan ayrıldılar.
Yolda dadaş rast gəldi. ondan Fəttahı soruşdular. Dedi:
- Vallah tüfəng çiynində Gilan yolu ilə gedirdi.
Səlim dedi:
- Dadaş əmi, bilmirsən Fəttah kimnən savaşıb?
- Heç kimnən.
Onlar dadaşdan ayrılıb Gilan yolu ilə getməyə başladılar. nəhayət Məmixəndəyinə çatdılar. Bir az yavaşıdılar. Səlim Şamana döndü:
- Sən bilən nə eləyək?
- Vallah mən də qalmışam belə, bu boyda kövşəndən onu tapmaq olmaz ki.
- Hara getmiş olsa burdan qayıdacaq, keçək xəndəyin dalında gözləyək.
Onlar xəndəyin dalına keçəndə Fəttahı gördülər və bir başı güclə bir başı isə könlünü almaqla evə qaytardılar . . .
Bütün bunları bir anlığa seyr edən Fəttah ürəyində düyünlənib qalan nifrəti büruzə verməyə vaxt tapıbmış kimi sözünü davam etdirərək dedi:
- Bədbəxtçiliyə bax ey, bir kənd bir adamnan bacara bilmir: ədə kəsməyin qabağımı, qoyun bunların nəsilin kəsim axı.
Şaman dilləndi:
- İş bir Hacı Rəfətlə qurtarsaydı, sənə aman verməzdim. Amma neynəmək olar, Hacı Rəfətlərin dalı əmniyələrə söykənib. Mən, sən, bir kənd iki kənd ağalarnan bacara bilməz . . .
Bütün bu danışıqlardan heç bir nəticə çıxara bilməyən yazıq Səlidayı çıxış yolu tapmayanda həmişə dediyi; «dünyada üç dənə bəxti qara var, biri mənəm, biri Şaalı oğlu Ağaseindir, biri də yarb kim ol» sözünü son dərəcə kədərlə bir daha təkrar etdi.
Ən ağır şəraitdə, ən çətin və dözülməz anlarda belə sarsılmayan Güllübəyim bütün bu danışıqlara yekun vurdu:

- Hövsələdən çıxma, kişi, naumud şeytandı . . .

Dan yerinin sökülməsinə az qalırdı. Güllübəyimin göstərişi ilə gözlərinin acısını dərməli oldular. Amma onların heç biri yuxuya gedə bilmədi. Hərə öz könlündə fikirləşir və sabah nə baş verəcəyini düşünürdü. Şaman nə qədər oyan-buyan elədisə də heç bir nəticə çıxara bilmədi. Onun fikri istər-istəməz ötən günlərə

getdi. Kifayətlə ilk görüşü yadına düşdü...
**
O gün Kifayət öz qulluqçuları ilə bulağa getmişdi. Kəndin bütün qızları və gəlinləri demək olar ki, ordaydı. Hərə öz tay-tuşu ilə danışır və növbəsini güdürdü. Belə danışıqlar adət üzrə daha çox iş haqqında olur, məsal üçün payızın və qışın bekarçılıqlarinda «hana» uzatmaqdan və xalça toxumaqdan söz gedirdi. Bekarıçlıq olduğuna görə bulağa gələnlər tələsmir və öz növbələrini güdürdülər. Bəzən gəlinlərin arasındakı söhbət elə şirin olurdu ki, sənəklərini doldurub «təpəcəyini» bərkitdikdən sonra belə su aparmağa gəldiklərini unudurdular. Onlar birdən özlərinə gəlir və,
- Vi, canım ölsün ətimin dən-düşü qaldı,
Yaxud da,
- Canım vay, kişi gəlib görsə evdə yoxam, itə dönər, -deyə dik atılıb yola düşürdülər.
Qızlar evlnədirməli oğlu olan anaları bulaqda gördükdə çevik tərpənir və onların diqqətini cəlb etmək istəyirdilər.
Bəziləri isə qaynanaların gözünün odunu alsınlar deyə necə deyərlər «bihəyalıq» edirdilər:
- Arvad bir az oyanlıq çəkilsənə.
- Arvad elə bil bulağı pudrata[6] götürüb.
Arvadlar isə onları cavabsız qoymurdular:
- Canın yansın, dilinin uzunluğuna bax.
- Bəxtəvər səni alanın başına.
Əlbəttə bütün bu deyişmələr həm zahiri xarakter daşıyır, həm də azlıq təşkil edirdi. Bir çox hallarda isə böyüklərə hörmət olaraq qızlar onların sənəklərini doldururdular.
Evlənmək istəyən oğlanlar daha çox bulaq başında öz gələcək həyat yoldaşlarını seçirdilər. Onlar gəlinlərinin yaxud bacılarının vasitəsilə sevdikləri qızlara sifariş göndərirdilər. Sevgililəri ilə görüşmək istəyən və qabaqca sözləşmiş qızlar bulaq başından qayıdarkən bir bəhanə tapıb təklənir və müəyyən yerdə görüşürdülər.
Kifayətə gəldikdə isə onun heç bir qız yoldaşı yox idi. Ağalıqla rəiyyətlik arasında olan möhkəm bir hasar onu kəndin digər qızlarından ayırırdı. Qulluqçudan başqa məhrəmi yox idi. Bulağa gələndə də anasından icazə alır və könlünün «qubarı» dağılsın deyə gəzməyə çıxırdı. Lakin bulaq başındakı hay-küyü, qaynarlığı görəndə könlünün qubarı nəinki dağılmır, üstəlik bir az da kədərlənir, ürəyi sıxılırdı. Daha doğrusu O özünü məhrum bir varlıq bilir və son dərəcə acıyırdı. Bəzən; «kaş rəiyyət qızı olaydım»- deyə düşünürdü. Kəndin cavanları da həmin sarsılmaz divarı duyur və onun haqqında heç maraqlanmırdılar da.
O gün Kifayət qulluqçu ilə birlikdə bulaqdan qayıdanda Şamanla bərabər kövşənə, bildirçin tutmağa gedən iki cavanla rastlaşdı. Onlar xanın qızı gəlir, deyə yoldan

[6]Pudrat rus sözüdür və kontarata götürmək deməkdir.

çəkilib dayandılar. Şaman isə yeridiyi yerdə durdu. Hələ on-on beş addım qalan Kifayəti maraqla süzdü. Qulluqçunun yanı ilə gedən bu qızın bir köhlən kimi məğrur yerişi diqqətini cəlb etdi. Addımlarına uyğun olan boynunun ahəngdar hərəkəti necə də yaraşıqlı idi. Əyninə kip qalan və qırağına pul düzülmüş bir cılıqqa geymişdi. Tuman-köynəyinin qırağına qara qaytandan köbə salınmışdı. Başına örtdüyü tirmə şal yaylığının bir ücü belinə tökülmüş saçlarının hörülmüş hissəsini örtmüşdü. O bəstə boy qızın boy-buxunundan yaraşıq yağırdı. Bütün bunları görən Şaman yerə sancılmış və hərəkət etməyə qadir olmayan bir ağaca dönmüşdü. Nəhayət qulluqçu ilə qız gəlib yetişdilər. Şamanı birinci dəfə olaraq görən Kifayət bir anlıq da olsa dayandı. Onların gözləri bir-birinə sataşdı. Necə də gözəl idi o. Qaşları çatma olmasa da elə bil qələmlə çəkilmişdi. Uzun və qalın kirpikləri, çöhrəyiyə çalan al yanaqları, nazik dodaqları və üst dodağının alt dodağa qovuşacağındakı yaşımtıl xal, bir az çuxura düşmüş ala gözləri, sehirkar baxışları təsəvvürə sığmayan bir gözəllik nümayiş etdirirdi. Gözlərinin dərinliyində sezilən uğursuz bir sevda məğrur görkəmini sarsıdırdı. Şamanın ürəyində xana bəslədiyi nifrət bir anlığa əriyib yoxa çıxdı. Durduğu yerdən dik atılıb qıza yol verdi və bununla da ayı kimi donquldanan qulluqçunun səsini kəsdi. Kifayətə gəldikdə isə bu bir anlıq görüşdən bir dünya zövq almış qız utandığından Şamana heç əməlli-başlı baxa bilmədi. İndiyə kimi ona mənasız, dunuq görünən həyat necə də canlandı. Könlünün telləri əsdi, beyninin hər bir hüceyrəsində min bir arzu çiçəkləndi: bəlkə bir quş olub ovlanaydım?.....

Şamandan bir az aralandıqdan sonra qulluqçuya döndü:

- O oğlan kim idi?
- Kim olacaq, «Xaliq»in sağırı.

Qulluqəçunun atmacasını başa düşməyən və əslində də onu vecinə almayan və yalnız görüşü düşünən Kifayət ikinci sualı verdi:

- Gündə burdan sovuşur?
- Hə, balıya gəlmiş gündə burdan sovuşur. Nə ağa bilir nə nökər. Xanıma deyəcəyəm onun cilovun yığdırsın.

Qulluqçu əslində özündən qorxurdu, çünki Kifayətin anası bu macəranı bilsə idi, onun gününü göy əsgiyə düyünləyərdi. O elə təsəvvür edirdi ki, Kifayət bir xan qızı kimi Şamanın bu ədəbsizliyindən bərk acıqlanıb və evə yetişən kimi anasına şikayət edəcək. Onun gəzib dolanmağı çox sevdiyinə görə dəhşətli bir sirri açırmış kimi pıçıltıya oxşar səslə dedi:

- Naba-naba xanıma bir söz deyəsən. Şamanın ədəbsizliyini bilsə, sənin bulağa getməyini qadağan elətdirər haaa.

Şamanı görməklə xan qızı olduğunu unudan Kifayət dedi:

- O yazıq nə elədi ki?

«Vi, deyəsən qızın acığı tutmayıb»- deyə qulluqçu öz-özünə düşündü və ürəyi sakitləşdi. . .

Şaman öz yoldaşları Səlim və Fəttahla birlikdə bildirçin tutmağa gedirdi. Fəttah

hələ ertədən çoban yerində yaxşı bir bildirçinin olduğunu öyrənmiş və yoldaşlarına demişdi. Adamın çənəsinə qədər ucalmış zəmilər «bığım[7]» idi. Bildirçinlər dörd dövrədən səs-səsə verib oxuşurdular. Onlar qulaq asıb Fəttahın dediyi bildirçini müəyyənləşdirdikdən sonra Şaman atasının Bakıdan gətirdiyi «dili» torbadan çıxarıb dil verməyə başladı. Bildirçin onun dilinə cavab verdi. İkinci dəfə dil verdikdən sonra daha yaxınlaşdı. Şamanın işarəsilə Səlim ilə Fəttah toru sərdilər. üçüncü dildən sonra bildirçin zəminin o başından uçub torun düz iki addımlığına düşdü. Həmişə bildirçin tutmaqda son dərəcə həssas olan və heç kimin cınqırının çıxmasına yol verməyən Şaman gözlənilməz bir hərəkət edərək yerindən durub əllərini bir-birinə vurdu və beləliklə bildirçin uçub getdi. Onun bu cür tərpənməsinə əsla inanmayan Səlim və Fəttah əsəbilşməkdən daha çox təəccüb etdilər. Səlim əvvəl dilləndi:
- Ədə, ağluvı dəyişirsən?
Fəttah daha da sərtliklə dedi:
- Dəli olubsan?
Şaman səlimələ Fəttahın dərk eləmədiyi sözlər danışmağa başladı:
- Quş yaranıb uçmağa, onu tutub qəfəsə salan yuxusunda ilan-qurbağa görər.
Səlim:
- Deyəsən aşnam ağsaqqal imiş, biz bilmirmişik. Amma heyif ki, ağsaqqalları yamsılaya da bilmir. Bura bax adəəə, o məsəli bildirçin tutana deməyiblər ey.
- Bəs kimə deyiblər?
Səlimin əvəzinə Fəttah cavab verdi:
- Bax belə deyiblər: yediyində birinin gözü qalsa yuxunda ilan-qurbağa görərsən. Qorxma, bildirçin tutmaqnan yuxuva heç zad girməz.
Onlar əli qolundan uzun kəndə döndülər. Şaman bir tərəfdən yoldaşlarının inciməsindən narahat idi, bir tərəfdən də nədənsə sevindiyindən dərisinə sığmırdı. Həyət qapısından içəri girəndə özündən asılı olmayaraq uşaqlara məxsus mahnını zümzümə etməyə başladı:
Çəkil küçədən başı şəlməli qız
Öpüm üzündən qolu düyməli qız
Zəri Şamanın bildirçin tutduğunu təsəvvür edib dedi:
- Ay qağa, qapı-bacamızda qəfəs əlindən yer yoxdur. Neynirsən bu qədər bildirçini?
Şaman; «bildirçin tutan kimdi» deyib qəfəslərin ağzını açıb bütün bildirçinləri azad etdi. Onun bu işinə mat qalan Zəri dilləndi:
- Vi, sənə nə olub ay qağa?
- mənə heç zad olmayıb, şükür allaha kefim kök, damağım çağ, «çəkil küçədən başı şəlməli qız. Öpüm üzündən qolu düyəməli qız».
Onun bu hərəkətinə əsla inanmayan Zəri öz-özünə danışırmış kimi «həmişə bu kefdə olasan» dedi.

[7] Bığım sünbülü hələ qınından çıxmamış buğda zəmisi deməkdir.

Səlidayının sübh namazına çağırması Şamanın fikrini elə buradaca qırdı.
**
Səlidayı Hacı Rəfətə arxayın idi. İndiyə kimi onun sözü yerə düşməmişdi. Əlbəttə necə deyərlər üzü yola bir rəiyyət olmasına da söz yox idi. Ağanın bir çöpündə belə gözü olmazdı. Onun belə davranışı uşaqlarının elə də xoşuna gəlmir və ağaya Səlim demişkən «dızmırlıq» gəlmək istəyirdilər. O isə həmişə uşaqlarını ağaynan üz bə üz olmaqdan çəkindirirdi. Bu da hətta bəzən Güllübəyimi belə hövsələdən çıxarırdı, lakin belə hallarda yalnız «kişi, uşaqların gözünün otun alma, ağadan müsəlman çıxmaz», deməklə kifayətlənirdi. Səlidayı isə həmişəki cavabını verirdi:
- Arvad, nə eləmək, Allah bizi də bunun əlində əsir yaradıb dəəə.
Onun bu kimi sözləri səlimin ürəyindən olmasa da çıxış yolu tapa bilmir, susmaq məcburiyyətində qalırdı.
İndi də Səlidayı Hacı Rəfətin tayanı yandıranı cəzalandıracağını yəqin edirdi. Axı yanan məhsulun ən azı beşdə biri ağaya ayid idi. Bundan əlavə ağanın haqqı çıxılıb ayrılmayan məhsulu odlamaq əslində onun malına kəc baxmaq demək idi. Əlbəttə Hacı Rəfət belə adamların dərisin boğazından çıxartdırardı. Ağa qabağında ağalıq eləmək olarmı?
Namazdan sonra gündəlik adətinin xılafına olaraq tələsə-tələsə bir iki tikə qalyan altı eləyib çöl-bayıra çıxmadı. Tövlədə mal heyvana baxdıqdan sonra həyətdə var-gəl eləməyə başladı. Ağanın yanına necə gedəcəyini, sözün üstünü necə açacağını, kimi taqsırlandıracağını düşünürdü. Görəsən ağanın xəbəri var ya yox? görəsən Şamanı da özü ilə aparsın yoxsa tək getsin? bəlkə Ücü ilə Nəcini qulaqlayıb aparsın? görəsən... yox, bu bedəbçilik olar, lazım olsa ağa özü istər.
Bu hadisə Şamanla əlaqədar olmasaydı, Səlidayı heç fikirləşmədən və bir başa ağanın qulluğuna gedəcəkdi. Bir də ki, axşam evdəki danışıqlar və xüsusilə Şamanın ağır davranışı və yanğının əsil səbəbkarının tapılmalı olduğunu düşünməsi Səlidayının ağaya inamını müəyyən qədər də olsa sarsıtmışdı. Hətta belə bir sualı düşünməkdən də çəkinmirdi. «bəlkə Xaliq oğlu haqlıdır? insan çi sud əmib axı». «əgər belə olsa… yox, ola bilməz. Ağa öz malın özü yandırtdırarmı? niyə ola bilməz? olar, lap belə yaxşı da olar. bəyəm Mirzə Məcid öz tayasını yandırtdırıb Bəxtiyar yazığın torpaqlarını əlindən almadımı? bu köpək uşaqlarından nə desən çıxar... İnsaf da yaxşıdır, Hacı Rəfət indiyə kimi belə işləri görməyib axı... Çox da görməyib, əvəzinə pambıqnan başlar kəsib a. Ağaların hamısı bir yuvanın quşudular, bir bezin qırağıdılar. İt tuladan da murdardır. Mənə bax ey, fikrim haralara gedir. Hacı Rəfət nə qədər pis olsa da Mirzə Məcid kimilərin tayı döyü. rəiyyətin qədrini biləndi. Mənim özümə az yaxşılıq edib bəyəm? Otumuz, samanımız çatmayanda ondan nisyə almırıq bəyəm?…».
Səlidayı elə buradaca Güllübəyimın Hacı Rəfət haqqında dediklərini xatırladı: «Kişi, ağluvı başuva yığ, səndən on almasa, bir verməz. Bular yumurtadan yun qırxan adamlardılar. Kasıb-kadaraya yazığı gələn adam döyüllər».

... «Vallah, o üzünə baxanda arvadda da günah yoxdur. Bunlar rəiyyəti adam şotuna qoymurlar. rəiyyət susuzluqdan can verə ağzına bir qaşıq su tökməzlər. İlahi, rəiyyəti niyə belə qara gün yaratdın axı», deyə Səlidayının fikri uzaq illərə getdi: O il Muğanın «Humunnu» kəndində biçirdilər. İsti adamın iliyinə keçirdi. Günəşin istisindən ilan mələyirdi. şərait dözülməz olanda «Balharı»da çimirdilər.
O gün sanki gecə ilə gündüzün heç fərqi yoxmuş. Hələ səhər çağı bir az biçib qalyan altı eləyəndə istidən bişirdilər. Azı dilləndi:
- Bu ilin istisindən Allah özü saxlasın.
Sözünün dalını Xalıq tütdü:
- Allah eləməmiş adam buralarda ölsə meyiti ilan-çəyənin əlində didilər.
Xalıqla suyu bir arxa getməyən Xudaş narahatlığını gizlədə bilmədi:
- Rəhmətliyin oğlu, belə böyük-böyük danışır sanki dirisinin qeydinə qalan var. . .
Polad kişi onun sözünün dalını tütdü:
- Bir üzünə baxanda Xudaş duz deyir. vallah günü bu saat əlin oraq tutmasa, bir tikə yavan çörəyi də əsirgərlər.
Səlidayı «Pulat duz deyir, canuzdan muğayat olun», deyə... Həmişəki tapşırığını təkrar edib kövrək bir ifadə ilə artırdı:
- Allahın kərəminə çox şükür, bizlərin alnımıza da belə yazmışmış... Bismilla, durun, hələ havada ılıqlıq varkən bir az biçəyin.
Bir saat kimi biçdikdən sonra uzaqdan nəsə səs-küy kimi səslər eşidildi. əvvəl vecinə alan olmadı. Lakin getdikcə səs çoxaldı. biçinçilər Balharıya tərəf axışırdı. İki atlı da o tərəfə gedirdi. Səlidayı gil də orağı atıb o tərəfə getməli oldular. Danışıqlardan məlum oldu ki, kimsə Balharıda boğulub. Atlılar artıq çaya yetişib atdan enmişdilər. Çox keçmədən onlar geri döndülər. sual dolu baxışlara Poladdan başqa heç kimin təəccüb etmədiyi bir cavab verdilər: «qayıdın, qayıdın işinizə, ölən biçinçidir», dedilər...
Səlidayı bu xatirəni yadına saldıqda son dərəcə kövərəldi. Toyuqların didib dağıtdığı başaq dərzinin üstündə oturub özündən asılı olmayaraq dedi: «nə qədər bafasız imışsan dünya».
Nəhayət belə bir qərara gəldi ki, ağanın yanına tək getsin. Şamanı çağırdı və«evdə olun gəlirəm», deyib çıxdı...
**
Ağanın evinə bir az qalanda Hacı Tapdıqla rastlaşdı. Salmanı görəndə həmişə qaşqabağını turşudan Hacı Tapdıq bu dəfə pişiyi oğlan doğan adamlar kimi biddıllıt vururdu. Səlidayını salamalayıb artırdı:
- Məşədi, sən niyə narahat olursan? qoy tayası yanan narahat olsun... Ağa səni çağırtdırmaq istəyirdi. Mən qoymadım. «o neynəsin» dedim. «Şaman təqsirkardır dəəə».
Səlidayı tapdığın düz gözünün içinə baxdı:
- Utanmazın biri utanmaz, Şamanın tayası yanıbsa, sənə nə düşüb? bu tezdənnikdə

ağanın şalvarını geydirməyə getmişdin? getdiyin beyt qənimin olsun. Kaftarın biri kaftar. . .
İndiyə kimi Səlidayının ağzından belə sözlər çıxmamışdı. Hacı Tapdıq cavabını qaytarsaydı, qırtlağından tutub boğacaqdı. Beyninin hər bir hüceyrəsi bir ala tülkü qədər bilən tapdıq özünü eşitməzliyə vurub Salmandan ayrıldı.
Ağalığın qapısına yetişəndə nökər eşiyə çıxırdı. Salman onun hara getdiyini soruşmadan içəri girdi.
Hacı Rəfət bir nalça[8] üstündə oturmuşdu. Güya hesab-kitaba yetişirmiş kimi əlindəki qələmi davatdakı çernilə batırıb dəftərdə nəsə yazırdı. Gözləri pırpızlı qaşlarının altında itmişdi. Hacı Tapdıqla danışdıqdan sonra çıxış yolu tapmışdısa da Salmanı necə razı salacağını düşünür və hələ də müəyyən nəticə çıxara bilməmişdi. Ona görə də ürəyində son dərəcə sevinən ağa bir tərəfdən də çıxılmaz bir vəziyyətdə idi. O düşünürdü ki, bu kimi hadisələr hər bir rəiyyətə baş verə bilərdi. Deməli Salman olmasaydı, Şaman ağanın xəsarətini ödəyə bilməyib torpaqlarından əl çəkməli olacaqdı. Amma Salman var idi və altının kilimini belə satıb ağanın xəsarətini ödəyəcəyinə zərrəcə şübhə yox idi. Bəlkə Salmanı heç qəbuluna almasın? yoxsa Şaman haqqında danışmağına icazə verməsin? yaxud da Şamanın torpaqlarını satıram deyib işə bir dəfəlik son qoysun?…
Salmanın gözlənilmədən içəri girməsi onun düşüncəsini elə burdaca qırdı. Salman salam verib ayaq üstə durdu. Həmişə onun əyləşməsinə dərhal icazə verən Hacı Rəfət bu dəfə başını da qaldırmadı. Dəftərin varaqlarını bir az oyan-buyana çevirdikdən sonra tələsmədən qələm davatı yerinə qoyub gözünün ücüyla Salmana baxdı və «hə, Salman xeyir ola bu tezdənnigə?» deyə soruşdu. Bu davranışı ağadan əsla gözləməyən Salman qabaqcadan planlaşdırdığı bütün sözləri unutdu. nəhayət köksünü ötürüb dilləndi:
- ağa... Məni bağışla, özün bilirsən, mən ağanın ovqatına haram qatan rəiyyətlərdən döyülm. . .
Hacı Rəfət Salmanın sözünü kəsdi:
- Yaxşı bilirəm, sən elə adam döyülsən.
Sonra isə özünə danışırmış kimi Salmanın eşidəcəyi bir səslə dedi:
- Bir ildir bütün ovqatıma haram qatıb, hələ üzümə də durur.
Salman, «deyəsən bu xına o xınadan döyül», deyə öz-özünə düşündü və özünü bir təhər ələ alıb dedi:
- Bizdən hansı xəta baş verib ki, ağa bu qədər narahatdır?
- Sizdən nə xəta baş verəcək, Şamanı mənim boğazıma keçirdən sən döyülsən?
Salmanı fikir götürdü. Öz-özünə düşündü: «mən nə üçün gəlmişəm, bu nədən danışır». Son dərəcə sadəlövhlüklə dedi:
- Ağa başına dönüm, səhv eşidibsiz. Şaman taya yandırmayıb, Şamanın tayasın yandırıblar.

[8] Döşəkcə deməkdir.

Hacı Rəfətin səsi müəyyən qədər dəyişildi:
- Salman, aç qulağını, eşit. Mən nə səhv eşidərəm nə səhv başa düşərəm.
- Taya yandıranı da tütmüşüq. Desən bu saat qulluğuna gətirərəm. . .
Hacı Rəfət bir az da sərtləndi:
- Adam tutduran da olubsan? elə bilirsən bilmirəm? oğlun da qoşulub Fəttahnan Şaman kimi dalaqqaylara xalxın uşaqların döyməkləri bəs döyül, nava da yaxırsan?
Salmanın rəngi kül kimi oldu: «demək Hacı Tapdıq öz işini görüb. Gərək əldən buraxmaydım, xırtdəkləyib boğaydım o əclafı» . . .
Hacı Rəfətin amiranə səsi onun bütün götür-qoy elədiyi planları pozdu:
- Burdan düz gedərsən evinə, Ücüynan Nəcini də burax getsin. Güllübəyimin xətiri olmasaydı, sənə də bir gün ağlardım.
Salman heç söz deyə bilmədi. . .
**
Evdə hamı Səlidayını güdürdü. birinci Güllübəyim dilləndi:
- Mən bilirəm, yenə kişini üzdən-gözdən salıb qaytaracaq.
Hirsindən dil-dudağını gəmirən Fəttah özünü saxlaya bilmədi:
- Bir dəli şeytan deyir dur, get gülləni gözünə çax bu yezid oğlu yezidin… günahın hamısı Səlimnən Şamandadı. Qoysaydılar Mirzə Məcidi də Hacı Rəfəti də yerində oturtmuşdum.
Səlim onun sözünü təsdiqlədi:
- İndi də oturda bilərik. . .
Şaman dillənməli oldu:
- Bibi duz deyir, amma bunu da bilməliyik ki, son hökm Səlidayınınkıdır. Onun məsləhəti olmadan heç bir iş görməyəcəyəm. Qaldı ki, mənə. doğrudur, mən özümü günahkar bilirəm. Gərək Yeycəyə gəldiyim kimi də qayıdaydım. . .
Güllübəyim Şamanın sözünü kəsdi:
- Oğul, elə demə. Sən olsan da, olmasan da, bunlar bizim əməyimizi tıxacaq. Oyanına qalanda naümid şeytandı. . .
Birdən qapı açıldı. Salman dinməz-söyləməz keçib həmişəki yerində əylşədi. Ağır və uzun sürən sükutdan canı sıxılan Güllübəyim işin nə yerdə olduğunu duysa da ərinin yazıq görkəminə son dərəcə acıdı. Lakin belə anlarda özünü heç vaxt itirməyən Güllübəyim bir çay süzüb ərinin qabağına qoydu və çox aramla dedi:
- Kişi, dünyanın axırı döyül ki, özünü niyə içindən yeyirsən? hələ bir çay iç. Sonra danış görək nə oldu. Min fikir bir qayğunu ödəməz. Ağıl ağıldan ötgündü. Qoy görək nə eliyəcəyik.
Salman ağzına bir-iki kişmiş qoyub armudu stəkana süzülmüş çayı içdi və dilləndi:
- Durun o vələdəlzinaları buraxın getsinlər. Nə eliyək, əlimizdən heç iş gəlmir. Divan da bulara sarıdır, dərə də… Əclafın biri əclaf ağzımı açmağa qoymadı. Hər nəyi bilir. Tapdıq dinsiz onun beynin doldurub. Deyəsən yaxamızdan əl çəkən

döyül. . .
Güllübəyim son sözünü dedi:
- Pox yeyir, səndən benavasın tapa bilmir nə.
Şaman artıq qərara gəlmişdi. ürəyini onlara açaraq əzmlə dedi:
- Bibi, and olsun bacımın ruhuna əgər sızı ata-anamdan seçsəm. Bu qədər əzab-əziyyəti də mənim ocibatımdan çəkirsiz. Bu gündən belə məni öz başıma buraxın. sizin heç zadnan işiz olmasın...
Bibi nəsə demək istəyirdi, lakin Şaman yerindən dik atılıb evdən çıxdı.
**
Hacı Rəfət nökərini çağırıb Şamanın dalınca göndərmək istəyirdi ki, qapı açıldı və Şaman içəri girdi.
Yekə gövdəli, qollu-qanadlı, atası Xalıqdan da uca boy olan bu gənc Hacı Rəfətin fikrini on səkkiz il bundan əvvələ apardı...
Xırman üstü idi. Güllübəyim xırmanı sahmana salır, korun atrafını süpürüb təmizləyirdi. Ağanı görəndə yaşmağını bərkidib, «axşamın xeyər», dedi. Həmişə kalba iba qızına çox hörmətlə yanaşan ağa onun salamını alıb; «Allah qüvvət versin, bərəkətli olsun», dedi və tapşırıq vermək istədikdə doqquz yaşlı çəlimsiz bir uşaq onlara yaxınlaşdı. Ağadan çəkinməyinə baxmayaraq uca səslə dedi:
- Bibi, itlər dəci pozmaq istəyirdi, qovdum getdilər.
Bibi ana ifadəsilə onun boyunu oxşadı:
- Bibisi boyuna qurban olsun balamın. Axşam gələrsən yağ bəlləsi verərəm.
Hacı Rəfət onun kimlərdən olduğunu soruşduqda Güllübəyim; «nökərin Xalıq qağanın oğludur, Şaman», deyə cavab verdi.
Hacı Rəfət Şamanı çağırıb dedi:
- Zirnəg oğlansan, böyüyəndə səni özümə darğa eləyəciyəm.
Şaman o gündən tay-tüşüna, «böyüyəndə darğa olacağam» deyə fəxr edirdi...
İndi isə həmin çəlimsiz uşağın dəhşətli baxışlarından təhlükə yağırdı. Bütün varlığı həyəcan içində yanırdı. Heç kimə açmadığı son qərarını həyata keçirmək istəyirdi. Əlbəttə bunu da yaxşı bilirdi ki, Hacı Rəfəti öldürməklə heç bir iş düzəlməyəcək, nə ağalıq ləğv olacaq, nə də rəiyyətlərin kefi sazalacaq. Lakin çıxış yolu da yox idi.
Hacı Rəfətə gəldikdə isə o, belə anları çox görmüşdü. rəiyyətlə necə davranmağın müxtəlif yollarını bilirdi. O biri mülkədarların bacara bilmədiklərini Hacı Rəfət bacarırdı. Həmişə hədə-qorxuyla işi qabağa aparmaq olmazdı. O, rəiyyətləri hər bir kiçik hadisənin üstündə döydürüb dustaq etməzdi, onların üzlərinin açılmasına yol verməzdi. Yeri gəldikdə isə rəiyyətlərlə heyvanla davrandığı kimi davranırdı. Hələ on-on beş il bundan əvvəl «Orunc»da kiçik bir mülkədardan üç arpa yer alanda ilk növbədə nökərini göndərib yerlərini aldığı tayfanın ağsaqqalını çağırtdırmışdı. Ağsaqqal içəri girmək həmən o ki, var döydürdükdən sonra əmr etmişdi ertəsi gün bütün rəiyyətlər səhər tezdən xırman yerində olsunlar. Onların üç dördünün boynuna giv qoyub vələ qoşdurmuşdu. Qalanını isə bir cərgə eləyib

səhərdən axşama kimi xırman üstündə dolandırmışdı.
İndi isə artıq şərait tamamilə dəyişmişdi. Xanın, mülkədarın zülmündən canı boğazına yığışan rəiyyətlər əkinçiliyin daşını bir dəfəlik ataraq hətta uzaq şəhərlərə fəhləliyə gedirdilər. doğrudur, bu getmələrin çoxu müsbət nəticə vermir, hətta faciəli şəkildə qurtarırdı. Bir tərəfdən yollarda əmin-amansızlıq hökm sürür, o biri tərəfdən belə adamların işlədiyi mühit çox təhlükəli olurdu, üçüncü tərəfdən isə hər cəhətdən əlverişli olan Bakının yolu bağlanmışdı. Onsuz da erməni qırğınında dörd nəfərin ölməsi oranı Yeycəlilərin gözündən salmışdı. Lakin bütün bunlara baxmayaraq rəiyyətlərə hakim kəsilmiş son dərəcə ağır və acınacaqlı şərait ölümlə ölüm arasındakı məsafəni az qala sıfıra endirmiş və ölüm üçün ölümü seçməyin labüdlüyünü sübut etmişdi. Şaman kimi adamlar təkcə başını götürüb qaçmaqla Kifayətlənmir, heç olmazsa öldürdükdən sonra ölməyi düşünürdülər. Bu da Hacı Rəfət kimi mülkədarların gözündən yayına bilməzdi. O, bütün bunları nəzərə alaraq görkəminə yaraşmayan bir ata ifadəsilə dilləndi:
- Oğul, özünü yemə, taya odlayanın dərisini boğazından çıxartdıracayam...
Hacı Rəfət sözünü burdaca saxladı. Şamanın əksəməlini oxumaq istəyirdi. Şaman isə ağanın belə davranacağını əsla güdmədiyinə görə heç bir mövqe tuta bilmədi. Bu da Hacı Rəfət üçün böyük bir qələbə idi. Sözünü bir az da təmkinlə davam etdirdi:
- Mənə Hacı Rəfət deyərlər, rəiyyətimə kəj baxanın gözünü hadağasından çıxartdıraram...
Bu cümlə ağalara heç vaxt inanmayan Şamanın beynindəki qərarı şübhə çiskinliyinə uğratdı. Hacı Rəfət son oxunu atmalı idi:
- Sənin haqqında deyilənlərin hamısı yalanmış. Bu altı-yeddi ayı başını aşağı salıb işində, gücündə olmusan...
Şamanın sanki buzdan düzəlmiş qərarı əriyib yerə hopdu. Heç bir söz deyə bilmədi. Son qələbəni qazanmış Hacı Rəfət onu yola salmalı oldu:
- Oğul, arxayın get, özüm kömək eləyəcəyəm, əlinə bir-iki mal-heyvan salarsan, gələn il inşallah, ölməsək, qalsaq öküz-araban da olar...
Şaman Hacı Rəfətin evindən çıxanda özünü bərk danlayırdı.

## 0.6 İkinci hissə

kəndin vəziyyəti gərginləşirdi. «oğul, arxayın get, özüm kömək eləyəcəyəm» deyən Hacı Rəfət nəinki kömək etmədi, hələ desən «qarat»dan əlavə cərimə etmək fikrinə də düşdü. Əlbəttə Səlidayının fikrincə həm cəriməni, həm də qaratı biçilmiş otları və xaşa otlaqlarını, dobaraları satıb ödəmək olardı. Amma iş təkcə bununla bitmirdi. Ağızlara belə bir söz də düşmüşdü ki, ağaların əmrilə heç kim Şamandan ot və otlaq almayacaq. Bu da Şamanı çıxılmaz vəziyyətdə qoyurdu. Çünki Səlidayının hətta bir qıranı belə yox idi. Gümanı dörd baş inək, bir-iki dana-duna

və bir cüt öküzə gedirdi. Onlarsız isə o boyda küfləti dolandırmaq olmazdı...
Ağır günlərdə Güllübəyimin məsləhətlərinə güvənən Salman yazıq arvadla nə qədər götür-qoy etdilərsə çıxış yolu tapa bilmədilər....
Şaman isə Səlidayının məsləhəti ilə gündüzlər bir iki tikə çörək yeyərək gecələr tayada yatır, keşik çəkirdi.
Hacı Rəfətə gəldikdə isə ağızlarda gəzən sözlərdən son dərəcə razı olsa da Salmanı ya Şamanı çağırtdırıb nə qarat, nə cərimə haqqında heç nə deməmişdi. Hələ camaatın fikrini öyrənmək istəyirdi. Bu da Salmanı daha da sarsıdır, mürəkkəb vəziyyətdə qoyurdu. Nə edəcəyini bilməyən kişi buzov qarnında ölmüş adama dönmüşdü. Hacı Tapdıqın adamlarının atmacalarına da cavab verməkdən çəkinirdi. Güllübəyim ona bərk tapşıraraq demişdi:
- Naba, naba ağzından bir söz çıxa, Məkkəsi qənim olmuşlar sənin ağzını güdür.
Hacı Tapdıq isə Salmanın sükutunu bir növ məcburi razılıq hesab edir və yeri düşəndə özünü Şamanın torpağının yiyəsi kimi aparırdı. O yəqin edirdi ki, Şamanın nə otunu nə də otlağını alan olmayacaq və onlar hətta yanan dərzlərin qaratını ödəyə bilməyəcəklər.
Şamana gəldikdə isə artıq qabaqkı kimi yalnız Səlidayını güdmür, özü altdan-altdan alıcı axtarırdı.
Yeycədə cəryan edən vəziyyət artıq ətraf kəndlərin danışıq mövzusuna çevrilmişdi. Hamı bilirdi ki, tayanın yandırılmasına Hacı Rəfət özü pişik yolu verib. Buna görə də rəiyyətlərin arasında mülkədarlara nisbət bir növ nifrət hissi formalaşırdı:
- Belə getsə əkinçilik eləmək olmaz.
- Ağa öz rəiyyətini qorumalıdır.
- Şamanın əkinçiliyinə söz olmaz.
Yekəlinin mülkədarı Qulamağa isə yaranmış vəziyyətdən istifadə etmək fikrinə düşdü. Onun Mirzə Məcidlə tarıxı düşmənçiliyi var idi. vaxtı ilə Mirzə Məcidin atası onun atasının «Dovşanbulağı»nda və «Yacılı»da üç arpa yerini mənimsəmişdi. üstəlik «Albulağı»na və «Yeznavand»a da soxulmaq istəyirdi. Hacı Rəfətin isə Yekəlidəki bir arpaya qədərki yerinin ilk taleyi şübhəli idi. O yaxşı bilirdi ki, əlinə düşmüş belə fürsəti itirsə, Hacı Rəfət və Mirzə Məcid onun malikanəsinin sərhədlərini daha da darısqallaşdıracaqlar. Belə bir vəziyyətdə Şamanı və Salmanı himayə etsə bir tərəfdən gücünü göstərmiş olur, o biri tərəfdən isə Yeycə kimi Yekəlidə də ağa-rəiyyət ziddiyyətinin qovur etməsinin qarşısı alınırdı. Qulamağa tarixi bir qərara gələrək «Qulaşoğlu»nu çağırtdırdı.
«Qulaşoğlu» işin nə yerdə olduğunu, nə üçün çağırıldığını bilmirdi. Beynində min bir fikir yaranmışdı. Hər şeydən əvvəl kürdən, otdan, samandan dalayladıqları yadına düşdü. Lakin darğanın yolunu gördüyünə görə ondan arxayın idi. Bəs rəiyyətlər? O
O qədər çoğulluq edən var ki. Yekəlidə Hacı Tapdıq kimilər azdır bəyəm? nə isə fikri çatmadıqda öz-özünə «su gələndə yolun tapar»-deyə düşündü və ağanın qulluğuna getdi.

Qulamağanın birinci sözü «Qulaşoğlu»nu diksindirdi.
- Rəhmətlik Qulaş Yekəlidə mənim sağ əlim idi…
«Qulaşoğlu» eşitdiyinə inanmadı. Axı bu vələdüzzina onun atasının gününü göy əskiə düyünləmişdi.
Qulamağa sözünü davam etdirdi:
- Əlbəttə elə atadan belə də oğul olar!
«Qulaşoğlu» öz-özünə düşündü: «tülkünün biri tülkü gör hələ nə deyir! həmişə məni dələduz adıyla çağırmırdınmı? indi nə olub»?
Qulamağa onun fikrindən nə keçdiyini yaxşı bilirdi. Odur ki, onun lap yaralı yerinə toxundu:
- Neynim, o vaxt mənə desəydin, qoymazdım Hacı Rəfətə bir şahı cərimə verəsən…
Qulamağa bir az ara verdikdən və «Qulaşoğlu»nun marağını gördükdən sonra son sözünü dedi:
- Həmişə ot-ələf yanqısısan, get özüvə iki nəfər yoldaş tap, Şamanın otunu da, otlağını da alın, puluz da olmasa, mən verərəm, heç kim heç qələt eliyə bilməz.
«Qulaşoğlu» əslində Qulamağadan da tez bu fikrə düşmüşdü. Lakin Hacı Rəfətin qadağası çıxış yolunu bağlamışdı. Daha doğrusu bir həftə bundan əvvəl Şaman əlaltı sifariş göndərmiş və ona ot-ələfin qiymətində güzəştə gedəcəyini bildirmişdi. O isə nə hə demişdi nə yox. Odur ki, ağanın bu sözü onu sevindirdi və ürəyində «qisas qiyamətə qalmaz»-deyə ağadan icazə alıb çıxdı və Şamanın ot-ələfini almaq qərarına gəldi. Lakin bunun elə də sadə bir iş olmadığını bilirdi. «ağanın icazəsi olmadan rəiyyətin məhsulunu almaq!» əlbəttə yol verilməz bir iş idi. Çox götür-qoy elədikdən sonra Hacıhəsənxan gilə döndü. Hacıhəsənxan Yekəlinin nüfuzlu adamlarından biri və bəlkə də ən nüfuzlu adamı idi. Təkcə öz kəndlərində deyil Muğanda da tanınırdı. Salman onun qaynı idi. varlı və son dərəcə əliaçıq və qonaq-pərvər bir insan idi. Qapısına gələn əli boş qayıtmazdı. Salmandan əlavə bütün Yeycəlilər Muğanda dolanmaq üçün onun nüfuzundan istifadə edirdilər. Salmana sifariş göndərmişdi ki, düşmən qabağından qaçmasın. Ağaya nə qarat versin nə cərimə ödəsin. Bütün bunları bilən Qulaşoğlu Hacıhəsənxanın da himayəsini qazanmaq istəyirdi. Lakin ona borclu olduğuna və bu borcu yeyib üstündən də bir bardaq su içdiyinə görə yox cavabı eşitmək ehtimalını da nəzərindən yayındırmırdı. Əslinə baxsan Qulaşoğlu belə işlərdən çox görmüşdü. Hələ neçə il bundan qabaq yazın əvvəllərində Güllübəyimin anası Şəhrinənəyə müraciət etmiş və ağlayıb sıtqayaraq «Şəhrinənə, başuva dönüm mənə pul ver beş – altı quzu alım, çöl- bayırda otarım, payızda satım, həm sənin puluvi ödəyim həm də özümə beş on qıran qalsın» demiş və ondan bir az siyirmişdi. payız gəlir quzular toğlu olur. Qulaşoğlu onları satır, amma heç Yeycənin həndəvərinə belə dolanmır. Şəhrinənəyə deyəndə ki, Qulaşoğluna sifariş göndər puluvi gətirsin ürəyi nanə yarpağı kimi əsən bu rəhmdil və sadə arvad yalnız «sizi Allah dinməyin, pulu olanda gətirib verər» deməklə kifayətlənmişdi. Bir iki ay ondan sonra Şəhrinənə yorğan döşəyə düşüb dünyasını dəyişir. Yasına Qulaşoğlu da gəlir. Qulaşoğlu

yaxasın açır, baş- gözünə əl qatır: «ay Şəhrinənə, niyə öldün, bizi yetim qoydun» deyir və hönkür-hönkür ağlayır. Arada da «hələ deyin görüm Şəhrinənəm dilli öldü, dilsiz?» deyə soruşur. Axırda deyirlər ki, dilli öldü, özü də dedi ki, sənin bebeylə borcun var. Qulaşoğlu, «yox siz bilmirsiz, ağlı başında döyümüş» deyə cavab verir və ağlayırdı. Sonralar, illər ötdükdən sonra Hacıhəsənxan bu mövzünü danışır və ucadan gülürdü.
Qulaşoğlu içəri girmək həmən Hacıhəsənxan dedi:
-Hələ de görüm Şəhrinənə dilli öldü, dilsiz?
Qulaşoğlu həmişəki sözü dedi:
-Hacı vallah əlim boşdu, sənin də xəcalətindən çıxacağam.
Sonra nə üçün gəldiyini danışdı.
Hacıhəsənxan dedi:
-Ədə qorxan ölüb, qorxma mən dalunda varam, özü də de ki, otu Həsənxana alıram.
Qulaşoğlu bu macəranı heç kimə bildirməmişdi. Çünki Hacı Rəfətin adamları onu qorxudaraq öz fikrindən yayındıra bilərdilər. Hətta evdə onun son dərəcə sevindiyini görən arvadının «kişi, pişiyin oğlan doğub, nədi, bu qədər şıqqı vurursan?» deyə soruşanda da «bizə sevinmək haramdı bəyəm?» deyə qeyri-adi bir cavab vermişdi...
**
Şəhrivərin son günləri idi. payız əkini başlanırdı. Hacı Rəfətin Şamana təyin etdiyi «cərimə vermə» və «qarat ödəmə» möhəlti payızın əvvəlində başa çatırdı. Səlidayı çıxılmaz vəziyyətdə idi. Şaman bu müddət ərzində onu ödəyə bilməsə torpaq əlindən çıxacaq və o məbləği ödəyənin ixtiyarına veriləcəkdi. Hacı Tapdıqla Hacı Taran isə onu ödəməyə hazır olduqlarını ağaya bildirmişdilər. Salman kişi yenə də öz ömürgün yoldaşı Güllübəyimə sığınmalı oldu. Axşam hamı yatışdıqdan sonra ər-arvad bu işi götür-qoy eləməyə başladılar. Salman ağzına bir-iki kişmiş atıb isti çaydan xorultuyla iki qurtum içdikdən sonra dedi:
-Arvad, mən nə qədər götür-qoy edirəmsə ağlım bir yerə çatmır, umudumu lap itirmişəm.
Güllübəyim, «kişi, naümid şeytandı» dedi və sözünü davam etdirmək istədikdə itlər hürüşdü və qapı çalındı. Hər ikisi bir-birinin üzünə baxdılar. Salman özü durub qapını açdı və Şamanı gördükdə son dərəcə təəccübləndi. Onun boy-buxununu xeyli süzdükdən sonra boynunu qucaqlayıb üz-gözünü öpdü.
Hər ikisi evə girdilər. Bibi onlara yer göstərdi. Səlidayı həmişəki yerində nalçanın üstündə oturdu. Şaman isə Səlidayının sağ tərəfində əlindəki torbanı böyrünə qoyub kilim üstə əyləşdi. Güllübəyim Şamana bir stəkan çay süzdü və xoş-beş eləməyə başladı. Söz əkinə və Şamanın torpaqlarına gəldikdə onlar gözlərini yerə dikdilər. Deyəcək bir sözləri olmadığına görə Şaman dilləndi:
-Səlidayı düzün xəbər alsan o torpaqların mənə elə də əhəmiyyəti yoxdur. Amma Hacı Tapdıqların əlinə düşməsini də özümə sığışdıra bilmirəm.

Güllübəyim Salmandan qabaq dilləndi:
-Bala, Hacı Tapdıqların niyə əlinə düşür? altımızın palazın satıb cərimәni – qaratı ödərik...
Salman arvadının sözünü kəsdi:
-Hacıtapdığı qoymaram it baxannan baxa. Amma, iki iş var, bir əməl...
Şaman öz adətinin xəlafına olaraq, həm də Səlidayını çıxılmaz vəziyyətdə görüb onun sözünü kəsməli oldu:
-Səlidayı bunların hamısının fikrini eləmişəm. Qaratın, cərimənin də pulun gətirmişəm. Ot-əlfi Qulaşoğluna satıb pulun almışam. Bax, buda, torbada. Amma bilirəm ki, bunu ödədikdən sonra da Hacı Rəfət o torpaqları mənə verməz. Bir də var ki, bura düşmən qabağıdır. Mənə qalsa düşmən qabağından qaça bilmərəm...
Salman başı ilə onun sözlərinin hamısını təsdiq etsə də çıxış yolu tapa bilmirdi:
-Bəs nə eliyək?
Şaman dərhal cavab verdi:
-İki keçər, üç deyən günü bu pulu apar pirətməlikdə ver Hacı Rəfətə, deginən, Şamanın torpaqlarını mən özüm əkirəm.
Salman dərin bir fikrə getdikdən və işin oyan-buyanın götür qoy elədikdən sonra qəbul etdi...
Ertəsi gün Yekəlidən üç araba gəldi və min bağdan ibarət həvədürə və peşədürəni daşıdı. Salman uçuq divar üstə oturub ot bağlarının sayılmasına nəzarət edirdi. Demək olardı ki, əhalının hamısı oradaydı. Xanverdi oğlu Əvəz gəldi Səlidayının yanında oturdu. Onun baxışlarından maraq yağırdı. Ağa nökəri orada olsaydı, heç sual yeri yox idi. Daha doğrusu ağanın satdığı otu onun nökəri təhvil verirdi. Fikirləşədi ki, yəqin Şaman gizlicə Səlidayıya tapşırıb. Səlidayı isə ağadan gizli bu işi görə bilməzdi. Bəlkə Səlidayı ağaynan «curlaşıb»? axı bilmək olmaz ki, necə deyərlər, insan çiy sud əmib! qovluğunu və çubuğunu çıxardıb tutunla doldurub yandırdı və arası kəsilmədən öskürə-öskürə Salmana döndü:
-Məşədi, ağanın xəbəri var?
-Cəhənnəmə xəbəri olsun gorun lap belə dibinə! biri otun satır, ağaya xəbər verməlidir bəyəm? onda ağaya deyib çubuq çəkirsən?
Araya sükut çökdü.
Salman fikrə getdi. İşin o qədər də sadə olmadığını düşündü. doğrudur. Hacı Rəfət pirətməlikdəki hücrəsindədir. Amma bu xəbər ən çoxu dörd gün ərzində ona çatar və istəsə Salmanın üzərinə əmniyyə də göndərə bilər. Özü demişkən ağaynan ağalıq eləmək olmaz ki. arvadı Güllübəyim demişkən bəzi məqamlarda adam dovşanı araba ilə tutmağı bacarmalıdır. Ağa əsl macəranı bilsə onun öz torpaqlarını da əlindən alar... Birdən Xanverdi Oğluna döndü:
- Əşi, gəl əyri oturaq, duz danışaq. Şamanın yerin kim sürüb? mən. kim əkib? mən. kim suvarıb? mən. kim biçib? kim daşıyb? mən...
Salman sözünə ara verdi. Xanverdi oğlu hər bir sualin cavabını başı ilə təsdiq etdikdən sonra sözünü davam etdirdi:

-Başına dönüm. İndi əkib becərdiyim məhsulu, bəhrəsini verdikdən sonra satmışam. Buna icazə istər bəyəm?
-Bəs camaata nə deyəcəksən. Hamı bunu Şamanın otu bilir. Özün deyirdin Şamanın bir çöpündə də gözüm yoxdur...
-Camaata nə düşüb? qoy Şaman desin dəəə.
- Deməк Hacıtapdığın dadaşa dediyi sözlər düz çıxır. Sənin də ağzın qana batdı...
Bir saatın ərzində ağızlarda belə bir söz gəzirdi: Salman Şamanın torpaqların mənimsəyib...

## 0.7 Üçüncü hissə

Azər ayının solğun günəşi Güllübəyim demişkən çıxmamış batanda qarabayır dağlarının dibində Kahralan arxının üstü ilə üç atlı gedirdi. Onlar Mollabaşı kəndinə yaxınlaşanda Gözəlaxunduya döndülər. Atları suvardıqdan sonra yem torbalarını tərkdən açıb onların boyunlarına saldılar. Özləri isə bulaq suyundan içdilər. Sonra şehli çəmən üstündə oturub heybədən pendir çörək çıxarıb yeməyə başladılar. Onlara başçılıq edən atlı bir papirus eşib dedi:
-Hə Abasqulu, de görək Kahralana gedə bilərik yoxsa Mollabaşıda gecələməli olacayıq?
Abasqulu son dərəcə ehtirasla çeynədiyi pendir çörəyi bir dəfə də ağzında dolandırıb uddu və dedi:
-Kahralana cəmi bir saatlıq yolumuz qalır. Gecəni burada qalsaq da sabah axşama kimi vaxtımızı çöl- bayırda sovuşdurmalı olacağıq. Məhəmmədvənd özü də yarı qaçaq dolanır axı. Gündüz onu tapmaq çətindir.
Başçı, «tamamilə haqlısan»- deyə onun sözünü təsdiq etdi və amiranə bir ifadə ilə dedi:
-Yubanmağa gəlməz, durun gedəyin.
Mehrivanda Qasımxan dəstəsindən bunlara qoşulan bələdçi qabağa düşdü. Onlar arx üstü getməyə başladılar. Gülmuğanla Ərdəbil arasındakı Daşkörpünü və Ceyral yolunu keçib sağa yönəldilər və Kahralan yoluna çıxanda artıq Ərdəbil arxada qalmışdı. Gündüz olsaydı Şeyxin günbəzini görmək olardı....
Məhəmmədvənd Kahralanın varlı adamlarından biri, həm də məntəqədə soyadıyla deyilən yeganə adam idi. O, kənd məktəbini bitirdikdən sonra Tehrana getmişdi və orada orta məktəbdə oxumuşdu. Çox zəkalı və bacarıqlı bir gənc olan Məhəmmədvənd Tehranda ziyalılarla əlaqə yaratmış və dünyanın gedişatı ilə tanış olmuşdu. Həmişə yoxsulluğun aradan qaldırılmasını və yoxsulların ağ günə çıxmasını düşünürdü. Bəzən fikirləşirdi ki, kəndlilər birləşib mülkədarları aradan aparsalar hər şey düzələr! yəqin ki, əmniyyələr də, hökümət də kəndlilərin tərəfini saxlar! reallıq isə tam əksinə idi. Hökümət və əmniyyələr həmişə mülkədarları himayə edir və daha doğrusu onların atlıları kimi çıxış edirdi. Tehranda isə

yeni və qəribə sözlər eşidirdi. Hökümət və onun başında duran şahın özü ən böyük mülkədar idi. Mübarizənin iki hissədən, daha doğrusu iki mərhələdən ibarət olduğunu da Tehranda eşitdi. Mülkədara qarşı mübarizə, bəhrəni azaltmaq və mülkədarı digər güzəştlərə vadar etmək sinfi mübarizədir. Əmniyyələrin isə bu işə qarışması və kəndlilərin onlara qarşı da mübarizə aparmalı olduqları mübarizəni artıq siyasiləşdirirdi. Demək sinfi mübarizə mahiyyətcə siyasi mübarizədir. Bu ümumiləşdirmə onun fikrində dönüş nöqtəsi yaratdı. Beləliklə Tehranda nə inki mübarizənin sinfi və siyasi cəhətlərini öyrəndi, üstəlik bunu da bildi ki, sərmayədarın qazancı hesab edilən əlavə dəyərin də əsil yaradıcısı fəhlə sinfidir. O istehsal prosesinin ümumi xarakter daşıdığını, məhsulun paylanmasının isə fərdi xarakter daşıdığını və bu ziddiyyətin istehsal vasitələrinin mülkiyyətindən irəli gəldiyini də Tehran ziyalılarından öyrəndi. Əlbəttə bütün bunlar Tehranın təhlükəsizlik qüvvələrinin gözündən yayınmamışdı və yayına da bilməzdi. Onun siyasi fəaliyyətinə dair hazırladıqları dosyanın bir üzü, onların öz dililə desk runeveşti Ərdəbilə göndərilmişdir. Məhəmmədvənd bunu bir gün nayibsədirlə mübahisə edərkən başa düşmüşdü. Nayibsədir ona istehzalı tərzdə «elə bilirsən Tehrandakı işlərinizdən xəbərimiz yoxdu?» demişdi. Bu sözlə də Məhəmmədvənd sanki min illik arxayınlıq yuxusundan ayılmışdı və bir növ yarı gizli fəaliyyətə keçmişdi.
Məhəmmədvəndin evi Kahralanın şərq ucqarında yerləşirdi. Gərmicdən amanda qalsa da meh həmişə o evi döyəcləyirdi. O dövrün əyanları arasında modda olduğu kimi armud, söyüd və qara ağacla dolu olan yekə bir həyətdən keçir və binaya daxil olurdun. binanın özü bir otaqdan, bir tənəbidən, sandıqxanadan və əlbəttə bir mətbəx və bir tövlədən ibarət idi.
Məhəmmədvəndin tapşırığı ilə həyət qapısının arxasında qonaqları güdən nökər qapını açdı. qonaqları içəri ötürüb özü atları tövləyə apardı. Yəhərlərini alıb, yemlədi və dərhal evə döndü. Qonaqlara çay süzdü və Məhəmmədvəndin işarəsilə otaqdan çıxdı.
Məhəmmədvənd Şamanı başçıya təqdim edərək dedi:
-Dediyim Şaman budur. Yeycəlidir. Ağaların qəzəbinə düçar olanlardan biridir. Beş il tamam Muğanda sürgündə olub. İndi isə demək olar ki, yarıqaçaqdır. Savadı olmasa da çox ayıq, bacarıqlı və huşlu adamdır...
Başçı Şamanın əlini sıxıb «Azərbaycanda belə qoçaqlar çoxdur» deyə artırdı:
-Koroğlusu, Qaçaqnəbisi, Babəki, Cavanşiri olan bir xalq hər dövrdə öz qəhrəmanlarını da yetirir. Afərin belə oğullara, Şaman kimi igidlərə.
Başçı sözünə bir az ara verdikdən sonra əslində Məhəmmədvəndə xitaba dedi:
-Bildiyiniz kimi artıq Azərbaycanın bir çox kəndlərində mülkədarlara qarşı mübarizə formalaşmaqdadır. Ərdəbilin Səmyan kəndində, Niyarda, Sərbənddə, Təbrizin Şişəvanında, Sarabın Mehrivan kəndində və bir sıra digər kəndlərdə silahlı dəstələr də yaranmışdır. Bax bu ağa (Abasquluya işarə etdi) Mehrivandakı Qasımxan dəstəsindəndir. Bu aranı ovucunun içi kimi tanıyır. Son dərəcə cəld bir adamdır. Gülləsi yan keçməz. Yayın qızmar günəşi, qışın qarı- küləyi onu sarsıtmamışdır.

Mülkədarlar ondan it kimi qorxur... Amma bütün bunlara baxmayaraq mübarizəmizdə böyük bir çatışmazlıq da vardır. Mübarizlərin və mübarizə aparan dəstələrin arasında hələ əlaqə yoxdur. Atalar demişkən tək əldən səs çıxmaz. Birləşib vahid bir cərgə üzrə mübarizəyə keçməsək əlbəttə lazimi nəticə ala bilməyəcəyik...
Onun dediklərini Məhəmmədvənd başı ilə təsdiqləyir və Şamana işarə etməklə bu sözlərin əhəmiyyətli olduğunu vurğulayırdı.
Başçı, sözünü davam etdirdi:
-Mülkədarların istismar etdiyi kəndlilərin sərmayədarların istismar etdiyi şəhərli fəhlələrlə əlaqəsi demək olar ki, hələ başlanğıc mərhələsindədir. Nə qədər bu əlaqə öz həqiqi yerini tapmayıb, mübarizənin nəticəyə çatmasına ümid eləmək olmaz. Odur ki, mülkədarla mübarizədə sabit qədəm olduğunu sübut edən və yarı qaçaq dolanan adamları həm mülkədar-əmniyyə amansızlığından qurumaq, həm də onları fəhlə həyatı və fəhlə mübarizsi ilə tanış eləmək üçün kənd mühitindən çıxarıb şəhər mühitinə aparmaq və müvəqqəti işlə təmin eləmək qərarına gəlmişik. Şamanı da özümüzlə Təbrizə aparacayıq.
Başçı sonra Şamana dönüb onun öz kəndləri haqqında bir az izahat verməsini istədi.
Şaman kənddə bir il ərzində baş verənləri bütün təfərrüatı ilə danışdı. Fəttahın tüfəngdən istifadə etmək istədiyini danışanda Abasqulu hamıdan çox maraqlanırdı. Onlar bir saat yatıb gözlərinin acısını dərdikdən sonra hava işıqlanmamış Təbrizə yola düşməli idilər...

## 0.8 Dördüncü hissə

Kənddə qəribə bir əhval-ruhiyyə yaranmışdı. Bir tərəfdən hamı Salmanı heç kimin bir çöpündə belə gözü olmayan, hamıya həmi duran bir adam kimi tanıyır. Digər tərəfdən isə Hacı Tapdıq demişkən «görükən kəndə nə bələdçi» Şamanın torpağına yiyəliklənmişdi.
Bir gün Xanverdi oğlu Əvəz çayxananın qərb divarının daldasında oturmuşdu. Axşamçağının solğun günəşi onun üz-gözünü sığallayır, canına hopurdu. Dadaş gəlib onun yanında səkiyə oturdu və adəti üzrə çəliyini dizlərinin üstünə qoydu. Xanverdi oğlu yallah deyə onu salamladı və kefini soruşdu. Bir az sükutdan sonra sözü açsın deyə dilləndi:
-Əşi, dünyanın işinə bax ey? yayda günəşdən zəhləmiz gedir, o isə batmaq istəmir. İndi... Bu canı yanmış indi lazimdi. İndi də çıxmamış batır. Adamın canı qızmır.
Dadaşın dərdi deşildi:
-Doğru deyirsən. Adam lap darıxır. Səhərdən axşama evdə oturmaq olur? evdən çıxırsan da ki, çöl-bayır yoxdur. Hara gedəsən? bir çayxana qalır, bir də zığı dizə çıxan təngələr. Çayxanada da adam hövsələdən çıxır. Onun bunun sözündən savayı danışmağa heç zad yoxdur.

-Niyə yoxdur... Doğurdan, sən bu Salmandan nə başa düşürsən? axı o belə adam döyüdü...
Dadaş artıq Xanverdi oğlunun sözlərinin davamını eşitmirdi. Xəyalı dörd- beş ay qabağa qayıtmışdı...
«Xordad ayının axşamçağılarının birində Hacı Tapdıqla kövşəndən gələrkən aralarında gedən danışığı xatırladı...
«- Hə, sən nə deyirsən, bundan əkinçi çıxar?
- Vallah nə deyim? hələ ki, başın salıb aşağı işin görür.
- Bəli, necə deyirsən elədir, başın salıb aşağı işin görür. Ay gördü ha.
- Bir təhər danışırsan ey, nə olub?
Hacı Tapdıq tasakısını qaldırıb dazını qaşıdı və dedi:
- Nə olub? hələ buna bax, əkinçilik tək yeri şumlamaq döyül ki. Sabah bunun biçini var, xırmanı var. Salman buna biçin biçəcək, xırman döyəcək? ay döydü ha. yox , mən ovucumun içi kimi bilirəm, Şaman axırda yorulub yolda qalacaq, onda deyəcəyəm: toyundu, ordu qırxıq. Salman da yavaş-yavaş o torpaqların hamısına yiyə duracaq.
Dadaş sadəlövhcəsinə dilləndi:
- Axı ay Hacı, Salman elə adam döyül, istəsəydi neçə-neçə belə torpaqlara yiyələnə bilərdi. O kişi sağır həbibənin yerin əkdi, becərdi, bir zərrə də o torpaqlarda gözü olmadı…
Sonra isə yarı zarafat yarı ciddi artırdı:
-Salman olmasaydı, bura öz aramızdır a, sənin kimilər indiyə kimi qoymamışdı yetim-yesir əlində bir hövgəl torpaq qalsın. Zarafat eləyirəm, özüvə alma Hacı Tapdıq. Sözüm budur ki, Salman elə adamlardan döyül.
Əslində Hacı Tapdıq dadaşın dediklərinin hamısını bilirdi. O, yaxşı bilirdi ki, Salmanın gözü üstündə olan adamın torpağına xor baxmaq olmaz. Amma bu sözlərlə dadaş kimiləri onun haqqında şübhəyə salmaq istəyirdi. Birdən dayanıb bir əlini dadaşın çiyninə qoydu və o biri əlilə bir uşağı başa salırmış kimi dedi:
- Ay kalın biri kal, ay qoyma ağıl, dünya malın nə bilirsən? yüz Salman kimini yoldan çıxardar. Sən bu eytimi nə tanıyırsan, Şamanı deyirəm. ondan əkinçi çıxar? onun künəsi bir yerdə bənd olası döyül. Bu gün-sabah yenə bir pox çıxardacaq, ondan qaçaq düşəcək. İndi de görüm o qaçaq düşəndən sonra torpaqları kimə qalacaq? bacısının pısmadələsinə? bəli, ad onun olacaq, amma əslinə baxsan Salman onların hamısın qarmalayacaq, sənlə mən gendən baxanıq.
Dadaş sadəlövhlüyündən əl çəkmədi:
- Tutaq lap elə sən deyən oldu, Şamanın torpaqları qaldı Salmana, bunun nə eybi var? biz ki, o kişidən xeyirdən savayı bir şey görməmişik, hələ üstəlik əyir-əsgigimiz də olanda onun üstünə qaçırıq…
Hacı Tapdıq onun sözünü kəsdi:
- Ay yazıq, hələ duza gedirsən. Təkəm gedib mərəndə, tamaşadı gələndə. Qoy Salmanın ağzı qana dəysin, onda bilərsən nə var nə yox, burnuvun üstünə elə odlu

kosov bassın ha... yox sən belə şeyləri bilməzsən. Mənə bax ey, gör kiminən danışıram.
Dadaş axmaqcasına başını tovlayıb,
- Nə bilim, bəlkə də sən doğru deyirsən, insan çi sud əmib...»
Dadaş öz- özünə danışırmış kimi pıçıltıya oxşar bir səslə dedi:
- Görünür Hacı Tapdıq düz deyirmiş!
Xanverdi oğlu isə «nədənsə mən inana bilmirəm»- deyib artırdı:
- Gəl çayxanada bir – iki stəkan çay içək.
Onlar dükana girmək istədikdə Rəhmətlə Azını gördülər. Geyinib keçinmiş, əllərində ağac Gilan yoluna tərəf gedirdilər. Əvəz onların vaxtsız kənddən çıxmasını görüb, «iki qardaş hara belə?» -deyə soruşdu. Rəhmət cavab verdi:
- Ay Əvəz, axı Sədullah gəlib çıxmayıb.
- Hara getmişdi ki?
- Dəvələri qarasu qırağına otarmağa aparıb.
Əvəz bir az fikirləşdikdən sonra dedi:
- Bir az dayanın mən də siznən gəlim.
Üç, dörd nəfər də onlara qoşuldu və Qarasuya tərəf getdilər. Qarasuya yaxınlaşanda dəvələri gördülər. Rəhmət dəvələri görmək həmən «amandı, nər qızıb, onlara yaxınlaşmayın» dedi. Bir az da getdikdən sonra Qaramaarxının içindən zarıltı səsi eşidildi. Əvəz sürətlə arxa tərəf getdi. Sədullanın əl-ayağını bağlayıb arxın içinə yıxmışdılar. Əvəz tələsə-tələsə onun əl-ayağını açdı. Rəhmət özünü yetirdi. Qardaşının boynunu qucaqlayıb ağladı. Sədullanı o ki var əzmişdilər. Dəvəni aparmaq istədikdə isə qızan nər onlara könd verməmişdi. Quldurların əlləri boşa çıxmışdı və kənddən adamların gəldiyini görüb əkilmişdilər.
Bir ay neçə gün ondan sonra Kalbaalı gilin vanasını yarıb iyirmi iki dənə qoyunlarını aparmışdılar. O gecə obaşdandan yağmağa başlayan güclü qar onların izini tamam itirmişdi.
Səlidayı bunun qeyri-adi oğurluq olduğunu desə də, həmişə payızın və qışın uzun gecələrində belə hadisələrin baş verməsi onun sözünə inanmağı son dərəcə çətinləşdirirdi. Buna görə də hamı bir-birinə yalnız «ayıq yatın, ayıq olun»- deyə tapşırırdı.
Ertəsi gün quldurlar Yekəliyə soxuldular. Onların əsas məqsədi Həsənxan idi. Onunla haqq hesab çürütmək və əlbəttə var dövlətini də talamaq istəyirdilər. Balıqlının qərb sahilində şoran yastanlığında yurd salmışdılar və əlverişli şəraiti güdürdülər. Həsənxan adəti üzrə gecələr pəncərə qabağında yatır və berno tüfəngini də yastığının dalına qoyurdu. Çıqqıltı oldumu yerindən dik atılır, tüfəngini götürüb hazır vəziyyətdə dayanırdı. Bir şey olmadıqda isə yenidən yatağına uzanır və yatırdı. Gecələrin birində itlər hürüşdü. Həsənxan nə qədər güddüsə itlər sakitləşmədi. Adama hürdükləri bəlli idi. Yerindən durub geyindi. Nökərlərə və oğlanlarına sayıq olmalarını tapşıraraq hazır vəziyyətdə dayanmalarını əmr etdi. Quldurların biri uca hasardan dırmanıb həyətə aşmaq istədi. İkisi hasarın üstə o birinin qollarından tu-

tub divardan sallamışdılar. Həyətdəki itlər yeyib tökürdülər. Birdən Həsənxanın səsi eşidildi:
- Əyə, tanıyıram ha, mənə Həsənxan deyərlər, əliniz bir şey tutmaz, gəldiyiz kimi də qayıdın.
Sonra tüfəngi qarışdırıb gülləni xəzinəyə verdi. Barmağını qorxuluğun üzərindən götürüb tətiə sövkədi. Sallanan quldurun sağ qıçını nişan aldı. Tüfəng açıldı və quldur inildədi. Həsənxanın ikinci xəbrdarlığı daha sərt oldu:
-Anavun xoruzu ölsün. İkinci gülləni ürəyinin başına vuracağam...
Quldurlar yoldaşlarını götürüb getdilər. Hava işıqlandıqdan sonra qanın izini hamı gördü. Artıq bütün kənd bilirdi ki, necə deyərlər bu xına o xınadan deyil. Həsənxandan asanlıqla əl çəkməyəcəklər.
Əlbəttə xanların və bəylərin arasında ixtilaf, hətta atışmalar da olurdu və bu ixtilafların çoxu rəqabətdən irəli gəlir və onlar öz güclərini sınayırdılar. Mülkədarlar da bir çox hallarda xanlara və onların atlılarına arxalanır, lazım gəldikdə onların himayəsindən də yararlanırdılar. Buna görə də xanlarla mülkədarlar arasında həll olunmaz bir ziddiyyət olmazdı. Hətta mülkədar xan olanlar da var idi. Lakin mülkədarlarla xanların arasında böyük bir fərq var idi. Mülkədarlar son dərəcə mürtəce olur. Məktəbə, yazıb oxumağa və ümumiyyətlə savadlı olmağa barışmaz düşmən idilər. Sözü düşəndə «yazıb oxumaq kəndlilərin nəyinə gərəkdir? yer əkmək, mal saxlamaq savad istəyir bəyəm?» deyə öz münasibətlərini bildirirdilər. Xanlar və bəylər isə belə deyildi. Onlar hətta qızlarını məktəbə qoyur və ən azı Quran oxumağı öyrənmələrini istəyirdilər.
Həsənxana gəldikdə isə o, tamamilə fərqli bir adam idi. Mülkədarlardan zəhləsi gedirdi. Mülkədarlardan və əmniyyələrdən asılılığı istəməzdi. «insan bir dəfə gəlib, bir dəfə də gedəcək, kişi kimi yaşamaq lazımdır» deyirdi. Onun bir sözü kəndin əzbəri idi: «neynim, arvadı qoyalar Savalanın kəlləsində, evlənmək istəyən ora çıxmalı ola, hər yetən evlənir, mən kişiyəm deyir».
Savalanı öz vüqarına, ucalığına, sərt qayalarına görə sevir və «sultan savalan haqqı» deyə ona and içirdi. Öz yaylaqlarının bütün yaylaqlardan uca yerdə olduğuna fəxr edirdi.
Ara-bərə bir az sakitləşdikdən sonra malqaranı ildəki kimi Muğana, qışlağa göndərmək qərarına gəldi. Oğlanlarının dördünü çobanlarla birlikdə Muğana göndərdi. Onlar Həsənxanın tapşırığı ilə həmişəki yolla deyil, Sünnüyolu ilə gedib Yeycəlilərin saldığı qarasu körpüsündən keçərək Albulağı, Yeznavand, Lorun və nəhayət Rəzey ilə Germiyə, sonra isə Qızqalasına getmək istəyirdilər.
Payızın dumanlı gecələrinin birində işıqlanmağa xeyli qalmış kənddən çıxdılar. Göz, gözü görmürdü. Qarasu körpüsünü keçdikdən sonra bir az arxayınlaşdılar. Hava işıqlanırdı. Ərşənin payız otu yavaş-yavaş qoyun-quzunu və mal-heyvanı özünə cəlb edirdi. Bundan sonra onlar sürünü və naxırı gündüzlər otara-otara aparacaq gecələr isə əlverişli bir yerdə oturaq edəcək, dincələcəkdilər. Axşamçağı Rəzeyin yaxınlığında geniş bir dərədə oturaq elədilər. Gecə yarısı itlər hürüşdü.

Çoban itlərinin neçə cür hürməsi var idi. Qurd-quşa hürəndə əslində onları xəbrdar edirdilər. Oğru-moğruya, adama hürəndə isə öz yiyələrini xəbrdar edirdilər. Həsənxanın böyük oğlu Sadatxan yoxudan ayılıb itlərin hürmələrinə bir az qulaq verdikdən sonra o biri qardaşlarını və yatan nökərləri oyadıb itlərin adama hürdüklərini xatırlatdı və tez olun, yerinizi bərkidin deyə əmr etdi. Lakin iş-işdən keçmişdi bunlar yerlərindən qalxmamış quldurlardan birinin səsi eşidildi:
- Əyə, mal-heyvan kimindi?
Sadatxan, uca səslə və bir həftə bundan qabaqkı hadisəni unudaraq «Həsənxanındır» deyə cavab verdi. Quldurlar sürətlə alaçığı mühasirəyə aldılar. Həmin quldur bu dəfə amiranə bir tərzlə dedi:
- Tərpənsöz qanız öz ayağuzadır. Bizə Həsənxanın özü lazımdır. Sizlə işimiz yoxdur.
Onlar dərhal alaçığa soxuldular. Onların tüfəngini aldılar, lakin Həsənxanı görmədilər. Yanaşı alaçıqda qadınların içində gizləndiyini zən etdilər. Quldurların başçısı istehzalı sözlər deməyə başladı:
-Çıx çölə əclafın biri əclaf, arvadın tumanında gizlənirsən?
Həsənxanın ikinci arvadı Kahrı alaçıqdan çıxıb quldurun duz gözünün içinə tüpürdü və «əclaf sənin kimi yol kəsəndir. İtil gözümün qabağından vələdüzna»- deyə əlindəki oxluvla quldurun üstünə cumdu. Quldur geri çəkilməli oldu. Onlar tüfəngləri götürüb erkəklərdən dördünü ayırıb apardılar. Sadatxan kiçik qardaşı Ayazı atasından məsləhət almaq üçün dərhal Yekəlyiə göndərdi.
Axşamçağı idi. Təngələrdən əl-ayaq kəsilirdi. Həsənxan dirsəyini yastığa verib pəncərədən bayıra baxır və nəsə fikirləşirdi. Qapı açıldı və Ayaz evə girdi. Həsənxan nəsə bir hadisə baş verdiyini duydu və «ədə, nə olub, niyə qayıtdın?»- deyə soruşdu. oğlan dedi:
- Peti[9], quldurlar qabağımızı kəsdi...
Həsənxan onun sözünü kəsdi:
- De danış görüm nə oldu? arvad kimi niyə əsirsən...
Birinci arvadı Nazlıbəyim ərinin sözünü kəsməli oldu:
- Kişi, aman ver qoy uşaq töşkünü dərsin barı.
Oğlan bir az cəsarətlənib macəranı bütün təfərrüatı ilə danışdı. Həsənxan köksünü ötürüb dedi:
- Bax o Kahralan qızı sızdən qeyrətlidir. Halal olsun onun əmdiyi sud. rəhmət onu əkib, doğana. Yaxşı otur görüm nə eləməliyik? erkəklər başuzun sadağası, it aparan olsun. Amma tüfəngləri gərək verməydiz. Tüfəngi itirdinmi olursan düşmənin kəbinsiz arvadı. Əlindən heç iş gəlməz. Amma atalar demişkən yüz fikir bir qığunu ödəməz. Onlar məni təkləmək istəyirdilər. Təklədilər də. Nə oğlanlarım yanımdadır. Nə də nökərlərin canadəyənləri. biri burdadır ki, o da əl-ayağımza dolaşmasın, qalanı özünə peşkaş...

[9]Onlar atalarına peti deyirdilər. Peti qədim türk dilində böyük, başçı, sultan, hörmətli deməkdir.

Sonra götür-qoy edib xeyli fikirləşdi və oğluna döndü:
- Tez ol, bir iki tikə yeyib iç, qayıt. Qar külək tutsa heyvanların hamısı tələf olar. Onları tezliklə qızqalasına yetirin. Avatbəyə deyin ki, Həsənxan arvad uşaqlarını sənə üspurd olur.
Həsənxan oğlunu yola saldıqdan bir saat sonra Şaysəvən atlıları kəndə soxuldu və Həsənxanı tutub o ki var döydülər.
**
Yeycədə vəziyyət get-gedə gərginləşirdi. Şamanın torpaqlarının taleyi əhali arasındakı birliyi sarsıtmışdı. Söz Salmandan düşəndə fikirlər haçalanır, kimi sə «nə olsun, Hacı Tapdıqdan Salman yaxşıdı», kimi isə «buda Salman, adam day az qalır özünə də inanmasın» deyirdi. Həmişə uğurluqda və hər hansı bir gərgin vəziyyətdə Salmandan məslhət alanlar «qiyamət günüdür, hərə öz qeydinə qalmalıdır» deyirdilər.
Ertəsi gün Hüseynalı gilin qapısı cəftələnmişdi.
Birinci Xırdaxanım cəftəni açıb içəri girdi. ev bomboş idi. Oğrular hər nəyi yığışdlrıb aparmışdılar. şor bardağına belə rəhm eləməmişdilər. Ailə üzvləri kürsünün altına sığınmışdı. Dərhal məsciddən bir iki həsir gətirib evə saldılar. Macəranı Hüseynalı özü danışdı:
... Gecə yarını keçmişdi. Əlçırağın götürüb tövləyə getdim. Malı yemlədikdən sonra altını təmizləyib qayıtdım. Yerləri salıb yatmaq istəyəndə dəhliz qapısına bir tımba vurdular. kiliddan yerindən qopdu, içəri soxuldular. Qəməni çıxardıb hədələdilər. «səsiz çıxsa boğazuzı üzəcəyik» dedilər. Nə vardısa daşıyıb arxın otayında heyvanlarına yüklədilər. Təzəgəlinin çadrasını da başından çəkib apardılar. Bir cam qalmışdı. biri onu da götürmək istədi. Onların böyükləri acıqlandı:
- Ədə keçəl! nainsaf olma, qoy barı su içməyə kasaları qalsın.
Beləliklə kasa qaldı. Getmək istəyəndə biri gözaltına baxıb küt toyuğu yumurtasının üstündən götürdü. Anam gəlinin üzüyünü və sırğalarını əskiə duyunləyib toyuğun yuvasının altında gizlətmişdi. Onu da götürüb anama sərtləndi: «arvad! heç utanmırsan, oğurluq eləyirsən?» dedi və qapını çöldən kiliddəyib getdilər.
Artıq kəndə səs düşmüşdü və hamı Hüseynalı gilə gəlirdi. birinci Güllübəyim danışdı:
- Apardıqları acı dərmana qismət olsun. Canuz sağ olsun. Fikir eləməyin ölməmişik ki...
Sonra gəlinlərinə nəsə tapşırıb evə göndərdi. Onlar bir azdan sonra iki dəst yorğan-döşək və iki kilimlə qayıtdılar.
O vaxtdan Züleyxa xala gəlinlik çadrasını aparanlara işarə edərək «babalım onların boynuna, namaz qılanda da çadra örtməyəcəyəm» deyirdi...
Aşkarlıq başlanmışdı.
İkindi çağı hərə öz evinə çəkildikdən sonra Salman gilin qapısı çalındı və İmaş bir bağlama ilə içəri girdi. Soyuqdan əl-ayağı buza dönmüş İmaş boğazına qədər kürsünün altına girib qızışmağa başladı. İlıq təndirin mülayim istisi sarı yağ kimi

canına yayılırdı. Güllübəyim çini çaynikə çay atıb təndirdən çıxardığı bizəkçədən dağsu alıb çay dəmlədi və kürsünün üstünə sırfa salıb bir iki lavaş çörəklə bir-iki dilim pendir, bir az təzə kərə, bir piyala da qatıq qoydu və «İmaş qağa, vaxtsız gələn qonağın günahı öz ayağınadır» dedi və onu çörək yeməyə dəvət etdi. Artıq canı isınmış İmaş dik əyləşdi və ondan əvvəl yeməyə başlamış Salmana qoşuldu. Adət üzrə qonaq çəkinməsin deyə Salman qonaqdan qabaq yeməyə başlayırdı. Bu, onda bir vərdişə dönmüşdü.

Bir iki tikə yedikdən sonra Güllübəyim dərin nəlbəkiyə qoyduğu bardağa oxşar yekə bir stəkana çay süzüb İmaşın qabağına qoydu. İmaş dərhal çayı nəlbəkiyə töküb ağzını yandırmasın deyə havaya qatıb xortulula içməyə başladı. Dalbadal üç stəkan çay içdikdən sonra Salmana tərəf döndü və öz gəlişinin səbəbini açıqlamağa başladı:

- Səlidayı məni Hacıhəsənxan göndəlib. Dölt dənə belnodu, bil az da güllə...

Salman İmaşın sözünü kəsdi:

- Hə, Hacıhəsənxan nəcürdü? gəzib dolana bilər? yoxsa yaraları hələ sağalmayıb?

- Niyə, dövlətündən yaxşıdı. A kişi həl döyülmə, yala-mala onu ayaqdan salsaydı, Həsənxan diyəldim ona?

Sonra sözün davam etdirərək dedi:

-Tapşıldı ki, naba-naba kəndi olala veləsüz. Gecə-gündüz keşik çəkün.

Salmanı fikir götürdü: deyəsən bu xına O xınadan döyül. Hüseynalının evinin çapılması bir növ xəbərdarlıqdır. Amma artıq əhali mənim sözümə əhəmiyyət vermir. Mən deyənə baxsaydılar Hüseynalı da çapqun verməzdi. Güllübəyim Salmanın əvəzində dilləndi:

- Allah köməyi olsun. Allah onu bizə çox görməsin. Yenə bax, yaman gündə yaman qardaş. Denən arxayın ol. Kəndi göz bəbəyi kimi qoruyacağıq. Aşkarçıların ağzı nədir, bəyəm ölmüşük?

Güllübəyimin dediklərinə inanmayan Salman həmişə belə anlarda olduğu kimi «yəqin ki, arvad bir şey bilməsə bir şey deməz» onun sözlərini təsdiqləmək məcburiyyətində qaldı.

İmaş qızışdıqdan sonra durub getmək istədi. Salman Fəttahla Səlimi ona qoşdu ki, bəndədək ötürsünlər.

Onlar getdikdən sonra Güllübəyimə sərtlənməyə başladı:

- Arvad, heç nə danışdığuyı bilirsən? Salmanı kənddə şota qoyan var? Şamanın torpağı başımıza elə sərki olmayıb ki!

Güllübəyim bu dəfə ərinin cavabını vermək istəyirdi:

- Kişi, atalar deyib naümid şeytandı. Camaatın heç nədən xəbəri yoxdu, ücün alıb ucuzluğa gedirlər. vaxt gələcək hər nəyi biləcəklər. Sənin ehtiram-hörmətün yerindədi...

Salman onun sözünü kəsdi:

- Yaxşı, yaxşı saqqalıma soğan doğrama. Nə qədər dedim ki, Sədullanın döyülməsi bizi ayıq salmalıdı, sözümə qulaq asan olmadı. İndi də kənddə deyim ki, məndə

berno var gəlin keşik çəkəyin. Balaya gəlmiş Tapdıq da bunu güdür. Adam göndərsin əmniyyələri töksün kəndə...
Birinci dəfə olaraq Güllübəyim onun sözünü kəsdi:
- Belə getsə dünyanı sel aparar ki. niyə açıq yolları da bağlayırsan? gəlib hamını Hüseynalıya döndərsələr yaxşı olar? ona yorğan-döşəyi sən verdin, kənd çapquna getsə kim verəcək? börküvi qoy qabağuva bir fikirləş kişi! camaatın canı burnuna yığışıb. Əmniyyənin özü də şahsəvənlərin qorxusundan yuvasından çölə çıxmır. Tapdığın sözüynən Yeycəyə gəlib Salmanın tüfəngini alacaq? kişi, ağluvı başuva yığ, qış gününün çapqununa dözmək olmaz...
Artıq Salman Güllübəyimin sözlərini eşitmirdi... «arvad duz deyir də. Heç olmasa öz xarabamızı qoruyarıq ki» deyə düşündü və durub dükana getdi.
Hava soyuq olduğundan kəndin dükanı ağzınadək dolmuşdu. Fəttah Səlidayını görmək həmən yerindən dik durdu. Lakin Dadaş «sən əyləş, burada yer var. Məşədi gəl burda əyləş» deyə böyründən Salmana yer açdı. Səkinin üstündə əyləşən Hacıtapduq ücüyə göz elədi. Ücü öz-özünə danışırmış kimi ətrafındakıların eşidəcəyi bir səslə və kinayə xarakterli bir ifadə ilə dedi:
- Duraq gedək, mulxava[10] gəldi.
Və dükandan çıxdı. Söz Hüseynalının verdiyi çapqından gedirdi.
Yoxsulları axmaq bilən Hacı Tapdıq yersiz ittihamla çıxış edirdi:
- İnsan gərək ayıq ola! başını atıb püfə-püflə yatarsan evini də aparарlar, lap o yana da keçər. Bax, ay camaat! mən ciyəzi gorursuz? yaylı-yazlı gecənin yuxusu mənə haramdı...
Hüseynalı buzov qarnında ölmüş kimi dükanın küncündə qısılıb oturmuşdu. Salman qəfəçiyə dönərək ona da bir çay deyib Hacıtapdığın sözünü kəsdi:
- Əşi, Allah kərimdi. Özüvü yemə. kişinin qabağına iş çıxar də. Qumarda utuzmayıbsan ki, camaatın tənəsindən qorxasan. Nə əyər-əskikin olsa mən varam...
Hacı Tapdıq da onun sözünü kəsdi:
- Bəli, necə deyir, elədi! Şamanın gününə qalmaq istəsən, get sənin də əyərəskiyini düzəltsin...
Bu dəfə dadaş onun sözünü kəsdi:
- Hacı, qoy dərdimizi çalxayaq də, xalxın ev-eşiyi puf olub göyə sovrulub. Ona kömək eləmək əvəzidə danlayırsan. Kömək eləmək istəyənə də atmaca atırsan.
Hacı Tapdıq bir az yumşaldı, tütəyin dilin çəkən kimi oldu:
- Kim kömək eləmək istəyir, mən qoymuram. Pir olasan onun malı getmiş mənim malım getmiş. Məşə Dadaş, mənim də sözüm odu ki, ayıq olun. Yetimə gəl-gəl deyən çox olar, amma verən olmaz. Şamanı bədbəxt elədilər. İndi də bunu, Hüsenalını deyirəm, bədbəxt eləmək istəyirlər. Qoyun barı o bir istil torpağı əlində qalsın...
Hacı Tapdıq bir az ara verdikdən və Salmanı susduğunu gördükdən sonra ucun

[10]Mulxava mülkədar, malik deməkdir.

alıb ucuzluğa getdi:
- Nə qədər mən varam qoymayacam biri birinin torpağına yiyəliklənsin. Şamanın da torpaq işini yerdə qoymayacam. Hə, gör o torpaqlara yiyə durmayıbsan? getdiyim beytə and olsun, Hacı Rəfət nə qədər dedi Şaman yer əkən döyül, gəl verim sənə, qeyrətim qabıl eləmədi...
Sonra Salmana tərəf döndü:
- Başıma dönəsən, gör o torpaqlara yiyə durmayıbsan...
Salman onun sözünü kəsdi:
- Hələ ki, yiyə durmuşam. Get, hara ucadır əlüvi qoy ora. Görüm nə qələt eliyəcəksən?
Dadaş Hacı Tapdıqın məqsədini dərhal başa düşdü. Əslində Hüseynalının qara günə qaldığı onun heç vecinə deyildi. Şamanın torpaqları onu yandırırdı. Odur ki, düz hədəfə vurdu:
- Balam soğan yeməyibsən için niyə gövnəyir? Şamanın torpağı əlindən çıxıb, sənə nə düşüb? Ta qabaqdan Salman əkirdi indi də Salman əkir. Salman bilər Şaman bilər, sənə mənə qeydi qalmayıb... Ağır otu batman gəl. Kəndi bir-birinə qatma. Qarın doyuran aşı göz tanıyar. İndiyə kimi sənin çöryini dadan olmayıb. Amma Güllübəyimin ayran aşı vaxtında sağır-suğurun canın satın alıb.
Oyunu tamamilə uduzan Hacı Tapdıq saymazyana dükandan çıxıb getdi.
Dükana müvəqqəti bir sükut çökdükdən sonra iki-iki danışmalar başlandı. Söz ətraf kəndlərdə rəiyyətlərə olan zülmdən və amansızlıqdan gedirdi. Səmyan da həmin kəndlərdən biri idi. Digər kəndlər kimi səmyanda da müxtəlif təbəqədən olan insanlar yaşayırdı. Kəndin yuxarı hissəsində Şahqulu və Höki kimi bəylər yerləşir, aşağı hissəsində isə rəiyyətlər yaşayırdılar. Dadaş bu kəndə çox gəl-get edirdi. eşitdiklərini dükanda danışmağa başladı:
«Bir gün rəiyyətdən olan Mixək adlı bir cavan gəlin kəndin içindən axan çay qırağı evlərinə gedirmiş. Höki bəyi də ovdan gəlirmiş. Mixəyi görür və tüfəngini sıyırıb onu nişan alır. Dostlarına deyir: Bu gün püşgümüzə ov çıxmayıb, bu da bizim bu günkü ovumuz. Mən vurum çabalayıb can versin. Baxıb kef edək. O cur də olur camaatın gözü baxa-baxa Mixəki güllə ilə öldürür və o çabalayıb can verdikdə bu da dostları ilə əlin əlinə vurub gülməkdən oğunur. Heç kim qorxusundan etiraz edə bilmir...
Kənddə rəiyyətlərə qarşı nələr etəməyib. Rəiyyət onun xanımı, qızı və ya qohum-əqrbasının paltarından geymiş olsa, onda onun ləçəyini boğazına dolatdırıb tənbih üçün qapısına apartdırır.
Hələ sizə Uğurbəydən deyim. Uğurbəyin ailəvi dostu Muğandan səmyana bəyin evinə qonaq gəlir. Qunağın yaxşı və dəyərli bir kəhər atı varmış. Atı mənimsəmək üçün, qonağı gecə, yuxuda olduğu bir vaxt öldürmək qərarına gəlir. Arvadı ona mane olmaq istəsədə bacara bilmir. Uğurbəyi arvadın sinəsindən vurub geri qaytarır. Qonağı gecə yatdığı yerdə öldürür. və qış günləri olduğundan ölünü aparıb həyətdəki qalağa atır və qalağı meyitin üstünə üçürür. Neçə gün macəranın

üstündən keçir. Qonağın qohum-əqrəbası xəbər tutmaq üçün Uğurbəy gilə gəlirlər və qonağın Səmyana və onun evinə gəldiyini Uğurbəyə deyirlər. Ancaq Uğurbəy onun Səmyana gəlmədiyini və onu görmədiyini söyləyir. nəhayət yaz açılır Uğurbəyi kəhər atı öz atı kimi minib çapır. «axtaran tapar» deyiblər, ölü yiyəsinə atın Uğurbəydə olduğu xəbəri çatır. Bəy özünü təhlükədə gördükdən ailəsilə birlikdə Xalxalın kəndlərinin birinə köçür. Bir müddət orada yaşayırlar. Günlərin bir günü ölü yiyəsi Uğurbəyin yerini öyrənir və bəyi tapırlar. Bəyi həmişə yanında silah gəzdirsə də ancaq yaxalanır. Ölü yiyələri Uğurbəyi və arvadını çoxlu işgəncədən sonra öldürürlər.
Bir neçə il quraqlıq olur və kənddə olan rəiyyətlər ağır günlər keçirirlər. Deyilənlərə görə bəylərin qorxusundan rəiyyət evində çörək bişirmə çox qorxulu olub. elə ki damın bacasından çıxan tüstünü belə gizlətməsinə çalışılıb. və hər bir lavaş ya pencəyiş bişirildikcə o birisi təndirə yapışdırılmamış, bişirilmiş çörəyi tələsik aparıb yük arasına soxurmuşlar.
Səmyanda rəiyyət evində samavar yandırmaq rəiyyətin cəzalanmasına səbəb olub. O evdə samavar olsaymışsa da yanmamalımış. Necə ki bir rəiyyətin haqqı yox imiş bəy xanımı ya ağası geyindiyindən geyinsin.
Səmyanda ümumiyyətlə uzun illər bəylər rəiyyətləri kölə kimi işlədib. Əkin əkilən bir vaxt da rəiyyət əkini biçib, taxılı hazırlayıb evə gətirmədən o, rəiyyətə ağalıq edən bəyi ilk öncə artıqlaması ilə özünə haqq ayırıb sonra rəiyyətə haqq verərmiş. Kəndə darğa ya əmniyyə gəldiyi zaman zorakılıq özü ilə gələn şəxsə günorta ya axşam yeməyini rəiyyət evinin cücə ya toyuğunu tutub kəsirmişlər. Bu zamanlar bəylər və rəiyyətlər arasında qohumluq da yaranmayıb...
Nəhayət Salman dilləndi:
- Ay camaat atalar demişkən yüz fikir bir qayğunu ödəməz. Ağaların zülmi azlıq edirdi, aşkarlıq da bu yandan gəldi. elə olmasın ki, daş məndən sovuşsun yoldaşıma dəysin. yoldaşıma dəyən daş mənə də dəyəcək. Bu gün Hüseynalı çapğun verdi, sabah da bizim növbəmizdir...
Taran onun sözünü kəsdi:
- Deməli indi gəldin quş həddinə. Yazıq Hacı Tapdıq da bunu deyirdi. Hüseynalı sayaq olsaydı çapğun verməzdi... Ay camaat mən sizə deyirəm: sayaq olun, ayıq yatın.
Salman sözünün dalını tütdü:
- Sayıq yatmaqnan çapğunun qabağın almaq olsaydı, Hacıhəsənxan bu işi səndən və məndən yaxşı bacarardı. Söz burasındadır ki, heç kim təklikdə özünü qoruya bilməz...
Dadaş onun nə demək istədiyini bilirmiş kimi dedi:
- Bəli, atalar yaxşı deyiblər ki, tək əldən səs çıxmaz. Məşədi, indi de görək nə eləməliyik? quldurların atları da var tüfəngi də. Bizimsə beldən, yabadan başqa heç zadımız yoxdur. Koroğlu demişkən tüfəng çıxıb, mərdlik itib. Əlimizdən nə gələr? bizimki bircə bir olan allaha qalıb. vəssalam.

Salman:
- Dadaşəli, yarımçılıq qoyma atalar sözünün qalanın da de. el gücü sel gücü! Allah insana ağıl verməseydi, sən deyən olardı. deyirlər: qapını qıfılla, qonşunu oğru tutma. Dananı əvvəl bağla, sonra allaha tapşır. Allah deyib səndən hərəkət, məndən bərəkət. Kor qız deyilsən ki, uruzun bacadan tökülsün! Kəndin dörd tərəfində keşik qoysaq, heç kim ayağın bura basa bilməz...
Salmanın kəskin, ciddi və ağıla batan sözləri dükanı elə sakitləşdirmişdi ki, «çibin» qanadının səsi eşidilirdi. Hamı sual dolu baxışlarını onun ağzına zilləmişdi. Hətta Fəttah sükutu pozmasın deyə işarə ilə qəfəçidən çay istədi. Salman sözünü davam etdirdi:
- Mən hesab eləmişəm. Gündə on altı nəfər keşik çəksə, hər evin beş gündə bir dəfə keşik növbəsi olacaq. On altı nəfərin dördü Ənzab və Bədəl yollarının qovuşağında, dördü Çayarası yolunda, dördü Gilan yolunda, dördü də Yekəli yolunda keşik çəkəcək. Hər dörd nəfərin iki tüfəngi olacaq...
Tüfəng sözü gələndə dükana yenə qurdan-qurdan düşdü:
- Əşi quş tüfəngilə quldurun qabağında dayanmaq olar?
- Sən tüfəngi doldurana qədər onlar beynivi soyurarlar!
Hacı Tapdıq çıxandan sonra bu dəfə Nəci ilə birlikdə dükana qayıdan Ücü istehzalı söz deməyə başladı:
- Niyə olmaz! quldura deyəcəksən: sən Allah irəli gəlmə, qoy tüfəngimi doldurum...
Fəttah onu cavabsız qoymadı:
- Quldurlar bilsə ücüynən Nəci keşikçidir bu araya dolanmaz. elə qoduqlanır ki, görən desin atıb- vurandır. Yum ağzıvı sonsuz söyündürənin biri sonsuz söyündürən.
Salman sözünü davam etdirdi:
- Boş danışmaqdan xoşum gəlməz. Götürün püşk atın.
Belliklə o gündən kəndə keşik çəkilməyə başlandı. Keşikçilər bir iki dəfə quldurlara xəbrdarlıq edərək geri qaytarmışdılar. Hətta iki üç dəfə onlara silahlı olduqlarını bildirmək üçün bernodan istifadə eləməli olmuşdular.

## 0.9 Beşinci hissə

Adəta bu çovğunluq diyarına bahar qorxa-qorxa gəlsə də bu il nədənsə tələsmişdi. kiçik çilə çıxar-çıxmaz vədə yeli əsməyə başlamışdı. Azər ayından başlayaraq beş-altı dəfə yağan yarım metirlik qar bir-birini basıb buza dönsə də on on beş günün ərzində əriyib yoxa çıxmışdı. Bayram əhval ruhiyyəsi yaranmaqda idi. Gününü peyinliklərdə, qalaqlarda keçirən və qapılarda sümsünən itlər artıq bir hənirti izinə kənddən çıxır, kövşəni dolanırdılar. Morruvda olan pişiklərin çığır-bağırı, sərçələrin qımışması, toyuqların küt düşməsi bahar karvanının indicə yetişəcəyini elan edirdi. Uşaqlar çərşənbə tonqalına hazırlıq görürdülər. vədə yeli

adlanan gərmic ağacların qurumuş qol-budaqlarını qırıb tökürdü. Uşaqlar isə onları yığıb evə gətirirdilər. Bu vəziyyət aşkarçıların da əl-qolunu açmışdı. Onlar kəndlərə basqın etməklə kifayətlənmir yolları da kəsirdilər. Hər külün dibində bir quldur dəstəsi təsəvvür eləmək olurdu. adi yoldan keçəni tutub soyurdular. Deyilənlərə görə əmniyyələr özləri quldurlara pişik yolu vermişdi. Kəndlilərin nifrətini mülkdarlardan yayındırmaq lazım gəlirdi. Hətəm kişinin güllənməsi isə aşkarlığın kulminasiya nöqtəsi idi...
O, günəş çıxar-çıxmaz ulağı tövlədən çıxartdı. arvadla birlikdə yağ-pendiri və yumurtaları çata-çata şəhərdən nə alacağını bir daha yaddaşının siyahısında qeyd etdi: çay, qənd, kişmiş, bir az da uşaqlara ayın-oyun.
Arvad xüsusilə tapşırmışdı ki, qənd yadından çıxmasın. Axı arvadın döşündə bir çirtim belə sud yoxdu. Körpə Adıgözəlin də qarnı inək südünü götürmürdü. Səlmixaladan məsləhət istəmişdilər. O, «gün aşıra qənddağ versəniz, uşaq düzələr», demişdi.
Atasının şəhərə gedəcəyindən hamıdan çox Xudu sevinirdi. Atasına yalvararaq istəmişdi ki, ona tütək alsın. O artıq böyümüşdü və bu il qoyunlarını özü otaracaqdı. Qoyun otarana da tütək lazım idi! O, dəfələrlə «tütəksiz qoyun otarmaq olarmı?», deyə özündən soruşmuşdu. Sonra öz sualına özü cavab vermişdi: «əlbəttə olmaz». Hətta çay qırağında yarğanın üstə oturub bəlləsinin bir tikəsini özü yeyib, bir tikəsini də qabağında şöngüyüb gözlərini ona dikən dağbasana ata-ata öz-özünə düşünmüşdü ki, Allah eləməmişkən canavar gəlsə dağbasandan çox tütəkdən qorxub qoyunlara soxulmayacaq!
Bu gecə də yataqda gözlərini yumana kimi «tütəyim yadından çıxmasın» deyə atasına tapşırmışdı. Atası da hər dəfə demişdi: «heç nə ala bilməsəm də Xudu balama tütək alacağam».
Hələ desən dünən axşamçağı atasının ertəsi gün şəhərə gedəcəyi doğrulduqdan sonra anasına xəbrdarlıq da etmişdi:
- Mənə nə, özüz bilərsiz. Tütək almasaz qoyunları canavar yesə məni taqsırkar tutmayın.
Xudunun kişilnəməsi isə anasının xoşuna gəlmişdi və ona tütək almağı ərinə xüsusi tapşırmışdı. Deməк atası şəhərdən tütəksiz qayıtsaydı, heç növlə bağışlanmayacaqdı.
Arvad iki anacın qıçını bağlayıb ulağın yükünün üstünə qoydu və «get, allaha tapşırdım»-deyib kişini yola salmaq istəyəndə «Durna» xala əlində bir ferə həyət qapısından içəri girdi:
- Başuva dönüm ay Hətəm qağa, bunu verərsən bir az idə, bir az da çaynan kişmiş alarsan. kişinin çayxorluğu bizi dur çıxana çıxardıb.
Mahı qımışa-qımışa Durnaya sataşdı:
- Yaxşı eləyib demirsən, O qədər gözü götürməyən adam var ki.
- Ay bacı nəyi deyəcəyəm, qızın da deməsi var?
- Vi başıma xeyir, allaha acıq gələr. Nə olsun ki, bu dönə qızı olub, gələn dönə də

Allah oğul verər.
Durnaynan Mahının danışığı hələ-hələ qurtarası deyildi. Hətəm ferəni onun əlindən alıb ulağın üstünə qoydu və qapıdan çıxdı.
«Bədəl» yolu tamamilə əmin-amansızlıq idi. O günlər hər bir kolun dibində neçə yol kəsən, quldur püsürdü. Bir həftə bundan qabaq yazıq «Bəhəri»nin nəyi vardısa əlindən alıb yola salmışdılar. Zalımlar əyninin paltarına da qıymışdılar. Səlmixala, «genə adamın özünü öldürmürlər çoxdu» demişdi.
Nə isə Hətəm ulağın ağzını «Yekəli»yə tərəf yönəltdi. «Gilando» kəndini keçib poçt yoluna yetişəndə arxayınlaşdı. Köksünü ötürüb bir daha alacağı şeyləri beyninə hək etdi. Xudunun tütəyi hamısından əvvəldə idi. «təki dərd bir dənə tütək dərdi olsun. Ona-buna yalvarmaqdan üzümün suyu tökülüb», deyə öz-özünə düşündü v«axır ki, yonca bitdi, öküzüm ölmədi» ifadəsini az qala uca səslə demək istəyirdi. Hətəm xoş bir əhval-ruhiyyə ilə Gilandu körpüsünü keçib «saltavar» turşuna yetişdi. Hələ də öz aləmini seyr edirdi: «Xuduş balam sabah qoyun otarmağa gedəcək. eh, bir dəli şeytan deyir yarım çərək ağayı al, arvad axşama südlü pulov bişirsin, cəhənnəmə ki».
Birdən, «kişi karsan? saxla görüm» səsi onu seyr etdiyi dünyasından ayırdı. Qabağını iki nəfər əli «berno»lu şaysəvən kəsmişdi. Amma vəziyyətin nə yerdə olduğunu bilmirdi. «aşkarlıq» dövrü olduğu hələ də yadına düşmürdü. Özünü itirmədən ulağı saxlayıb dedi:
- Nə deyirsiz bala?
- Hara gedirsən?
- Görmüsüz? şəhərə gedirəm də. evə ayın-oyun almağa.
- Haralısan?
- Yeycəli.
Şaysəvənlər Hətəmi ələ salmağa başladılar:
Yeycəli, qoduğu ölər dincəley.
Yeycəli, qoduğu ölər dincəley.
Hələ də heç zad sezməyən Hətəm dilləndi:
- Bala, dədəniz yerindəyəm, niyə ələ salırsız?
Şaysəvənin biri hətəmi yaxaladı:
- Kəs səsini it oğlu it, gör özün nə də tülkülüyə vurub.
O biri şaysəvən acıqlı bir ifadə ilə dedi:
- Oyunun öyrənməmiş dağallığın öyrənir vəlduzzina. Bəs Bədəl yoluynan niyə getmirsən?
Hətəm, «başuva dönüm, bədəl yolu oğro-moğruynan doludur axı. Ordan getmək olar?» demək istəyəndə hər şeyi başa düşdü. Əvvəl beyninə vurdu ki, Bəhərinin də acığını bunlardan çıxsın. Amma ikisinə gücü çatmayacağını, ulağı yükü ilə itirəcəyini və Xudunun tütəksiz qalacağını xatırlayıb acığını çətinliklə uddu. Bir təhər özünü ələ alıb dedi:
- Başuza dönüm, mənə görə qulluğunuz?

- Yükün nədi?
- Yağ-pendir.
Şaysəvənin biri ulağın üstündəki yükü aradıqdan sonra yoldaşına döndü:
- Düz deyir, amma yeməli toyuğu da var aaa.
Hətəmin ürəyi bir az yerinə gəldi. Öz-özünə, «it aparan olsun, bir az yağdan pendirdən verib sovuşaram» dedi və dörd-beş lavaşın arasına bir çalxam yağ, bir iki dilim pendir qoyub dedi:
- alın yeyərsiz, halalız olsun. Öz razılığımnan verirəm.
Şaysəvənlər ucadan gülüşdülər:
- Allah köməyin olsun, yaxşı ki, halal edirsən, yoxsa boğazımızdan getməz.
Hər şey öz qaydasında gedirdi. Hətta bir üzünə baxsan Hətəmin xeyrinə idi. Çünki bir quldura çapılan adam məqsədə kimi əmin-amanlıqda olmalı idi və ayrı bir quldurun ona sataşmaq haqqı yox idi.
Quldurların biri aldığı yağ-pendiri yekə bir dəstmala bağladı. O birisinin gözü səbədin içində saman arasında səliqə ilə yerləşdirilmiş yumurtalara düşdü. Fikrindən nə isə keçdi. yoldaşına döndü:
- Əyə keçəl, yumurtalardan yaxşı nişanə olar aaa.
- Düz deyirsən keçəl. Tüfənglərin lüləsini pas kəsib, özümüz də bekarçılıqdan dığlamışıq.
Onlar yumurtaları səbəddən çıxarıb əlli metrlikdə sıra düzdülər. Hərəsi bir başdan vurmağa başladılar. Berno güllələri yumurtaları toz kimi göyə sovurdu. Hətəmin gözlərindən yaş süzülürdüsə də, yağ-pendiri satıb bir az ayın-oyun və əlbəttə Xuduya tütək ala biləcəyinə güvənirdi. Bəlkə də ulağı sürüb yoluna davam etdirsəydi, quldurların işi olmayacaqdı. Amma Hətəm dayanıb onların icazəsini güddü.
Quldurlar yenə ulağa sarı gəldilər. biri o birisinə dedi:
- Əyə gəlsənə toyuqlardan birini götürüb dişimizi dəyişək?
- Bəs nəəə?
Hətəm ona da razı idi. Hətta özü anacın birini açıb vermək istədi. Amma artıq iş işdən keçmişdi. Şaysəvən ferəni götürmüşdü. Hətəm ona yaxınlaşıb ferəni aldı və dedi:
- Başuva dönüm, bu amanatdı. Anaclardan birini götür.
Onun bu davranışı şaysəvənə ağır gəldi:
- Ədə, qancığın balası qancıq, utanmırsan? ferəni əlimdən alırsan?
- Qadan ürəyimə, axı bu amanatdı, verə bilmərəm. Anacların lap ikisini də götür, sənin olsun.
- kişidə üzə bax sən allah, sənin olsun, deyir. Bəs mənim dögü sənindi?
Hətəmin dişi boğarsağın kəsirdi. Amanata xəyanət etməyi qeyrətinə sığışdıra bilməzdi. Son sözünü deməli oldu:
- Öldürsən də ferəni verə bilmərəm.
Yırtıcı görkəmi alan quldur bernovu qarışdırıb Hətəmi nişan aldı:
- At yerə ferəni. Özən də gəl ayağımnan öp.

- Amanata xəyanət edə bilmərəm.
O birisı quldur dilləndi:
- Əyə keçəl, bir güllə çax beyninə. Görək axmaq adamlar nə cür can verir.
Quldurun barmağı qorxuluğun içinə keçib tətiyə ilişdi v. . .
Hətəm ilan vuran adam kimi qıvrılıb yıxıldı. Sudan çıxarılan balıq kimi çabalamağa başladı. Hələ də ferənin ayaqlarını ovcunun içində bərk-bərk sıxmışdı. Quldur ferəni onun əlindən çıxarmaq istədi, amma mümkün olmadı. yoldaşına döndü: Əyə keçəl, o sən öləsən bu tatlarda lap it canı var.
Güllə Hətəmin qarnından dəyib kürəyinin ortasından çıxmışdı. Keçirdiyi günlər beynində canlanmağa başladı. Tay-tuşları, ata-anası, hətta Mahı ilə evlənməsi və Xudunun olması belə bəzən sıra ilə, bəzən də qarışıq şəkildə gözünün önündə canlanmağa başladı. Qan getdikcə beynində təcəssüm etdirdiyi adamlar və əşyalar yavaş-yavaş kobud fiqurlara dönürdü. Son gücünü toplayıb gözlərini yaz səmasına dikdi və ferənin ayaqlarını möhkəm tutmuş barmaqları açıldı...
Şaysəvən əyilib ferəni götürəndə gözləri Hətəmin gözlərinə sataşdı. Artıq dünyada heç nəyi görməyən o gözlərin dərinliyində hək olmuş sonsuz nifrət qulduru sarsıtdı. İnsanı toyuq qədər saya salmayan şaysəvənin bədəninə əsməcə düşdü. yoldaşı onun vəziyyətini görüb, «əyə, səndə sərçə ürəyi də yoxmuş ki» deyib ayağı ilə meyiti ağzı üstə döndərdi...
**
Hətəmin öldürülməsi təkcə Yeycədə deyil, bütün məntəqədə top kimi açıldı. Xudu nə inki tütəyini çala bilmədi, üstəlik qara bayram əhval ruhıyyəsi onların soyuq daxmalarını daha da soyutdu. Son çərşənbəyə cəmi on gün qalırdı. Yasa gələnlər Hətəmin həyətində Xudunun son dərəcə maraqla topladığı qol-budağa baxır, istər-istəməz bir an dayandıqdan sonra içəri girirdilər. Qınamayan olmasaydı, tonqal qol-budaqlarına da baş sağlığı verərdilər. Onlar macəranın nə olduğunu və Hətəmin kimlər tərəfindən öldürüldüyünü bilmirdilər. Sərbəndlilər şəhərdən qayıdarkən yiyəsiz bir ulağın yükü ilə yolun qırağında dayandığını görüb ona tərəf getmişdilər. Meyiti arxası üstə döndərdikdən sonra Hətəmi tanımışdılar və Yeycəyə xəbər göndərmişdilər. Sonralar macəra bəllənmişdi və onun yalnız bir toyuğun qurbanı olduğunu başa düşmüşdülər. Hətta bəzi sadəlövhlər Hacı Rəfətin qulluğuna gedib qatillərin cəzalandırılmasını da istəmişdi...
El adətinə görə çərşənbə günü birinci qarabayramı olanların damında tonqal qalanırdı. Əlbəttə bu tonqalı cavan-cuvanlar yox, ağsaqqlar qalayırdı. Çərşənbə gününə iki gün qalmış Salman özü Güllübəyimin tapşırığı ilə şəhərə gedib özlərilə bərabər Hətəmin ailəsinə də bayram qarışığı, şirniyyat və hətta şam və həməşəcuvan almışdı. Güllübəyim özü Mahı gilə gedib ona bərk tapşırmış və «çərşənbə və bayram mərasimini qeyd etsinlər, uşaqların qəlbi sınıqdı, bekef olmasınlar» demişdi.
Çərşənbə axşamından bir gün qabaq, duz günü naharda hava dolaşmağa başladı. Əvvəlcə yağış başladı. Axşamçağı alaçalpoya döndərdi. Ertəsi gün camaat yuxudan duranda yeri 30 santimetr qalınlıqda qar örtmüşdü. Hətta küləkli qar havasında

bayram əhval ruhiyyəsi pozulmayan uşaqlar belə hallarda həmişə səs-səsə verir və
Ulduzlu fişəng toptaraqqa
Şərşənbə qaldı qar altda.
Deyə oxuşurdular. Əlbəttə bu vaxtların qarının davamı olmazdı. Sürətlə ərimәyə başlayardı. İkindi çağı kəndin təngələrində zığ-zımırıq dizə çıxmışdı. Salman kişi havanın qaralmasını güdürdü. Özünü çox kədərli hiss edirdi. Xəyalı ötən illəri seyr etməyə başladı. Qayınatası Kalbaiba atası Qasımın qarabayramından danışırdı...
Ürəyindən hər şey keçirdi. Bəlkə bir gün anam öldü?
Çətin anlarda ana sığnacağı tapa bilməyən uşaqların sarsıldığının dəfələrlə şahidi olmüşdü.
Xüsusilə bayram günlərində «yazıqların qara bayramıdır» sözünü çox eşitmişdi. Cəmi yeddi yaşı olduğuna baxmayaraq neçə-neçə ananın qara torpaq altına getdiyini görmüşdü. Adicə soyuq dəymədən sətəlcəm olanın, vərəm xəstəliyinə tutulanın… yaxud da uşaq üstə ölən anaların sayı ən azı iyirmi nəfərə çatırdı. Yaxşı yadındadır, payızın uzun gecələrinin birində dan yeri sökülər-sökülməz bir yuxu gördü:
«Pakizə bibi kiçik pencərələrinin şüşəsini taqqıldadaraq anasını səsləyib dedi: Rəhimə uşaq üstə ölüb, arvadların hamısı gedir, sən də gəlirsənsə, tez ol. Qasım «uşaq üstə ölüb» sözünü eşitmək həmən yuxudan dik atılıb ağlamağa başladı. Anası onu bağrına basıb göz yaşını sildi. Anasının diri olduğuna inanmayan Qasım əlini onun üz-gözündə, boyun-boğazında və döşündə gəzdirərək diri olduğundan arxayın olub az qala əriyib canına hopacaq dərəcədə anasına sığındı.
Beş on gün ondan sonra Tohidin rəhmətlik Rəhimənin oğlu İbişə «nənə yamanı» dediyini anasına danışanda anası ona tapşıraraq; «naba, naba elə sözlər ağzından çıxa. Anasız uşağın qəlbi sınıq olar, südümü sənə halal eləmərəm» demişdi.
Qasım yerinə girib anasının isti qoynunda yatanda hələ yuxusu aparmamış müxtəlif fikirlərlə əlbəyaxa olurdu: «bəlkə mənim də anam bizi doğanda... yox, dilim qurusun... eh, kaş anam əsla məni doğmayaydı... onda bəs anamın balası kim olardı, hə?… allaha şükür ki, anama heç zad olmayıb. Allah eləməsin bir də doğa».
Anası isə qoynundakı Qasımın kiçık qəlbinin çırpıntısından onun həyəcan keçirdiyini duyur və pambıqdan da yumşaq olan əlilə uşağın boyun boğazını sığallayır, əlini kürəyinə çəkir və üzünü üzünə söykəyərək ona sonsuz zövq aşılayırdı.
O il yeddi yaşına çatmış Qasımı da atası özü ilə şəhərə aparacaqdı. Axı uşaqlar o yaşa çatdıqdan sonra ildə bir dəfə, novruz bayramına üç-dörd gün qalanda ataları, əmiləri, yaxud da böyük qardaşları ilə şəhərə gedirdilər. Özündən böyük qardaşı keçən il şəhərə getmişdi və şəhərin nə olduğunu bilirdi. Qasıma şəhərdən ağız dolusu danışmışdı. Hətta nağıllarda deyildiyini də öz gördüklərinə qatıb deməklə onda şəhərə nisbət başqa bir əhval-ruhiyə yaratmışdı. Hamamdan xoşu gəlməsə də pisləməmişdi. pisləsəydi də Qasım inanmayacaqdı. Axı sudan kimin acığı gələr?
Bayrama düz on yeddi gün qalmış, vədə yeli əsən gündən etibarən günləri saymağa başladı. Atasının dediyinə görə axır çərşənbəyə iki gün qalanda şəhərə

gedəcəkdilər. Bu ilki bayram şənbəyə düşürdu.
Nəhayət südgünu gəlib çatdı və Qasım bu gecəni zorla da olsa səhərə çıxartdı. Anası xoruzun ilk banında ürəyinin başından tutan xəfif bir sancıdan yuxudan ayıldı. Əvvəl Qasıma baş çəkdi. Uşağın dodağı xəfifcə qaçır və şirin yuxu, bəlkə də şəhər yuxusu görürdü. Yorğanı uşağın üstündə bərkidib həyətə çıxdı. Sancı xəfif də olsa, azalmırdı. Aygünü olduğunu yəqin edib fikrə getdi. kişini oyadıb macəranı demək istədi. Birdən Qasımın şəhərə getmək həvəsi yadına düşdü, uşağa qıymadı. Ürəyinin başını bir az ovuşdurub yatağa uzandı. nəhayət dan yeri sökülləndə kişini oyatdı. Hər ikisi dəstəmaz alıb namaz qıldılar. Namaz qurtarar qurtarmaz Qasım dik atıldı. Lakin atasının evdən çıxmadığını görüb özünü yatmışlığa vurdu. Anası namazdan sonra yağdan, pendirdən, yumurtadan və satılası nə var idisə iki vedirədə yerləşdirdi. Bayram ayın-oyununa lazım olan torbaları da xurcunun gözünə qoydu. Qasımın oyaq olduğunu bilməyən ana onun başının üstünə gəldi. Qasım özünü hələ də yatmışlığa vurmuşdu. O, həmişəki kimi həm anasının əllərinin hərarətini boyun- boğazında duymaq, həm də onları sınamaq istəyirdi. Yəni ki, görsün onu şəhərə aparırlar, yoxsa ildəki kimi başını aldatmaq istəyirlər? Onun bu tədbiri anasının gözündən yayınmadı və haçandan haçana gözlərini açanda üzündən öpüb dedi:
- Xəbis, oyaqmışsan ki?
- Hə, elə bilirsiz dədəm mənsiz şəhərə gedə bilər?
Anası onun boyunu oxşadı:
- Maşallah, sən özün kişisən dəəə.
- Bə nəəə, hələ desən şəhərdən sənə yaylıq da alacağam.
Arvad, «balamın kişi boyuna anası qurban» deyə Qasımı yerindən qaldırdı. Əl-üzünü yudu, paltarını geyindirdi və ərinə döndü:
- Uşağın öz əyninə pencək şalvar alarsan. . .
Ürəyinin başından bu dəfə daha güclü tutan sancını gizli saxlaya bilmədi. Qasım atasından qabaq dilləndi:
- Sənə nə oldu ana?
Arvad kişinin də sual dolu baxışlarına cavab olaraq kəskin ifadə ilə dedi:
- Mənə heç nə olmayıb.
Sonra kişiyə aygünü olduğunu bildirərək artırdı:
- Siz yubanmayın, Böyüşü yollaram Züleyxa bacını çağırar, sizlik bir iş yoxdur.
Doğrudan da onlarlıq heç bir iş yox idi. Mal-heyvana baxmaqdan başqa bütün işləri arvadlar görəcəkdi və kişinin şəhərə gətməyi daha da ovsanaya düşürdü. Çünki lazım olan darçın, zəncəfil, sarıkök və sairəni alıb gətirəcəkdi. . .
Onlar beş on nəfərlə birlikdə yola düşüb Yekəlini və Gilandovu keçdilər və günəş çıxar çıxmaz poçt yoluna yetişdilər. Qasımın birinci dəfə şəhərə getdiyini bilən Gülağa ona zarafatla yanaşdı:
- Bilirsən dəəə, şəhərə birinci dəfə gedən adam ağzına sümük götürməlidir. yoxsa düşər-düşməzi olar.

Qasım «düşər-düşəməz»in mənasını bilmirdi. Gülağa izah edərək dedi:
- Yəni ki, bir daha şəhərə gələ bilməzsən.
Bu, Qasım üçün hər nədən çətin idi. «nə var ki, ağzıma sümük də götürərəm» deyə öz-özünə düşündü. Lakin sümüyü haradan tapacaq o haçan ağzına alacaq sualları cavabsız qalmışdı. Atasından soruşmağa da üzü gəlmirdi. Hərdən sual dolu baxışlarla Gülağaya baxırdı. Gülağa isə özünü o yana qoymurdu.
Nəmin maşını yol üstündə maşın güdən adamları görüb saxladı. Qasım atası ilə birlikdə güc billa ilə maşına soxuldu. Maşın yarım saatdan sonra Gilan qaracında dayandı və sərnişinlər enib hərəsi bir tərəfə yollandılar. Gülağa onlardan ayrılarkən pıçıltıya oxşar səslə Qasıma dedi:
- Narahat olma, mən hamıya deyərəm ki, Qasım ağzına sümük götürmüşdü.
Qasım dərindən nəfəs alıb arxayınlaşdı və gözlərindən saçan uşaq gülüşü ilə məmnun olduğunu bildirdi.
Hər şeydən əvvəl yağı, pendiri və yumurtaları müştəri olduqları baqqala verib «Nağı hamamı»na getdilər. On dörd yaşından böyük yeniyetmələrə, gənclərə və kişilərə fitə və qətfə verilirdi. Soyunub içəri keçdilər. Buxar adamı boğurdu. Daha çox sabın köpüyünə oxşayan çirkab qanuçalardan axırdı. Səslər günbəzdə əks səda törədir və kimin kimə nə dediyini avarmaq olmurdu. Atası Qasıma xəbrdarlıq edərək «gözlə sürüşüb yıxılmayasan» dedi və özü xəzinəyə girdikdən sonra onu da qaldırıb az qala yandıracaq isti suya saldı. Qasım içini çəkdi və qışqırmasının qarşısını güclə aldı...
Hamamdan çıxdıqdan sonra yağ-pendiri verdikləri baqqala müraciət elədilər. Baqqal «hesablamağa vaxtım yoxdur» deyə beş on tümən pul verib artırdı:
- Yenə lazımsa pul verim? gedin alacağınızı alın, günorta çağı hesablaşarıq.
Qasım gilin ikinci işi pencək-şalvar almaq idi. «Təzəmeydan»a getdilər. Atası satıcıya müraciət edərək dedi:
- Uşağın əyninə pencək şalvarın var?
Uşaq sözü Qasımı bir az necə deyərlər qıcıqlandırsa da səsini çıxarmadı. Axı atasına etirazı həmişə anasının vasitəsilə yetirirdi. Bir də ki, onun əsl məqsədi əcərli pencək şalvar geymək idi. Qoy onu uşaq hesab eləsinlər, yalnız anasının ona kişi deməsi kifayət edərdi. Satıcı; «malı nə olsun?» deyə soruşduqda atası dedi:
- Nə olacaq, mil-mili fasniyə.
Satıcı rəfədən bir dəst pencək şalvar gətirib bir başı zorla Qasımın ayninə geydirdi. pencəyin kiçik olduğunu özü də bildi. ondan böyük pencək isə dizlərindən də bir az aşağı düşürdü. Atası pencəyin qolunu üç dəfə qatlayıb satıcıya dedi:
- Nə eybi var, uşaq böyüyəcək dəəə. Gələn il inşallah əyninə düz qalar.
Lakin Qasım çiyinlərini oynadaraq bu boyda pencəyi geyməyəcəyini bildirdi. Satıcı isə müştərini itirməsin deyə kiçik nömrəli pencəyi uşağın əyninə güclə keçirib oyan-buyanını dartmaqla hər torlə olursa onlara soxuşdurdu. Qasım elə ordaca əcərli pencək şalvarını geyib köhnəsini torbaya qoyub qoltuğuna vurdu. . .

Kişi evə lazım olan qənddən, çaydan, çit-çülədən, bir az da badam ayın-oyunu və əlbəttə şam, həmişəcavan budağı, bir də ki, Qasıma toptaraqqa, çırt-çırt, ulduzu-fişəng və ... Alıb xurcunun gözlərinə doldurdu və Nəmin maşınına oturub yola düşdülər.
Gilanduvda enib qalan yolu ayaqla getməli idilər. Lap kəndin özündəcə sısqa yağış başladı. Hava elə tütülmüşdü ki, açacağına zərrəcə ümid yeri qalmırdı. Yekəliyə çatanda tamamilə islanmışdılar. Qasımın ayaqları «qaloş» ayaqqabının içində fırçıldayır və hər addım atanda palçıq qarışıq su az qala sifətinə çırpılırdı. pencəyin üzü ilə astarının arasına qoyulmuş siyəzi paraları qopub qabaq cüngələrinə yığışmış və içi dolu torba kimi hər addım atanda dizlərinə dəyir, Qasım isə dənd vurulmuş cöngə kimi yeriməli olurdu. İslanmış fasniyənin rəngi uşağın boyun boğazını tamamilə boyamışdı...
Evlərində iki üç nəfər adam var idi. Züleyxa xala körpəyə idə-kərə uddururdu, Göyçək bibi inəkləri sağırdı, anası isə yerin içində uzanmışdı.
Qasımını görən ananın solğun dodaqları qaçdı və busağada dayanan və papağı boğazına keçən və hələ də üst başından su süzmələnən və körpə quzu nigaranlığı keçirən Qasımın az qala çırpınaraq köksünü dəlib çıxacaq ürəyi bir az sakitləşdi. Birdən papağını çıxarıb ataraq anasına tərəf şütüdü və soyuqdan göyərmiş dodaqlarını onun solğun yanaqlarına söykədi. Ürəyindən bir duyğu keçdi. O duyğunun nə olduğunu düz qırx il sonra aydınlaşdıra bildi: «ana olmayandan sonra şəhər nədi, cənnətin özü də adama yapışmaz».
Cəmi iki saat bundan əvvəl fariq olmuş ana qalxıb oturdu. Balasının islanmış paltarını əynindən çıxarıb dəyişdi. Yaş paltarı çıxarıb kursu altından təndirə asladı. Uşağı öz yanında yatırdıb yaylığı ilə üz-gözünü sildi. Bibisi Qasıma yaxınlaşıb könlünü almaq üçün «bibin qurban, cıqqılı bacın olub ey, özü də lap qağasına oxşayır» dedi. Qasım son dərəcə kəskin bir ifadə ilə cavab verdi:
- Nə bacı istirəm, nə qağa.
Züleyxa xala özünə məxsus ifadə ilə və Qasım başa düşməsin deyə işarə ilə bildirdi:
- Gözü götürmür, körpənin xuruşun çəkir.
Amma bir Qasım, bir də anası bilirdi ki, O bu sözü yalnız anasını itirmək ehtimalından, dəhşətli bir kabusdan qorxduğundan deyirdi.
Ertəsi gün ananın vəziyyəti gözlənilən kimi olmadı. arvad hələ də qan itirirdi. Bişirilən quymaq və xəşildən də yeyə bilmirdi. Amma bütün bunlara baxmayaraq hələ Zülexa xala gəlməzdən əvvəl yerindən durdu, uşaqlarının çay çörəyini hazırladı və hətta Qasım narahat olmasın deyə onunla birlikdə ürəyi aparar aparmaz bir iki tikə yedi. Sonra kursunun altında təndirə aslanmış pencək-şalvarı çıxarıb qırışığını açdı və səliqə ilə büküb bayram günü geymək üçün buqçaya qoydu...
İki üç gün ərzində arvadların qeyri-adi gəliş gedişi Qasımı son dərəcə nigaran etmişdi. Ananın gərgin vəziyyətini düşünən Züleyxa xala eləcə də südgünündən etibarən Qasım gildə olan Göyçək bibi körpənin çiləyə düşmək ehtimalını unudaraq onu evə gələnlərin ayağına aparmır və hətta dualıqlı olan arvadların belə

qıçının arasından keçirmirdilər. Belə məqamlarda evə dəyməyə gələnlərin adətən şən əhval ruhiyyə ilə zahının on suyundan yaxud qırxından danışmağın yerini ümidsiz türkədava müzakirəsi almışdı. Bu bəhslər bəzən qızğınlaşaraq fikirlərin çoxluğu ilə genişlənir və payızda sığırçınların uçuşu kimi müəyyən bir nöqtəyə doğru şütüyür, lakin qonmaq istədikləri yerin əlverişli olmadığını duyan dəstənin yenidən yüksəlib, axır ki, ovçunun tüfəngindən göyün yaxasından düymə kimi qoparaq yerə düşmələri, qalanının isə üfüqlərə hopduğu kimi bəhsin də nəticəsiz olduğunu duyan arvadların fikirləri haçalanır və ayrı-ayrı fikirlər irəli sürülürdü:
- Allah dərd verib, dərman da verib.
- Arvadın qeydinə qalan olmayıb, dua satıblar.
- . . .
Züleyxa xala öz vəzifəsini düzgün yerinə yetirdiyini izah edərək dedi:
- əvvəl qaynar su hazırladım, hamını evdən çıxartdım. Uşaq olduqdan sonra da bax bu şişlə evin dövrəsinə cızıq çəkdim. Zahının başı altına da lazım olan dəmirdən zaddan qoymuşam.
- Rəhmətlik kalba nənə belə zahılara «ağçaçoğanı» verərdi.
- Yox, arvad hovlayıb.
Bunların hamısını eşidən və öz vəziyyətini hamıdan yaxşı bilən ana isə Allahdan bircə bu bayramı möhlət verməsini diləyirdi.
Bayramdan bir gün qabaq ananın dəyməsinə gələn arvadlar evdən çıxanda «Allah şəfasın versin» desələr də öz dediklərinə zərrəcə inanmırdılar. Bir-birləri ilə danışanda isə ananın həm gəlin dövrünü yaşadığını, həm də çolpalarını nəzərə alaraq «Allah bağışlasın aparsın» deməyə də dilləri gəlmirdi.
Bayram günü artıq Qasım gilə gələnlərin həm sistemi həm də yeriş qaydaları dəyişmişdi. Bir ayaqları gəlir, bir ayaqları gəlmirdi. Zahının ətrafını tamam yaşlı qadınlar almışdı. Hamı sum tutub oturmuşdu.
Ana son anlarını yaşayır, son nəfəslərini çəkirdi. Uşaqların hamısını evdən çıxarmışdılar və bayramlaşma üçün müəyyən evlərə əkmişdilər. Qasımın fikrini tamamilə yayındırmaq üçün hətta buqçanı açıb əcərli pencək şalvarını geyindirmək istədilər. Lakin yağış dəyən pencək o qədər yığılmışdı ki, Göyçək bibi qoltuqlarını söksə də əyninə olmadı.
Quru nəfəsdən başqa heç bir hərəkət edə bilməyən ananın gözləri qeyri-adi olaraq dolanır, ətrafı nə üçünsə süzürdü. Dili olsaydı, ucadan bağıraraq «qasımımı gətirin» deyəcəkdi, lakin dodaqları xəfifcə tərpəndisə də heç bir səs eşidilmədi. Axırkı, onun bu qeyri-adiliyinin mənasını başa düşən oldu. Göyçək bibi evdən çıxaraq Qasımı gətirdi. Onun üzünü ananın dodaqlarına yaxınlaşdırdı və balasını son dəfə olaraq öpə bildiyindən məmnun olduğunu və eyni halda belə həyata nifrət etdiyini ifadə edən sirli bir gülüşlə dünyasını dəyişdi.
Bu facıəni Qasımdan gizli saxlayaraq onu sürətlə evdən çıxardılar.
Axşam çağı Qasım evə qayıdanda göyçək bibinin kainatı yaxıb yandıran hüznlə ağı çəkdiyini eşitdi:

Dağlara bax, dağlara
Şeh qondu yarpaqlara
Ananı soruşsalar
Qarışdı torpaqlara
Qasım hönkürtü ilə ağlamağa başladı və öz səsi özünü oyatdı. . .
Təbiətin şıltaq qoynu xəzərdən qopan meh parçaları Bağrov dağlarının ətəyi ilə Savalana doğru şütüyürüu. Cütdən açıb dubaraya ötürdüyü öküzlər quru torpaq üzərində ağzı mehə tərəf yatıb gövşəyirdilər. «qırğı»nın amansız hücumuna məruz qalan bir torağay qalın tikan koluna sığınırdı. Çəyirtkəni nişan alan «kərtincək» yerə doğru şütüyürdü. elə bu andaca oğlu Qara anasının öyrətdiyi qayda ilə, «biri min olsun, yorulmayasan ata, muştuluğumu ver, bacım olub» dedi...

## 0.10 Altıncı hissə

Şaman Təbrizin «Göy məscidi»nin yaxınlığında Kömür meydanı adlı karvansarada dalandar işləyirdi. Buradan şəhərin müxtəlif məhəllələrində yerləşən kömür satıcılarına, həm də ətraf çayxanalara və digər kömür işələdənlərə paylanırdı.
Kömür meydanında işləyənlərin çoxu Çirovun idi. Onlar 1930-cü illərdə qəbul edilən sovet qanunlarına əsasən sovet vətəndaşlığını qəbul edib Azərbaycanda qalmalı , yoxsa İrana qayıtmalı idilər. Az bir tedadı çıxmaq şərtilə demək olar ki, hamısı vətənə qayıtmışdılar. Çünki bir tərəfdən vətən həsrəti, ailə bağlılığı, digər tərəfdən isə sovet vətəndaşlığına qarşı kafirlik ittihamı başqa çıxış yollarını bağlamışdı. Qayıdanların tam əksəriyyəti bilirdi ki, vətəndə onları ağa zülmü və acınacaqlı bir taledən başqa qarşılamayacaqdı. Lakin buna baxmayaraq kafir olmaqdan və qürbətdə qalmaqdansa vətəndə yaşamaq yaxşıdır deyə qayıtmışdılar. Əlbəttə onların içində və xüsusilə şəhərli olanlardan mübarizə hədəfilə qayıdanlar da az deyildi. Əslində onlar sovet təəssüratı ilə belə bir nəticəyə çatmışdılar ki, mülkədarların hakimiyyətinə, şahlıq üsul idarəsinə son qoyulmayınca düzgün yaşamaq mümkün olmayacaqdır.
Bir gün axşam çağı iş səngidikdən sonra hamballardan biri, Çirovun Əbutalib Şamanın yanına gəlib «əşi, bir çay ver içək, görək dünyada nə var, nə yox» deyə dallığını çıxarıb stol üstündə oturdu. Şaman özünə də, ona da bir çay süzdü. Çirovun Əbutalib Şamana son dərəcə maraqlı gələn sözlər danışmağa başladı:
- Bilirsən? mən Bakıda zavodda işləyirdim. Orada vəziyyət tam başqadır. Həyat bir ayrı cürdür. Dərs oxumaq pulsuzdur, özü də ana dilində oxuyursan. Oxuduqcan da maaşın artır. İşdə barmağın qanadımı müalicə edirlər. Xəstələnədin balnəsəyə[11] aparırlar.
- Bəs bunların pulunu hardan gətirirsiz? - deyə Şaman soruşdu.

[11]Xəstəxana deməkdir.

- Əşi orada dava-dərman, düxdür-muxdur pulsuzdur.
Eşitdiyinə inanmayan Şamanın marağına cavab olaraq Çirovun Əbutalib sözlərini davam etdirdi:
- Bir gün mən dəmir yonanda yonqu barmağımı kəsdi. Onun qanını qurutmaq üçün barmağımı torpağa bələmək istədikdə ustamız qolumu tutub; nə eləyirsən? dedi. Görürsən də; dedim. Barmağım kəsilib.
- Görürəm, kor deyiləm ki.
- Yaxşı qanın dayandırmaq istəyirəm.
- Bilirəm. Amma axı kozaz tutarsan. Kozazdan qorxmursan? Tütdün öləcəksən. Bala, torpaqda kozaz mikrobu var.
Dərhal tənziflə barmağımı sarıyıb, müalicə sexinə göndərdi. Orada gül kimi xanımlar barmağımı yuyub sarıdılar.
Başın ağrıdımı duxdura getməli idin. Ora belədi. bizim kimi təzək yandırmırlar ki. Qaz yandırırlar.
Şaman Çirovun Əbutalibin son sözünə inanmadı. Onun zehnində evdə saxladıqları, yumurtasından və ətindən istifadə etdikləri «qaz» canlanırdı. Qazı yandırmaq olarmı? əlbəttə yox. Bəlkə onun tükün yolub yandırırlar? yox bu ola bilməz. Bəlkə oranın qazının ağzından od püskürür? Şamanın bu cür fikrə gedib dumuxması Çirovunun gözündən yayınmadı.
- Çox özüvu yorma. Qaz gözə görünməz bir şeydir, hava kimi. Boru[12] ilə gəlir evə. Kranı[13] açıb kibritlə yandırırsan. Gömgöy və çox iti alovu olur.
Çirovun sonrakı görüşlərdə də Bakıdan danışırdı: orada kəndlilərlə fəhlələr birləşib hökuməti ələ alıblar. Madam ki burada da belə bir hökümət yaranmayıb, qara günümüz bizlə var.
Kəndlilərlə fəhlələrin birləşməsi isə Kahralanda Məhəmmədvənd gildə dəstə başçısının sözlərini xatırladırdı. Şaman artıq Bakıdan, Şurəvidən başqa bir şey düşünmürdü. Ana dilində dərs oxumağı kəndlisi Sərdar dayı da ona demişdi. Çirovun Əbutalib hər danışığının sonunda «kül mənim başıma, niyə bozbelit[14] alıb orda qalmadım?» deyə özünü danlayırdı.
Bayramdan beş-on gün sonra Çirovun Əbutalib yenə də Şamanın yanına gəldi. Onda həmişəki əhval-ruhiyyə yox idi. Şaman onun qabağına çay qoydu. Kefini soruşdu. Yenə o taydan, Bakıdan danışmağını güdən Şaman hətta bəzi suallar da verəcəkdi. Lakin Çirovun içinə dalmışdı. Görünür ürəyində götür-qoy eləyirdi. Qabağındakı çay soyuyub buza dönsə də sanki içmək fikrində deyildi. Onun yanında özünü bir şagird kimi aparan Şaman Çirovunun fikrini qırmaq istəmirdi. Axırkı dözə bilmədi:
- Bir təhər görünürsən Əbütalib əmi - deyə soruşdu.

[12]Lülə.
[13]Su şiri.
[14]Pasaport, sicilli deməkdir.

Çirovun birdən özünə gəldi. Buza dönmüş çaydan bir qurtum içib stəkanı nəlbəkiyə qoydu və çox cidddi bir görkəm alaraq edi:
- başımızı qınımıza çəkmişik, heç nədən xəbərimiz yoxdur. Arın-arxayın fil qulağında yatmışıq. Yoldaşlarımıza divan tuturlar...
Haradan başlayacağını müəyyənləşdirmək üçün sözünə ara verdi. Şamanın maraq alovunda yanan sual dolu baxışlarını süzdü. Özünü ələ alıb dedi:
- Abasqulunu tutublar.
- Hansı Abasqulunu?
- Qasımxanın atlısını.
- Nə üstə?
- Hələ qəti məlum deyil, amma deyilənlərə görə Mehrivanın mülkədarı Tumar bəyi cəzalandırdığına görə...
Şamanın fikri dörd ay bundan əvvəl Ərdəbildən gələndə Abasqulu ilə ikili səhəbət zamanına getdi:
... Sarabın yaxınlığında qarla örtülmüş yolun darısqal olduğuna görə iki- iki getməli oldular. Başçı ilə onun köməkçisi qabaqda, Abasqulu ilə Şaman isə arxada gedirdilər. Mehrivan turşuna yetişəndə Abasqulu qəsəbənin yolunu ona göstərərək Şamana dedi:
- Bax, bu yol Mehrivana gedir. Burada yaxşı və qiymətli bir ov var. Onu özüm vuracağam. Adı Tumar bəydir. Qəddar mulxavalardan biridir. Rəiyyətlərə göz verir işıq vermir. var-dövləti başdan aşsa da ağa-nökəri kimi davranır. Amma yumurtadan yun qırxan Tumar nəzmiyyə məmurlarına son dərəcə əli açıq və səxavətlıdır. Onlara qonaqlıq verir, qumar və tiryək təşkil edir. Pul alsın deyə öz nökərlərini də cərmələyər. Qışı Təbrizdə, Sarabda olur. Yazın gözü açılanda Mehrivana gəlir. İki nəfər tüfəngçisi var. Onlara minik vermir, özüylə faytonda gəzdirir. Beş-altı gün bundan qabaq rəiyyətləri Qasımxanın yanına gəlmişdilər. Mən özüm də Qasımxana xəbrdarlıq etmişəm. Bu murdara qulaqburması verməli olduğumuzu demişəm...
Şaman, Çirovun Əbutalibin eşidəcəyi bir səslə «demək Abasqulu bəy dediyini eləyib. Kişi sözünün üstündə durmalıdır dəəə»- deyə zümzümə elədi. Çirovun sözünü davam etdirdi:
- Yazın gözü açılanda Tumar bəy sifariş göndərir ki, Mehrivana gəlirəm, rəiyyətlər ev-eşiyi sil-süpür eləyib hazırlasınlar. Bunu eşidən Abasqulu tez Qasımxanın yanına gedib şəraitin yarandığını bildirərək deyir:
- Bax, özü, öz ayağı ilə gəlir. Hələ çöl-bayır sakitlikdi. Bu fürsəti əldən vermək olmaz. Səndən bir icazə istəyirəm, bir də iki nəfər tüfəngçi. Qalanı öz boynuma.
Qasımxan fikrə gedir. Abasqulunun sözləri ağıla batan idi. Amma necə deyirlər; «iki iş var, bir əməl». Tumarı belə bir şəraitdə öldürmək su içmək kimi asan idi. Lakin nə nəticə verəcəyini bilmək çətin idi. Axı əslində Qasımxan dəstəsi ilə nəzmiyyə arasında bir növ balans, müvazinət mövcud idi. Nəzmiyyə Qasımxanın işlərinə müəyyən qədər göz yumurdu. Təbrizlə əlaqənin asan olmadığına görə

nəzmiyyə bir növ «dəymə mənə, dəyməyim sənə» prinsipinə riayət edirdi. Buna görə də Qasımxan kiçik mülkədarlara təzyiq göstərməklə onları bəzi güzəştlərə getmək məcburiyyətində qoymuşdu. Tumar bəyi isə kiçik və tələ-tülə mülkədarlardan deyildi. Onu öldürüməsinə nəzmiyyə laqeyd qala bilməzdi. Bundan əlavə Qasımxan gizli fəaliyyətə keçsə idi. yoxsullarla əlaqəsini tam itirəcəkdi. Xalqla əlaqədə olmayan adam, dəstə isə məhv olmaq məcburiyyətindədir... nəhayət Qasımxan Abasquluya «yox, hələ vaxtı çatmayıb» deyir. Əbasqulu isə «haçanacaq nəzmiyyə məmurlarının nazı ilə oynayacağıq?» deyir və Qasımxanın yanından çıxır.
Çirovun sözünü davam etdirərək dedi: Abasqulu Qasımxanın yanından çıxıb özüynən iki nəfər də götürür və Mehrivan yolunda xanın faytonunun qabağın kəsir. Xanı və onun tüfəngçilərini güllələyir. Faytonçuynan işi olmur. İki gündən sonra nəzmiyyə məmurları onu yaxalayır.
Şaman, bəs niyə aradan çıxmır deyə Çirovundan soruşduqda Çirovun təəssüf və danlaq ifadəsilə dedi:
- Onun böyük səhvi də elə budur. Əvvələn heç olmasa faytonçunu da özüylə aparmalı idi. İkincisi əlindən elə bir xəta çıxan adam həndəvərdə qalmamalı idi.
Amma; Çirovun bir udqunduqdan və köksünü ötürdükdən sonra sözünü davam etdirdi:
- Amma məsələ tək bununla bitmir. Əmin amansızlıq xanların, mülkədarların zülmünə qarışıb millətə divan tutur. Səmyanda günün günorta çağı ovdan qayıdan Xan oğlu Mixək adlı bir gəlini kəndin içində güllələyib öldürür. Sərbənddə...
Çirovun sözünə bir az ara verdi. Şamanın reaksiyasını güdürdü. Şaman isə bir tərəfdən maraqla dolu baxışları ilə macəraların qalanını bilmək istəyir. Digər tərəfdən isə pis xəbər eşidəcəyi ehtimalından son dərəcə nigaran idi. Çirovun sözünü davam etdirdi:
- Srəbənd xanı bir rəiyyəti ailəsinin gözü qabağında ağaca bağlatdırıb şallaq vurarkən pencəyi çiynindən suruşur. Rəiyyətin arvadı tez götürüb çırpdıqdan sonra ağanın çiyninə salır... Çirovun birdən Şamana döndü:
- Hətəmi tanıyırsan dəəə?
- Hansı hətəmi?
- Kəndlüzü deyirəm, Musa oğlu.
- Hə, niyə tanımıram, sadənin biridir.
- Elə sadəliyinin güdazına gedib.
- Nə olub bəyəm?
- Şaysəvənlər Bədəl yolunda güllələyib öldürüblər.
Çirovun sonra macəranı Şamana təfərrüatı ilə danışdı və artırdı:
- Bala iş bununla da bitmir. Deyilənlərə görə Hacı Rəfət Mirzə Məcidin razılığı ilə Hacıtapdığa bildirib ki, «Şamanın torpaqlarını Salmandan ala bilsöz sözüm yoxdur». Bu da onların artıq hücuma keçmək fikrində olduğunu göstərir.
Çirovun nəhayət son sözünü deməli oldu:
- Abasqulu ilə ən çox əlaqədə olan adam sən idin. Yaxalansan qabaqkı macəraların

üstü açılacaq və ən azı Məhəmmədvənd artıq Ərdəbildəki fəaliyyətini dayandırmalı olacaq. doğrudur, gülləni Abasququlunun gözünə vurasan ağzını açmaz. Amma atalar demişkən ehtiyat igidin yaraşığıdır. Bir saata kimi bütün cər-cəməyivi yığışdır. Səni başqa yerə aparmalıyam...
Noruz bayramından sonra Çirovun Əbutalib yeni bir xəbərlə Şamanın yanına gəldi. O, Abasqulunun edam xəbərini gətirmişdi. Bu xəbər Şamanı tamamilə sarsıtdı. Özünü tam yalqız hiss edirdi. nifrət bütün varlığını bürümüşdü. birinci baxışda daha çox təcridxanaya oxşayan otağın divarları onu sıxmağa başladı... Çirovun bütün bunları duyur və onun yaşadığı məqamı başa düşürdü. O yaxşı bilirdi ki, mübarizədə belə məqamların olması təbiidir. İnsan bütün əzab əziyyətlərə qatlaşmalı və özünü itirməməlidir. Şamanı həmişə bala deyə çağıran Çirovun bu dəfə adı ilə və bir yaşıd tərəf xitab kimi çağırdı:
-Şaman! atalar deyib «çünki oldun dəyirmançı, çağır gəlsin dən koroğlu». Mülkədarlarnan, xanlarnan, bəylərnən tərəf düşən adam belə günlər də görməlidir. Könlü balıq istəyən künəsin soyuq suya vurmalıdır. doğrudan da Abasqulu kimi adamlar ölməli deyillər. Amma bir də var ki, nəzmiyyənin qabağında diz çöküb yalvarasan, yada kişi kimi öləsən. Əlbəttə Abasqulu kişi kimi öldü. biz onun yolunu davam etdirməliyik... Əsl söz yadımdan çıxmasın. yoldaşlar sənin Təbrizdə qalmağını məsləhət bilmirlər. Odur ki, Ərdəbilə dönməli və iki üç gün orada qalıb vəziyyəti öyrəndikdən sonra Şimala, Şahıya getməlisən...

## 0.11 Yeddinci hissə

Fərvərdin ayının sonları idi. Şamanın iki buğda yeri sürülməli, birinə xaşa, birinə isə qaradənə əkilməli idi. Əlbəttə yerin şumlanması həmişə payızda olur. Yazda isə pərçim kəsilir və tumlandıqdan sonra yalnız mala verilir, sonra da arxmərz çəkilirdi. Yanan dərzlərin qaratını və üstəlik cərimısini artıqlamasıcaq alan Hacı Rəfət Şamanın torpaqlarını Salmanın sərəncamına verməli olmuşdu. Salman da Zərinin iki qızını və bir oğlunu evində saxlayır, torpaqları da onların adına əkmək qərarına gəlmişdi. Amma necə deyərlər iki iş var idi, bir əməl. Adəta torpaq sağır və yetim uşaqların əlində qalmır, imkanlı adamlara verilirdi. elə adamlar da camaat arasında zalım və qəddarlıqla tanınırdı. Belə hallara yol verməz olan Salman iki seçim arasında qalmışdı: ya başqa qəddarlara qoşulmalı, ya da müvəqqəti olaraq əkdiyini biçdirməli idi. Oruşan küləyə düşüb öləndən sonra bu işi çox asanlıqla görmüş və neçə il əkdikdən və Ücünün əli ağac tutduqdan sonra arada heç bir giley-güzar olmadan torpaqları yiyəsinə qaytarmışdı. İndi isə vəziyyət tamamilə fərqli idi. Ağa o yerlərin bir daha Şamana qaytarılmasına yol verməzdi. torpaqların Hacı Tapdıqla taran kimi canavarlara verilməsini də özünə sığışdıra bilmirdi. nəhayət Salman müvəqqəti də olsa öz abırı ilə sövdələşməli olmuşdu. Təsadüfi deyildi ki, Şamanın otunu sayıb alıcıya təhvil verəndə Xanverdi

oğlunun sualına çox kəskin bir cavab verərək demişdi:
- Əşi, gəl əyri oturaq, duz danışaq. Şamanın yerin kim sürüb? mən. kim əkib? mən. kim suvarıb? mən. kim biçib? kim daşıyıb? mən...
Salman sözünə ara verdi. Xanverdi oğlu hər bir sualin cavabını başı ilə təsdiq etdikdən sonra sözünü davam etdirdi:
- Başına dönüm. İndi əkib becərdiyim məhsulu, bəhrəsini verdikdən sonra satmışam. Buna icazə istər bəyəm?
- Bəs camaata nə deyəcəksən. Hamı bunu Şamanın otu bilir. Özün deyirdin Şamanın bir çöpündə də gözüm yoxdur...
- Camaata nə düşüb? qoy Şaman desin dəəə.
Salmanın şəxsiyyəti, heç kimin malında, əlbəttə Şamanın torpaqlarında gözü olmaması Hacı Rəfəti düşündürürdü. Şaman sözsüz-suvsuz məntəqədən çıxmışdı. Bu, ağıla batan deyildi və necə deyərlər burada bir əmma var idi. Hələ böyük çilə qurtarmamış Hacıtapdığın Pirətməliyə gedib «ağa, başuva dönüm inanma, Salmanla Şaman höbülləşib[15]» deyəndə Hacı Rəfət az qala qəti şəkildə inanmışdı. Amma bir tərəfdən də istədiyi qaratı və cəriməni almışdı. torpaqlar hal hazırda Salmanın əlində idi. Tutaq ki, neçə ildən sonra Şaman qayıdacaq və öz torpaqlarına yiyə duracaq. onda mülkədar da vəziyyətə baxar nə etmə olduğunu müəyyənləşdirər. Atalar demişkən su gələndə yolun tapar. Amma məsələ tək torpaq deyildi. Şamanın kənddə olmasının özü rəiyyətləri şirnikləndirəcək. Daha doğrusu rəiyyətlər ağanın sözünə baxmayacaq. Bütün bunları götür-qoy edən Hacı Rəfət ehtiyatla davranmalı Hacı Tapdıq kimiləri Salmana qarşı sövq etdirməli idi. Buna görə də Hacıtapdığa pişik yolu verdi:
- Salman keçən ilin qaratın, cərimənsin ödəyib. Ala bilirsizsə alın, əkin ...
Tapdıq cavabını almışdı. Artıq ağanın qalan sözlərini eşitmirdi. Buna görə də Hacı Rəfət icazə vermək həmən qapıdan çıxmışdı.
O gündən etibara Hacıtapdığın davranışı tamam dəyişmişdi. Özün Şamanın torpaqlarının sahibi kimi aparırdı. «Salman o torpaqların həndəvərinə getsə boğazın üzərəm» deyirdi. Hətta deyilənlərə görə Şaysəvən başçıları və quldurlarla da görüşmüşdü. kim bilir bəlkə Hətəmin öldürülməsinin arğacı da ondan keçirdi. Çünki ağzı son dərəcə boş olan Ücü Hətəmin öldürülməsini eşitmək həmən «Hacı əmim dediyin eləyəndi» demişdi...
Bahar bütün varlığı ilə cilvələnirdi. Səhərlər və axşamlar qoyun-quzuların mələrtisi kəndi doldururdu. Torağaylar oxuşa-oxuşa göyün dərinliklərinə hopurdular. Qışdan çıxmış xaşa yarpaqlarının qırışığı açılırdı. Neçə ay çöl-bayıra çıxmaq imkanı olmayan və vaxtı nağıl tapmaca ilə sovuşduran əhali əmək ehtirasında yanırdı. Öküzləri yaxın yerlərdə xamdan çıxırırdılar. Yaxın yeri olmayanlar isə Gülağanın yerini sürürdü.
Salman öküzləri xamdan çıxardıqdan sonra özünə bir xaşa, bir də bir yazlıq arpası

[15] Sovdalaşmaq, planlaşdırmaq

əkdi. ertəsi gün Şamanın yerlərini sürüb əkməli idi. Lakin ta bir aydan bəri ağızlara düşən Tapdığın, Taranın və Mirzə Məcidin rəiyyətlərinin bu işə zorla da olsa yol verməyəcəklərini nəzərə almaya bilməzdi. Buna görə də öz adamlarını şama çağırıb məsləhətləşməli idi. Salman dava-dalaşla işi olmayan bir adam idi. Lakin zorakılığa və haqsızlığa dözən adam da deyildi. Qabaqkı vəziyyət olsa idi mütləq Hacı Rəfətə şikayət edəcək və onun göstərişi ilə gedəcəkdi. Amma bir il ərzində baş verən hadisələr onu ağalardan, necə deyərlər məyus eləmişdi. birinci məsləhətçisi olan Güllübəyim isə hər dəfə sözü düşəndə «öldü var, döndü yoxdur» deyə qəti qərarını bildirmişdi. Bir dəfə demişdi:
- Kişi! ya gərək əvvəldən yaxanı qırağa çəkib arsızlıqla dolanaydın, Hacı Rəfətin dilsiz-ağızsız rəiyyəti olaydın. Ya da atalar demişkən «gövlü balıq istəyən künəsini soyuq suya vurmalıdır»...
Salman onun sözünü kəsmişdi:
- Atalar onu da deyib ki, «qeyrət igidi ölümə verər». Buna necəsən?
Güllübəyim isə güzəştə getmək fikrin də deyildi:
- Atalar burada yersiz qeyrəti nəzərə alıb və «ehtiyat igidin yaraşığıdır» deyiblər. Sən əvvəldən Şamana həmi durubsan, indi də həmi durmalısan, «çünki oldun dəyirmançı, çağır gəlsin dən koroğlu».
Güllübəyim toyuqlardan dördünü kəsib şorba bişirdi. Qonaqlar şam elədikdən sonra Səlidayı məsələni ortaya qoydu:
- Sabah Şamanın ağdaşdakı yerini sürüb xaşa əkməliyik. Bu, sözün bir tərəfidir. İkinci tərəfi ondan ibarətdir ki, Hacı Tapdıqla Hacı Taranın adamları davaya hazırlaşıb. Məncə Hacı Rəfət və Mirzə Məcid onlara pişik yolu verib... Siz nə deyirsiz? yeri əkək, yoxsa onlara təhvil verək?
Əlbəttə Səlidayı «onlara təhvil verək» sözünü adamlarını sınamaq üçün deyirdi. Çünki Onsuz da Güllübəyimlə «öldü var, döndü yoxdu» -deyə qəti qərara gəlmişdi.
Birinci Polad dilləndi:
- Məşəd Salman nə deyirsən? təhvil verək nədi, bəyəm ölmüşük ağlayanımız yoxdu. Düşmən qabağından qaçmağı mən qeyrətimə sığışdıra bilmərəm...
Fəttah onun sözünü kəsdi:
- Polad əmi duz deyir. Zərinin yetimlərini tək qoymaq namussuzluqdu. Sabah mən gedim o yeri sürüm, Hacı Tapdıqla Hacı Taran nə qələt eləyir. Kənd arasında danışmaq asandı. Amma «ağ gö..., qara gö... Hamamda bilinər». Hamı vəsiyyətin eləsin. Atalar demişkən atın quyruğun düyünləyib evdən çıxacayıq. Öldü var döndü yoxdu.
Rəhmət Fəttahın sözünü kəsdi:
- Başıma dönsün, boynunun ardın görsə Şamanın torpaqlarını da görər...
Sonra sabahın planını hazırladılar:
Səhər, gün çıxmamış iki xışalat götürüb evdən çıxmalı idilər. Rəhmətlə Azı yeri şumlamalı və davaya qatışmamalı idilər. Qalan adamlar arx-mərzdə pusmalı və gələnlərin qarşısını almalı idilər. Salman iclasa yekun vurmaq istəyəndə qapı

çalındı. Səlim qapını açmağa gedəndə Salman «kim olduğun bilməyincə qapını açma» - deyə tapşırdı. Çox keçmədən heç kimin gözləmədiyi Şaman içəri girdi. Salmanın çırağına sanki yağ töküldü. Ağsaqqal kişi yerindən dik atılıb Şamanın boynunu qucaqlayıb üz-gözün öpdü. O birilərlə də görüşüb öpüşdükdən sonra əyləşdi. Güllübəyim süfərə salıb dedi:
- Bala! əvvəl bir iki tikə ye, sonra danış görək haradan gəlib hara gedirsən?
Şaman sürətlə şam elədikdən sonra bu qeyri-adi qonaqlığın səbəbini soruşdu. Səlim bütün macəraları danışdı...
Dan yeri sökülüb günəşı oyadarkən Azı ilə Rəhmət öküzləri givləyib Ağdaşa tərəf sürdülər. Şaman, Səlim, Polad, Sərdar, Ağaməmməd və ... ibarət səkkiz nəfərlik ordu ilə səd arxında püsürdülər. Onların hamısı vəsiyyətini eləmiş və necə deyərlər atın quyruğunu düyünləmişdilər. Sol qollarını ağacın qayrışısına vermək üçün dolaqla bərkitmişdilər. Yer sürənlər cüt çubuğundan əlavə xışalatın qoluna dava ağacı da bağlamışdılar. Hətta papaqlarının altından başlarını sarımışdlar ki, ağac dəysə hələ-hələ yarılmasın. Səlidayının davaya qatışmasına gücbilla ilə mane olmuşdular. Güllübəyim isə «gedin, allaha tapşırdım» - deyə onları yola salmışdı.
Günəş ufuqdən boylanıb Zəri saçaqlarını aləmə yaymağa başlayanda Hacı Tapdıqla Taran nə baş verdiyindən xəbər tutdular. Dərhal adamlarını toplayaraq Ağdaşa tərəf göndərdilər. Onlara «qorxmayın, onlar azdırlar. Ölümlərinə vurun. Qanları bizim boynumuza» - deyə tapşırdılar. Ücü, Nəci, Dadaş, Oruc, və ... 20 nəfərdən ibarət bir dəstə əllərində ağac, bel, yaba və dərgəz davaya, özü də qalib gəlməyə getdilər. Qaça-qaça və tələsik gedən dəstə Ağdaşa yaxınlaşdıqda yer sürən Azı ilə Rəhmətdən başqa bir şey görmədilər. Arxayınlaşan dəstə Ağdaşa yetişəndə arxın içindən çıxan dəstə ilə üzbəüz oldular. Şaman Nəciyə aman vermədi. Bir ağacla onun başını yardı. Səlimin qarşısında aciz qalan Ücü beli atıb qaçdı. Səlimin ağacı isə Dadaşın başını yardı. Döyüş qızışdı. İki qat artıq olan Tapdığın adamları Şamangili mühasirəyə aldı. Onları sıxışdıraraq öküzlərin yanına gətirdilər. Hələ də kənddən tapdığa kömək gəlirdi. Hətta Hacı Tapdıqdan acığı gələn adamlar belə yelin onun tərəfindən əsdiyini görüb Şamangilə qarşı davaya qoşulurdular. Azı və Rəhmət vəziyyəti belə gördükdə cütü dayandırıb ağacı əllərinə aldılar və pencəklərini bəlgə kimi qollarına doladılar. İntiqam odunda yanan, lakin oğru pişik kimi qorxaq olan Ücü Şamandan intiqam ala bilməyəcəyini duyub acığını öküzlərdən çıxmaq istədi. Birinə yaxınlaşdı. Nəci kimi Ücünün da cəzasını ovcuna qoymaq istəyən Şaman onun öküzlərə tərəf getdiyini gördükdə yenə də qaçır deyə hələlik fikrindən yayındı. Lakin Ücü sarı öküzün burnunun üstündən bir ağac çəkdi. Heyvanın burnundan qan fantalladı. Səlimlə arxa-arxaya vuruşan Şamanın gözündə dünya qaraldı. ondan ayrılıb Ücünü izlədi. Öküzü vurduğundan keflənən Ücünün kürəyi üzünü bir ağac çəkdi. Ağac Ücünü elə tutdu ki, davanın sonuna qədər ağabalası kimi yerdə əyləşdi. Səlimlə Ağaməmmədin başı yarılmışdı. yorğunluq Şaman gili dildən salırdı. Oruc Fəttaha ağac çalanda Fəttah öz ağacını onun qarşısına verdi. Ağac sınıb Fəttahın əlindən yerə düşdü. Əlinə

fürsət keçən Oruc ikinci ağacı onun başına çaldı. Artıq əlində heç nə olmayan Fəttah əllərini başının üzərinə aparıb barmaqlarını bir-birinə keçərək ağacın qabağına verdi və bununla da başının yarılmasına mane oldu. O, cəld tərpənərək özünü Orucun üstünə ataraq onun qırtlağından yapışdı. Arxadan vurub başını yarmasaydılar, onu boğacaqdı. Kaş tüfəngi gətirəydim deyə son dərəcə təəssüfləndi. yorğunluq kulminasiya həddinə çatmışdı. Salmandan gizli olaraq evdən çıxan Güllübəyim özünü yetirdi. Davanın içinə girib yaylığını başından açıb yerə atdı. şaqqıltısı fələyin qulaqlarını deşən ağaclar göydəcə donub qaldı. Hacıtapdığın bağırtısını vecinə alan olmadı. Onlar qadının başının açılması namussuzluqdur deyə ağacı atıb kəndə doğru yönəldilər. Şaman özündən böyük olan Azı ilə Rəhmətə «şumlamanı davam etdirin»- deyə əmr etdi...
Axşam qapı çalındı. Xanımgül içəri girib Güllübəyimdən «pox yeyib mən nənəsinən» deyə oğlunun Səlidayıya qarşı davaya qarışmasından üzr istədi. «beyti qənim olmuşlar onu yoldan çıxardıblar, sütümü halal eləmiyəciyəm» dedi. Ertəsi gündən vəziyyət tamam dəyişmişdi. Şamanın davada olması Salman haqqındakı dedi-qoduya son qoymuşdu. Demək olar ki, Hacı Rəfətin və Mirzə Məcidin rəiyyətlərinin hamısı Salmanın, dolayısı ilə isə Şamanın tərəfini saxlayırdı. Üç- dörd gün ərzində Şamanın yerlərini də əkdilər.
Şaman Səlidayı ilə məsləhətləşdikdən sonra Polad əmi, Fəttah, Ağaməmməd, Sərdar və bir iki nəfərlə birlikdə Şahıya yola düşdülər...
Astarada gecələyib sabahısı yük maşınından-zaddan tapıb Rəştə gedəcəkdilər. yolun qırağında oturub maşın güdməli idilər. Lakin maşın yoxa çıxmışdı. Gün ortaya yaxın bircə maşın gəldi. Amma yer olmadı. Bir nəfər Astaralı onlara yaxınlaşıb dedi:
- Gəlin Ənzəliyə qədər aparım. Ordan o yana maşın çox olar.
Şaman, «maşının var?» deyə ondan soruşduqda dedi:
- Yox, məndə maşın nə gəzir, qayıqla aparacağam. Maşın beş qırana aparır. Sız adama iki qıran verərsiz.
Şaman nəm-nüm eləmək istədikdə Polad, «olsun» dedi və hamısı dəniz qırağına getdilər. Onlar qayığa oturdular. Qayıqçı qayığı sahildən itələyə- itələyə bir metr dərinliyə apardıqdan sonra özü də minib avar çəkməyə başladı. Dalğanın şəpələri qayığı taxta parası kimi oynadırdı. Poladdan başqa hamısı qorxurdu. Dalğa qayığı bir tərəfə əyəndə onlar qorxularından o biri tərəfə elə əyilirdilər ki, az qala qayığı çevirəcəkdilər. Qayıqçı onlara tapşırdı ki, əsla qorxmasınlar və öz yerlərində otursunlar. Qayıq 150 metr sahildən aralandıqdan sonra nisbəta aramlaşdı. Polad əmi qayıqçı ifadəsilə dedi:
- Dərin yerdə ləpə olmaz. Hələ qoy yelkəni açsın maşından da qıvraq gedəcək!
Doğrudan da elə oldu. Qayıq maşın sürəti ilə getməyə başladı. Onlar artıq qayığa öyrəşmişdilər. Ürəkləri qarışmırdı, qorxuları tökülmüşdü. Hətta kasanı qayıqçıdan alıb qayığın cırıqlarından içəri dolan suyu götürüb dənizə tökürdülər. nəhayət ikindi çağı Ənzəliyə yetişdilər. Qayıqçının 16 qıran kirəsini verdikdən sonra gecəni

qalmaq üçün ucuz yer axtarmağa başladılar və nəhayət adama beş şahı verib bir kəlləpaçaçı dükanında qaldılar. Kəlləçi onları dükanın içindəki balkona çıxardı, özü isə səhərə kimi aşağıda kəllpaça ütməyə başladı. Çınzırıq qoxusu onların amanını qırırdı. Lakin dözməkdən başqa çarə yox idi...

## 0.12 Səkkizinci hissə

kəndin cənub qərb ucqarında, balıxlının üzərinə salınmış taxta körpünün qulağındakı möhrə divarlı evin adamları hələ də yatmamışdılar.
Göyün dik ortasında qərib-qərib baxan on dörd gecəlik ay öz gümüşü işığı ilə qaranlığı sarsıtsa da əşyalar mübhəm fiqurlar kimi görsənirdi.
Mordad ayının qısa gecələrində oğrudan-əyridən arxayın olan itlərin hərdən bircə ağız hürməsi təbiətə çökən sükutu hətta diksindirmirdi.
İlk axşamdan qurultu yarışına girmiş qurbağalar gecənin yarıdan keçdiyini duyaraq səslərini tamam kəsmişdilər.
İki-üç kilometrlikdə «Çayqarışan» kövşənində suvaranların səsləri belə sükutun bir hissəsinə çevrilmişdi.
Kəndin dörd tərəfindən gələn dörd nəfər özlərini divarın solğun kölgəsinə verərək siyə-siyə Salman gilə gedirdilər.
Salman gil hələ qaş qaralanda şam eləyib çoluq-cocuğu yatırtmışdılar. Güllübəyim samovara od salanda uşaqlarının sorğu dolu baxışlarına cavab verərək «sabah iməcimiz olacaq» demişdi. Uşaqlar isə ertəsi gün südlü plov, ya da xəşil yeyəcəklərini bildikdən sonra fərəh hissi ilə mürgüləməyə başlamışdılar.
Arvad yunun yumşaq hissəsindən seçib darayır və əlçimləri özünə məxsus səliqə ilə bir-birinin üstünə yığırdı. Böyrünə sığınan pişiyi dirsəyi ilə nə qədər vurub qovsa da bacara bilməmişdi.
Kişi isə uşaqların çarığının şirisini dəyişdirir, çarıqbağıları yoxlayır, hərdən də öz-özünə danışırmış kimi «yazıq uşaq neynəsin, çarıqda çarıqlıq qalmayıb aaa… atası yansın yoxsulluğun»-deyir və hirsindən əlləri əsirdi.
Qaynamaq üzrə olan samovarın sızıltısı, yunun daranmasından törənən kar səs və pişiyin xorultusu necə də bir-birinə uyğun gəlirdi. Evin yuxarı başında sıra ilə və paltarlı yatan uşaqların yuxusuna birə də haram qata bilmirdi. Salman kişinin ürəyindən min bir fikir keçirdi. Beşlik lampanın xodu çəkilməsəydi, alnının bəza sıxlaşan, bəzən isə açılan qırışlarından, pırpızlı qaşların altındakı gözlərinin qıyılmasından və ən çox boynundakı damarın qabarmasından və burnunun nısıltısından ürəyindəki fikir-xəyalı asanlıqla oxumaq olardı. Barmaqları da beyninə tab olaraq bəza dayanır, bəza isə sürətlə çalışırdı.
Kişi hərdən altdan-altdan Güllübəyimə baxır və onun simasından heç şeyin sezilmədiyini görüb, «bəlkə arvadlar qayğı çəkmir, bəlkə onların heç vecinə də deyil, yoxsa… yox, ola bilməz, ailə məişətini vecinə almayan adam ağıllı sözlər danışa bilərmi?»

deyə düşündü və arvadının ona hayan olduğunu xatırladı. Əkinlərini dolu vurub yerlə yeksan eləyəndə Salmanın boğazından su da getmədi. kişi ölüm halına gəlmişdi. Güllübəyim ərini xəlvətə salıb «kişi uşaqları qorxutma, özünü əldən salma, nə xəbərindir? yüz fikir bir qayğunu ödəməz» demişdi. Salman isə bütün acığını arvada töküb ürəyini boşaltmışdı. O, bircə bunu bilmirdi ki, Güllübəyim kimi qadınlar ürəyini açıb ağartmır. Gizlicə ağlasalar, kişiyə, uşağa yansalar da zahira özlərini toxtaq aparırlar. yoxsulluğun, həyatın bütün ağrı və acılarının, hətta təbii bəlaların belə əsl səbəbkarının mülkədar olduğunu kəskinliklə qəbul edən Salman, ağaların zülmünü seyr etməyə başladı. . .
«Yox, öldü var, döndü yoxdu» ibarəsini qəti inamla, lap ucadan deyəndə ətəyini ənənəvi şəkildə darağın altına sərdiyi palaza çırpıb çay dəmləməyə duran bibi bir anlığa yerindəcə duruxdu. Ərinə nəsə deмək istədi. Lakin Xanverdi oğlu Əvəzin səsi onun fikrini yayındırdı.
- Ay ev yiyəsi qonaq istəmirsiz?
Arvad sürətlə həyətə çıxıb qapının yan tərəfində dayandı və «keçin içəri, keçin içəri, kişi sizi güdür» deyib onlara yol göstərdi.
Hər dörd nəfər əllərindəki ağacı dəhliz divarına söykəyib ya allah deyə içəri keçdilər.
Salman onları evin cənub divarındakı bucaqda, yanbacanın görüş dayrəsindən kənarda əyləşdirdi.
Güllübəyim isə həyət-bacanı süzdükdən və heç kimin onları görmədiyindən arxayın olduqdan sonra dəhliz qapısının dallığını salıb, dır qalan qapını bərkitdi və evə girdi. «evə də xoş gəlibsiz» deyə onlara dil-ağız eləyib çay dəmlədi. Sonra lampa taqçasındakı beşliyin xodunu artıraraq» ay işığıdır, eşikdən heç nə bəllənmir» dedi və onu bu işdən çəkindirmək istəyən Salmanı arxayın etdi.
Beləliklə kəndin beş tayfasının başçıları son qərara gəlmək üçün dəyirmi şəkildə əyləşdilər.
Güllübəyim dəmlədiyi üqab çayından armudu istəkanlara süzüb qonaqların qabağına qoydu.
Çaylar içildi. İkinci çay qabaqlarına qoyulduqdan sonra Xanverdi oğlu tutun qovluğunu çıxarıb çobuğu doldura-doldura dilləndi:
- Biz bura boş yerə yığılmamışıq a, deyin görək nə eləməliyik?
Hamısı dərin nəfəs alıb Salmanın üzünə baxdılar.
- Nə üçün yığışmağımızı hamımız bilirik, bu haqda bir-bir, iki-bir danışmışıq. Hamımız demişik ki, bu il ağaya bəhrə verməyəcəyik. yenə də sözü olan varsa desin. . .
Hamı razı olduğunu başı ilə bildirdikdən sonra sözünü davam etdirdi:
- Bircə qalıb and içməyimiz. Mən öz fikrimi çoxdan eləmişəm. Atımın quyruğunu düyünləmişəm. Öldü var, döndü yoxdu.
- Elə isə yubanmağa gəlməz, nəyə desəz and içək.
- Nəyə and içəcəyik, Qurana, Qurandan savay nəyə and içərlər.
- Qurana and içəmək bir az, necə deyərlər çətindir axı, birdən zərr çəkərik...

Salman kəskin bir ifadə ilə sözünü kəsdi:
- fəqət qorxaqlar zərrin çəkər.
Xanüerdi oğlu əclasa çökən şübhə dumanını aradan qaldırdı:
- Qorxanın burda nə işi var əşi? gətirin and içək.
Salman Güllübəyimə xitaba «gətir kitabı arvad» deyə əmr etdi.
Güllübəyim Quranı məxmər parçadan tikib qırağını qaytanla bəzədiyi qovluqdan çıxarıb öpdükdən sonra ərinə verdi və başını qaldırıb göyə baxdı. O, bu baxışı ilə «ilahı, özün bu işin axırın xeyr elə» deyə dua edirdi.
Salman Quranı alıb öpdü və gözünə qoyduqdan sonra dərin hörmətlə dizi-dizi əyləşdi və qabağına qöydü. Sonra iştirakçılara xitaba dedi:
- Bu kitab şahid olsun ki, qasımlı tayfasından Əmrah oğlu Salman, kazımlı tayfasından Xanverdi oğlu Əvəz, əbilli tayfasından Göyüş oğlu Xudu, iskəndərli tayfasından Qulaşoğlu Xankişi, urustamlı tayfasından Alı oğlu Balaş ağaya bəhrə verməyəcəklərinə söz verirlər.
- Sonra dəstəmaz aldı və üzü qibləyə dayanaraq əlini Qurana basıb dedi: «mən Əmrah oğlu Salman bu Allah kəlamına və öz şərəfimə and içirəm ki, ağaya bəhrə verməyəcəym».
Qalan dörd nəfər də andı təkrar edib evdən çıxdılar. ertəsi gün belə bir xəbər ağızlara düşmüşdü:
«Ağsaqqallar əl-quran eləyib, ağaya bəhrə verməyəcəyik».
Xaşanın gəməsini yığırdılar. Gəmə yığılıb bağlandıqdan sonra ağa nökəri hardansa peyda oldu. «Allah quvat versin» desə də cavab verən olmadı. Ot bağlarını saymağa başladı. Nökərin həmişəki amiranəliyi yox idi. vəziyyətdən xəbəri olsa da üzə gətirmirdi. Bağları sayıb qurtardıqdan sonra isə gəldiyi kimi də getdi. Salman peşədürə bağını dalına atıb birini də üstünə qoya-qoya fatehcəsinə və son dərəcə ləzzətlə dilləndi: «anavun xoruzu ölsün, gör bəhrə almayıbsan»...
Hava meh olduğundan ağa nökərinə xəbər vermədən arabanı qoşub ot bağlarını kəndə daşımağa başladılar. Salman ilk arabanı kalavaya boşaldıb taya Quranda ağa nökəri yenə tapıldı. O, çox ehtiyatla Salmana yanaşdı:
-Heç eybi yoxdur, yəqin ki, havanın meh olduğunu qənimət bilib, mənə xəbər verməyibsiz. . .
Salman onun sözünü kəsdi və son dərəcə istehzalı bir cavab verdi:
- Əyə, sən hardasan, hələ desən su da içdik, amma sənə xəbər vermədik.
Nökər özünü oyana qoymayıb yumşaqlığı davam etdirdi:
- Mən bilirəm, sən bircə çöpü belə oyan-buyan eləməzsən, amma. . .
Salman əsəbiləşdi:
- Nə amma-mamma eləyirsən, adə qanımı qaraltma, get işinin dalınca.
Nökər isə yumşaqlıqla danışmalı idi:
- Mənim işim budur dəəə, bəhrəni almağa gəlmişəm.
- Boynunun ardını görsən, bəhrəni də görərsən.
Nökər ağlına gəlmədiyi bu cavabdan əsəbiləşdi:

- Verəcəksən, özüdə lap öz bəli-bəlinlə verəcəksən.
Salman əlindəki yabanı hücum vəziyyətində tutaraq tayadan yerə atıla-atıla dedi:
- Yabanı qarnuva soxmamış itil gözümün qabağından, əclaf oğlu əclaf.
Bir həftədən sonra camaat kövşənə çıxanda əmniyyələr kəndi mühasirəyə almışdı. Komander tayfa başçılarını çağırtdırdı. Onları məscid divarının dibində sıra ilə düzdü və qarşılarında var gəl eləməyə başladı. Çiyninə düzülmüş üç dənə qızılı ulduz, pencəyinin boynuna tikilmiş çatma tüfəng armı, papağının qabağına taxılmış şir-xurşid günəşin şüalarını dəhşətcəsinə əks etdirirdi. Əlini bürünc toqqalı enli qayışına taxdığı topançanın üstünə qoyub danışması işin nə yerdə olduğunu göstərirdi. Nəhayət gəlib düz Salmanın qarşısında dayandı və üzünə möhkəm bir silli vurdu. Sonra isə əmniyyələrin birindən qırmancı alıb döyməyə başladı. Güllübəyim özünü Salmanla komanderin arasına atdı. Komander Güllübəyimə xitaba sərt bir ifadə ilə dedi:
- Çəkil qabağımdan arvad, yoxsa namusumdan keçib səni də qataram bu əclafa.
Güllübəyim komanderin düz gözünə tüpürdü:
- Namusun olsaydı. . .
Lakin Salman onun sözünü kəsdi və kəskinliklə əmr etdi:
- Get evə.
Əmniyyələr kəndi mühasirəyə alanda Salmanın ürəyində nigaranlığa oxşar bir qorxu yaranmışdı. O daha çox ondan qorxurdu ki, əmniyyələr onları bir-bir dındırsın və tayfa başçılarını sarsıdaraq yumşaltsın. Lakin rəiyyətlərdə birinci dəfə belə bir təmərrüdü görən komanderin özünü ələ ala bilməməsi Salmanı çox sevindirdi. O artıq heç nədən qorxmurdu. İşin bu cur getməsi digər tayfa başçılarını da cəsarətləndirmişdi. Onlar komanderə etiraz etmək istədilər. Onların etirazı davam etsəydi, sorğu-sual başlanacaqdı və bu da yenə ağanın xeyrinə qurtara bilərdi. Ona görə də Salman bir daha dillənməli oldu:
- Heç kimin bu əclaflarla danışmaq haqqı yoxdur.
Komander bu dəfə silli və təpiklə döyməyə başladı. nəhayət son oxunu atmalı oldu. Topançasını çıxarıb Salmanı nişan aldı:
- Çıx tayaya, ver ağanın bəhrəsini.
Salman nə dindi, nə də danışdı, yerindəcə dayandı. komander hədə-qorxunu davam etdirdi. Salman son sözünü deməli oldu:
- Öldü var, döndü yoxdu.
Hədə-qorxudan heç bir nəticə almayan komander ağa nökərini çağırdı:
- Gəl, hər tayadan bəhrəni çıx, görüm kim sənə mane olur.
Beləliklə əmniyyələr kəndin bütün tayalarını söküb ağanın bəhrəsini çıxdılar və nökərin göstərişi ilə xırman yerində yekə bir taya qurdular. komander isə əmniyyələrini götürüb kənddən çıxdı.
Gecə yarısı it hürdü və dişi Əvəz qapıya çıxıb yan-dövrəni süzərkən dörd nəfərin Salman gilə getdiyini gördü.
Səhər çağı günəş üfüqdən baxanda kənddə ayrı bir günəşin çıxdığını gördü. Xır-

man yeri cəhənnəmə dönmüşdü. . .

## 0.13 Doqquzuncu hissə

Evə sarsıdıcı bir sükut çökmüşdü. Qaranlıq ağırlıqda olan bu sükut Şamanın ürəyini bərk sıxırdı. Gözləri baxırdısa da heç nəyi sezmirdi. Beşlik lampanın solğun işığı evin bucaqlarına tərpənməyən qəmli kölgələr salmışdı. Bir həftə olardı ki, hamısı bekar idilər. Bu gün isə son qıranlarını yavan çörəyə vermişdilər. Dəfələrlə qürbətdən vətənə qayıtmaq istəmişdilərsə mümkün olmamışdı. Axı üççə gün olsun belə ardıcıl işləyə bilməmişdilər. «Şahı»ya bir yük pambıq gələndə onu boşaldıb beş-üç qıran pul almaq üstündə fəhlələr bir-birinin ətini yeyirdilər...
O gün Polad kişi bir ay üşütmə-qızdırmadan sonra sanki ömrünün son günü olduğunu sezib Şamana vəsiyyət eləmək istəmişdi. Lakin heç bir zada mümkünü olmadığını bildiyi üçün yalnız, «arvad-uşağımı sənə, səni Allaha tapşırıram», deməklə kifayətlənmişdi. O, nə qədər ki, ağlını itirməmişdi, heç kimin intizarını çəkmir, yalnız gözünü tavana zilləmişdi. Ağlı başından çıxdıqdan sonra isə beynindəki hər bir hüceyrə öz başına çalışır, biri, «uşaqların indicə gələr»- deyə gözlərini qapıya doğru çəkir, o biri isə dost sorağını pencərədən almağa sövq etdirirdi. nəhayət hüceyrələr də öz qüdrətini itirdi və o intizar gözlər axındı.
Şamanı Polad kişinin ölümündən çox onun əbədi olaraq qürbətdə qalacağı, eligünu basdırılan qəbristanlıqda deyil, yad torpaqda basdırılacağı sarsıdırdı. . .
Polad kişi Şamanın atalıq qayğısına çox qalmışdı. Onun əli oraq tutandan, işə yatandan etibara özü ilə biçinə, fəhləliyə aparır, işin tərz-tövrünü öyrədirdi. Poladın təkcə Şamana deyil, hamıya yaxşılığı keçirdi. Kəndin bütün xeyr-şərində olurdu. Şaman dəfələrlə öz-özünə «doğrudan da Poladmı olmasa, kəndin toyu, yası və hamısından daha əhəmiyyətlisi, məhərmliyi nəcür olar?»- deyə düşünmüşdü.
O gecə də dünyanın o başında, «Şahı»da Şaman gil beşlik lampanın dövrəsində oturub yerə baxır və əlləri ilə didilmiş həsirdəki qamışları əlləşdirirdilər. Şaman Polad kişi ilə keçirdiyi bütün anları xatırlayır və dünyanın bu qədər vəfasız olduğuna acıyırdı.
O, lap uşaqlıqdan bir qara köynək, bir də bir zəncir arzulayırdı ki, məhərrəmlikdə zəncirçilərə qoşulsun. Yoxsul uşaqların zəncir-qara almağa imkanı çatmırdı. Buna görə də anaları onlara para-pura parçadan köynək tikir, ataları isə qırıq zəncirin həlqələrini bir təhər bir-birinə uyuşduraraq zəncir düzəldirdilər. Şamana gəldikdə isə anasız olduğundan bacısı Zəriyə sığınıb ondan qara köynək tikməsini istədi. Zəri də bur-bucağı axtarıb köhnə-külədən qulları sürməyi bir köynək yüsünnü tikdi. Şaman fəxrlə «bacım mənə də qara tikir», deyirdi.
Məhərrəmliyə cəmi üç gün qalırdı. O gecə teşt qoyacaqdılar. Hər il məhərrəmliyə üç gün qalmış sinə vura-vura teşti İsaqdayı gildən məscidə aparırdılar. Məhər-

rəmlikdən sonra yenə də İsaqdayı teşti məsciddən evə qaytarır və gələn ilə kimi saxlayırdı. O gecə digər uşaqlar kimi Şaman da qara geyib məscidə getdi. Bir az oturdular, hamı gəldikdən sonra zəncirçilər öz cərgələrinə keçdilər. Onlar teşti gətirməyə gedəndə yalnız aramcasına sinə vururdular. Allahqulu şahbeyt verdi:
Gəlmişik teşt aparıb, su töküb ehsan eləyək
Kərbəla teşnələrin yad edib Əfğan eləyək.
Hamı bir səslə təkrar etdi. Aşuranı qarşılamağa gedənlər tərəfindən dərin hüzn ilə təkrar edilən şahbeyt ürəyi oxşayırdımı? yandırırdımı? indinin özündə də belə Şamana bəlli olmamışdı. Amma o teştə tökülən su üstündə bir cüt uzun qolun qələm olduğunu bilirdi. O, bu haqda bacısına sual da vermişdi. Zəri isə kiçik Şamana çox qəribə bir əhvalat danışmışdı:
«Su Fatimə Zəhra xanımın kəbinidir. Amma yezidlər onu Zəhra balalarına əsirgədilər. Uşaqlar əllərində su camı babulhəvayicin qapısına getdilər. Qeyrətli Əbulfəzl İmamdan izn aldı. Yezid qoşununa hücum edib özünü Fərata yetirdi. Ovcunu doldurub içmək istədi. Susuz balalar yadına düşdü. Suyu ovcundan tökdü və məşkini götürüb Fəratdan çıxdı. O namərdlər xəfdən çıxıb qollarını qələm elədilər. O, məşki dişində tutub sürətlə xeymələrə gedirdi. Bir zalım əlindən bir ox qurtarıb məşkə dəydi. Əbulfəzl daha xeymələrə getmək istəmədi...».
Zəri sözünü davam etdirə bilmədi. Az qala ürəyi keçəcəkdi. Gözlərindən necə də yaş süzürdü. . .
Teşti məsciddə gətirdikdən sonra Polad kişi onu öz yerinə qoyub dərhal sərin və duru bulaq suyu ilə doldurdu. Susuz olmayan uşaqlar belə su içməyə tələsir və bir-birinin başına dırmaşırdılar. Poladmı hövsələ ilə onların hamısına su verir və dalbadal «nuş imamət» deyirdi. Uşaqlar da onun cavabını «yezidə nəhlət» deyə verirdilər. Teşt qoyulduqdan sonra məsciddə gələnlər öncə teşti öpür sonra isə öz yerlərində əyləşirdilər.
Polad kişi vaxt-vaxtında teşti qalaylatdırıb tər-təmiz saxlayırdı. Su içənlər «İmam Hüseynin ehsanı» dedikdən sonra «Allah Polad kişini bizə çox görməsin» ibarəsilə onu dua edirdilər. . .
Məhərrəmin ilk gecəsi idi. Kiçik Şaman zəncir-qaranı buqçadan götürüb bacısı ilə birlikdə məscidə yollandı. Bacı-qardaş bütün gecələri birlikdə məscidə gedirdilər. Zəri hər gecə Şamana tapşırırdı ki, məsciddə dəcəllik edib Polad əmini incitməsin. Sonra ayrılırdılar. O, ikinci mərtəbədə yerləşmiş şəbistana çıxır, Şaman isə məscidə girirdi. şəbistan üç hissədən ibaərt idi:
Qızlar və təzəgəlinlər hissəsi, artıq neçə uşaq anası olmuş qadınlar hissəsi, qocaxana. Əslində şəbistanı üç hissədə tikməmişdilər, sonralar, hər kəs öz tayı-babı ilə illər boyu oturub-durması nəticəsində bu hissələr yaranmışdı. Zəri qızlar hissəsinin qadınlar tərəfində otarardı. Çünki qızların-haykuy salıb, Polad əmi demişkən məscidə hörmətsizlik etmələrindən acığı gəlirdi.
Məscid ağzınadək dolmuşdu. Allahqulu ayağa durub zəncir vurmanın açılışı olaraq «dubeyt» dedi. Sonra əyləşib, «be tabean yezid və amelane cəfa, Şemr və Hər-

mələ və Səd və İbniziyad modam hər nəfəsi bişomar lənət bad» ibarəsini həmişəki kimi təkrar etdi. Sıra ilə əyləşmiş zəncirçilər isə «biş lənət» deyə gur səslə cavab verdilər. Sonra şahbeyti başladı:
Nəhr əlqəmə, qoydu çün qədəm, Kərbəla vəziri, tacidar Əbulfəzl.
Teşnə ləblərə, su gətirməyə, canı-dildən etdi, iftixar Əbulfəzl.
Hamı şahbeyti yaxşı öyrənsin deyə iki dəfə təkrar etdi. Şaman bunların hamısını son dərəcə diqqətlə izləyır və bir-bir yadında saxlayırdı. Bundan əlavə bacısı da ona zəncir qaydalarını öyrətmişdi:
«Öz yerində əyləşdikdən sonra zəncir-qara buqçasını qabağına qoyub açarsan, zənciri öpüb gözünə qoyduqdan sonra qaranı geyərsən. Döşəmə başlamayana kimi sağ əlinlə yalnız sağ çiynınə vuracaqsan və ...»
Allahqulu ağırdan vurun deyə zəncir ahənginin pozulmaq üzrə olduğunu bildirdi. Özü isə zəncirçilərə kömək olsun deyə bir əlində kitabı tutub, o biri əlini şahbeyt ahənginə uyğun şəkildə qaldırıb, endirirdi.
Zəncir yarım saata kimi bu şəkildə davam etdikdən sonra dəstəbaşı, Bəhrəmxan Allahqulunun işarəsilə uca, gözəl və dəyərli səsi ilə hüseyn çəkməyə başladı.
Bəhrəmxan:
- Ya Hüseyn.
Zəncirçilər:
- Ya Hüseyn.
- Ya məzəlüvüm.
- Ya Hüseyn.
- Ya ətşaaan.
- Ya Hüseyn.
Allahqulu bu fasilədə nəfəsini dərib dincəlmişdi. Növhə yenə də davam etdi. Hüseyn çəkiləndə Polad kişinin vəzifəsi daha da ağırlaşırdı. Çünki uşaqlar əksər hallarda qaydanı pozurdular. O isə bütün bunları nəzmə salmalı idi. Polad əmi kiçik Şamanı çox sevirdi. Çünki o neçə ilin zəncirçisi imiş kimi bütün qanun-qaydalara riayət edirdi. Polad əmi zəncirdən sonra uşaqlara dönür və ; «baxın, balalarım siz də Şaman kimi zəncir vurun» deyirdi.
Artıq zəncirin ritmi dəyişilməli və döşəmə vurmağa dönməli idi. Bəhrəmxan ikinci dövr hüseyn çəkməyə başladı.
- Hüseyn.
- Hüseyn.
- Məzluuum.
- Hüseyn.
- Əbiəbdillaaah.
- Ya Əbəlfəzl.
- Can Əbəlfəzl.
- Ya Əbəlfəzl.
Dəstəbaşı ritmi dəyişdirmək üçün ucadan «ya allah» dedi. Bu o demək idi ki, zən-

ciri sağ çiyinə, sol çiyinə, yenə də sağ çiyinə vurub, bir an dayanmalı, sonra həmin üçlüyü davam etdirməli idilər. Hər üçlüyün özünə məxsus üçlük ibarəsi də var idi:
Bəhrəmxan:
- Hüseyn, Hüseeyn, Hüseyn.
Zəncirçilər:
- Hüseyn, Hüseeyn, Hüseyn.
- Ətşan öləəən Hüseyn.
- Hüseyn, Hüseeyn, Hüseyn.
- qardaşsız qalaaan Hüseyn.
- Hüseyn, Hüseeeyn, Hüseyn.

Dəstəbaşı bir daha ya Allah deməklə Allahqulu döşəməni başladı. Döşəmənin başlaması ilə zəncirin ritmi tamamilə dəyişdi. Artıq zəncir ardıcıl olaraq sağ və sol çiyinlərə vurulurdu. Əlbəttə döşəmənin müddəti çox uzanmamalı idi. Çünki əks təqdirdə zəncirçilər Poladəmi demişkən dildən düşəcəkdilər. Bütün bunları nəzərə alaraq Bəhrəmxan üçüncü hüseyn çəkməni başladı:
- Əbəlfəzl.
- Əbəlfəzl.
- Qolları qələm.
- Əbəlfəzl.
- Məşgi oxlanan.
- Əbəlfəzl.
- Bayrağı yatan.
- Əbəlfəzl.
- Əbəlfəzl.
- Əbəlfəzl.

. . .

Zəncirçilər bir az «Əbəlfəzl» çəkdikdən sonra Allahqulu ağlaşdırdı. O günkü ağlaşdırma İmam Hüseynin Əbəlfəzl ilə döyüş meydanında görüşməsinə həsr edilmişdi:
Nə yaxşıdır iki qardaş bədən sələmət ola,
Qucaqlaşa qəmi firqətdən oda rahət ola.

Uşaqlar, xüsusilə zəncir vurub yorulduqdan sonra ağlamazdılar. Yalnız böyükləri təqlid edərək əllərini alınlarına söykəyir, vaxtında uca səslə «ağa ya Hüseyn» deyirdilər.

Şaman o gün min yerdən yaş tökürdü. Dağ boyda Polad əmi özünü ələ ala bilmir, hönkür-hönkür ağlayırdı. Əslinə baxsan o ilin məhərrəmliyi qəribə və faciəli bir hadisəyə təsadüf etmişdi. Bakının neft quyularında işləyən beş nəfər yeycəlinin dördü erməni basqınında həlak olmuşdu. biri isə ölülərin altında gizlənməklə diri qala bilmişdi. Şamanın xəyalı o günü seyr etməyə başladı. . .

. . . Səs yayıldı ki,«məşhəd İzi» Bakıdan qayıdıb, neçə saata kimi kəndə yetişər. Uşaqdan böyüyə kimi hamı onu qarşılamağa çıxdı. nəhayət məşhəd İzi gəlib camaata çatdı. Heç kim görüşmək hayında deyildi. Hamı onun yoldaşlarını soruş-

maq istəyirdi. O, xərmən yerində arxın dikinə çıxıb sözə başladı:
«Heç kim heç kimin sorağını tutmasın. Əvvəldə mənim evim yıxılıb, qardaşım əlimdən gedib. Sonra Nurxanımın, sonra Seyidəbanının, sonra... O dinsizlər hamını qırdılar. Nə uşağa yazıqları gəldi, nə böyügə. Boylu anaların qarnını yırtıb uşağını öldürdülər. biz olan yerə töküldülər. Əlimizdə ağac qırığı da olmadı. Güllə korlanmasın deyə adamları sıraya düzür və bir güllə vururdular. Üçü ya dördü yıxılırdı. Qalanını yenə də sıraya düzüb əvvəlki kimi təkrar edirdilər. Mən beşinci nəfər idim. Güllə açıldı. birinci, ikinci, üçüncü nəfərdən keçib dorduncu nəfərin ürəyinə sancılıb qaldı. Onlar yıxıldılar, mən isə onların altında qaldım. elə zən etdilər ki, mən də ölmüşəm. Ermənilər hamının ölməsindn arxayın olmaq üçün süngünü ölülərin qarnına soxurdular və tərpənənin beyninə bir güllə çaxırdılar. Süngü mənim üstümdəki ölüdən keçib buduma və qarnıma soxuldu. Tərpənmədim. Hamı ölübdür deyə çıxıb getdilər..»
Məşhəd İzi daha sözünü davam etdirə bilmədi. Dəstmalını çıxarıb ağlamağa başladı. Qəribə bir səhnə idi. Nifrət hamını boğurdu. kişilər başlarını açıb sinə vurmağa başladılar. Şaman «demək yezid indi də var»- deyə öz-örünə düşündü. . .
Allahqulu ağlaşmanı qurtarmaq istəyirdi. Salman kişi yerindən qalxıb dedi:
Müsəlmanlar Ermənilərin əlində əsirdi. İndi elə bil üsərayi Kərbəla Şamidədir:
Təəccübəm necə tab eylədi şəhe dövran,
Ki, Lut şəhri kimi Şamı etmədi viran.
Salman kişini ağlamaq tutdu. Şəbistandan hay-küy qopdu. Urğiyyəxalanın ürəyi keçmişdi. kiçik Şaman içini çəkirdi. Aşura günü də belə bir qiyamət qopmamışdı. . .
Məhərrəmliyin beşi ya altısı idi. O gecə Zəri ilə Şaman yubanmışdı. Onlar məscidə girəndə artıq zəncir başlanmışdı. Hələ məscid döngəsinin başında idilər ki, Səlidayının səsi eşidildi:
Öpüm qoy, qaşlarından, gözlərindən, Əkbər oğlum. . .
Məşhəd Salman qocaldığına görə artıq növhə demirdi. Amma bəzən və Allahqulu olmayanda növhə deyirdi. Bu gecə də Allahqulunun su növbəsi idi. Odur ki, növhəni Səlidayı dedi.
Adət üzrə gecələr zəncir vurulduqdan sonra sinə vurulurdu. Sinə vurmada ümumiyyətlə böyük cavanlar və qol-qanadlı kişilər iştirak edirdilər. Xüsusilə bəhritəvil üçün çox enerji lazım gəlirdi. Polad kişi, Paşa dayı, Hüseynxan, Kalba Alməđəd, Məşhəd Allahyar və s. Yeycənin zübdə sinə vuranları idi.
Zəkəriyyə bəhritəvilə başladı:
Bəstəri dibanı atıbsan bala.
Bəs niyə kül üstə yatıbsan bala?
Sinəçilər qollarını çırmayıb yaxalarını açmışdılar. Döşləri qıpqırmızı olmuşdu. Zəkəriyyə bəhritəvilə iki- üç an ara verəndə döşlərdən qopan ritmik gur səs məscidə yayılır və hamını heyrətləndirirdi. Hərdən «qoluza qurban» səsi ucalırdı. Polad kişi səhnəni daha da qızışdırmaq üçün «Məşhəd Allahyar qollaruvi aç» dedi.

Özü isə yorğunluqdanmı, aclıqdanmı ayaq üstə dayana bilməyib yıxıldı...
Şaman birdən özünə gəldi. Yoldaşları yataqlarını salmadan və hərəsi bir yerdə yuxulamışdı. Polad kişinin ömrü kimi beşlik lampanın da nefti qurtarıb sönmüşdü, piltəsi isə hələ də közərirdi. . .
Ertəsi gün Şahıya bir xəbər yayıldı. Dünya müharibəsi başlanmışdı. Qan içən Hitler avropanı ala, ala Şuraviyə soxulmuşdu. Deyildiyinə görə qərb dövlətlərinin təzyiqi nəticəsində Rzaxan İranı tərk etmək məcburiyyətində qalmışdı. Avropanı fəlakətə çəkən müharibə İranda həbsxana qapılarını sarsıtmış və dustaqlar azadlığa çıxmağa başlamışdı. Bunları eşidən Şaman axşam evə gəldikdən sonra yoldaşlarına, «mən vətənə gedirəm» deyə cər-cəməyini yığışdırmağa başladı.